RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 85 (9252) 27 APREL 2023-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı təsis edilib




→ 2




## Qapını bağladıq, açarı da cibimizdədir!

### 105 il ərzində ilk dəfədir ki, Azərbaycan öz sərhədlərinə tam şəkildə nəzarət edir

Sovet dövründə Azərbaycanla Hayastan arasında da sərhədlər formal xarakter daşıyırdı.

Hətta o qədər formal ki, haylar Moskvadakı hamilərinin (Moskvada həmişə haylara hay verənlər çox olub) dəstəyindən istifadə edərək "örüş yerləri" adı ilə hissə-hissə Azərbaycan torpaqlarını mənimsəyirdilər.

Sərhəddə yaşayan əhali arasında "otlaq mübahisələri" baş verəndə isə səssizcə, həm də amiranə şəkildə həll olunurdu.

Bu "sərhədsizlik" və "qapısızlıq" Qarabağ probleminin meydana gəlməsində, əvvəlcə münaqişəyə, sonra müharibəyə çevrilməsində, ən nəhayət, otuzillik işğalla sonuclanmasında mühüm amillərdən birinə çevrildi.

Müzəffər Ali Baş Komandan İlham Əliyev bu bəlalı yolun qapadılması üçün çox uzun, çox uzaqgörən, çox müdrik, çox qətiyyətli gedişlər etdi, dəfələrlə qabaqlayıcı addımlar atdı!

Hayastanın səhvlərindən məharətlə istifadə edərək beynəlxalq rəyi öz xeyrimizə köklədi!

Ən nəhayət, vədəsində və məqamında Laçın qapısını qapadaraq bu "şər yolu"na dövlətimizin nəzarətinə nail oldu!

Əslində, Müzəffər Ali Baş Komandan İlham Əliyev "status", "hüquq", "sülh müqaviləsinə əlavə şərt" deyənlərin ağızlarına daş basaraq hayların, Qarabağdakı separatçıların sonuncu "ümid qapıları"nı üzlərinə çırparaq birdəfəlik bağladı!

→ 3

## Müstəqil Azərbaycanın memarı

"Heydər Əliyev İli" çərçivəsində respublikamızda və ölkə xaricində müxtəlif tədbirlər keçirilir, yeni, müasir və müstəqil Azərbaycan dövlətinin banisi, Yeni Azərbaycan Partiyasının qurucusu, müdrik dövlət xadimi Heydər Əliyevin zəngin dövlətçilik irsinə hərtərəfli nəzər salınır və Ulu Öndərin əbədiyaşar ideyaları geniş ictimaiyyətin diqqətinə çatdırılır: "30 ildə zəngin və şərəfli inkişaf yolu keçərək Azərbaycanın tərəqqisində müstəsna rol oynayan Yeni Azərbaycan Partiyası tərəfindən də "Heydər Əliyev İli" çərçivəsində müxtəlif tədbirlərin - müsabiqələrin, aksiyaların, görüşlərin, elmi-praktik konfransların keçirilməsi nəzərdə tutulmuşdur. Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən tədbirlər planı çərçivəsində Heydər Əliyev şəxsiyyətinin müasir dövlətçilik tariximizdə müstəsna yerinin və rolunun tədqiq olunması, dahi şəxsiyyətin ideyalarının yeni nəslə aşılanması məqsədilə respublikamızın bütün bölgələrində tanınmış ictimaiyyət nümayəndələrinin iştirakı ilə silsilə tədbirlər artıq həyata keçirilməkdədir".

→ 4-5

## Azərbaycan qazının ixrac coğrafiyası genişlənir

Bu gün də Avropanın enerji bazarında Azərbaycan qazına tələbat durmadan artır. Odur ki, Bolqarıstan, Rumıniya, Macarıstan, Slovakiya ötürücü sistem operatorları ilə SOCAR arasında memorandumun imzalanması "Həmrəylik Halqası" təşəbbüsünün reallaşması üçün böyük bir addımdır. Bu yeni layihə "Cənub qaz dəhlizi" sayəsində iki ildən artıq müddət ərzində tərəfdaşlarımız üçün etibarlı və sabit enerji təchizatında strateji rol oynayan Azərbaycanın təbii qazının alternativ marşrut vasitəsilə əlavə bazarlara çıxışını təmin edəcək. Qeyd edək ki, anlaşma memorandumu Azərbaycandan Avropaya əlavə qazın tədarükü üçün 4 ötürücü sistem operatoru ilə SOCAR arasında əməkdaşlığın istiqamətlərini müəyyən edir. Əlavə qaz tədarükü "Həmrəylik halqası" adlandırılan Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın təkmilləşdirilmiş ötürücü şəbəkə sistemləri vasitəsilə həyata keçiriləcək.

Hazırda Azərbaycan qazı Gürcüstana, Türkiyəyə, Yunanıstana, Bolqarıstana və İtaliyaya ixrac edilir. Bu ildən başlayaraq Rumıniya da ölkəmizdən qaz alır. Lazımi interkonnektorlar olarsa, bu ilin sonundan etibarən Macarıstana və Slovakiyaya da qaz təchizatına başlamaq planlaşdırılır.

Azərbaycanın əməkdaşlıq və tərəfdaşlıq əlaqələri genişlənir, Azərbaycanın getdikcə daha çox ölkənin enerji təhlükəsizliyində rolu artır.

→ 8

## Vətən sərhədlərinin bütövlüyü təmin olunub



**Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən ölkəmizin suveren ərazilərində, Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsi qurulmuşdur.**

Yeni yaradılan məntəqədə Azərbaycan bayrağının ucaldılması mərasimi baş tutmuş və sərhəd-buraxılış məntəqəsindən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevə məruzə edilmişdir.

*Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzi*

## Qara dənizdə Türkiyə zəfəri



Son illərdə hərtərəfli yüksəliş dövrünü yaşayan Türkiyə Cümhuriyyətinin iqtisadiyyatı real ifadədə 3 dəfə böyüyüb. 900 milyard dollarlıq ümumi daxili məhsula malik olan Türkiyə, sözün əsl mənasında, müasir inkişaf mərhələsindədir. Yeni kəşflər ölkənin qaza olan tələbatının dörddəbirini ödəyəcək. Qeyd edək ki, Türkiyə layihə ilə bağlı boru yerləşdirmə işlərini ötən il tamamlayıb və işlər dənizin 2200 metr dərinliyində görülüb. Bu işlərin görülməsi isə müasir texnologiyalar, uzaqdan idarə olunan robotlar vasitəsilə həyata keçirilir. Türkiyə ötən dövrlərdə Qara dənizdə quyular qazsa da, onlar yalnız xarici şirkətlərlə birgə iş sahəsində mümkün olmuşdu. İndi isə iqtisadi yüksəliş dövrünü yaşayan qardaş ölkə bu işləri artıq öz imkanları hesabına həyata keçirir.

→ 8

## Dilimiz milli mənəviyyatımızın tərkib hissəsidir

→ 14




## Bakı möhtəşəm Qran-priyə tam hazırdır

İlk dəfə 2016-cı ildə paytaxtımızda keçirilən "Formula-1" Avropa Qran-prisinin Bakı mərhələsi yenilikləri ilə xatırlanır. Bu, sıralama turları ilə bağlıdır. Əvvəlki qaydalara görə, 18 dəqiqə davam edən birinci və 15 dəqiqəlik ikinci seansların nəticələrinə əsasən, ən pis nəticə göstərən 6 pilot mübarizədən kənarlaşdırıldı. 10 pilot 12 dəqiqəlik üçüncü seansdakı göstəricilərə görə yarışa start verdi. Yeni qaydaya görə isə, seansın sonunda yox, 90 saniyədən bir ən yavaş pilotun mübarizəni dayandırması nəzərdə tutulub.

→ 15



## "Heydər Əliyevin 100 illiyi (1923-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; 1993, № 23-24, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 251; 2003, № 12 (I kitab), maddə 677; 2005, № 4, maddə 291; 2006, № 10, maddə 846; 2007, № 3, maddə 213; 2008, № 6, maddələr 452, 472; 2009, № 1, maddə 4, № 5, maddə 312, № 7, maddələr 514, 515, № 12, maddə 974; 2010, № 3, maddə 174, № 11, maddə 960; 2011, № 11, maddə 992; 2012, № 7, maddə 664, № 11, maddələr 1036, 1048, 1061; 2013, № 5, maddələr 460, 478, № 10, maddə 1143, № 12, maddə 1477; 2014, № 6, maddələr 612, 623; 2015, № 12, maddə 1447; 2016, № 12, maddələr 1979, 2040; 2017, № 1, maddələr 16, 27, № 7, maddə 1311, № 10, maddə 1771, № 11, maddə 1962, № 12 (I kitab), maddələr 2242, 2269; 2018, № 2, maddə 168, № 3, maddə 387, № 5, maddələr 841, 859, 874, № 6, maddə 1190, № 11, maddə 2207, № 12 (I kitab), maddələr 2465, 2516; 2019, № 3, maddə 369, № 5, maddə 790, № 11, maddə 1693, № 12, maddə 1909; 2020, № 5, maddə 506, № 11, maddələr 1324, 1325, № 12 (I kitab), maddələr 1428, 1430; 2021, № 1, maddə 9, № 12, maddələr 1322, 1324, 1325; 2022, № 6, maddə 590, № 7, maddə 711, № 11, maddə 1238, № 12, maddə 1397; 2023, № 1, maddələr 29, 42) 2-ci maddəsinə "Vətən Müharibəsi Qəhrəmanı" medalı;" hissəsindən əvvəl aşağıdakı məzmunda yeni hissə əlavə edilsin:

"Heydər Əliyevin 100 illiyi (1923-2023)" Azərbaycan Respublikasının yubiley medalı;".

**Maddə 2.** "Heydər Əliyevin 100 illiyi (1923-2023)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

**Maddə 3.** "Heydər Əliyevin 100 illiyi (1923-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsviri" təsdiq edilsin (əlavə olunur).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 aprel 2023-cü il*

*Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli Qanunu ilə təsdiq edilmişdir*

## "Heydər Əliyevin 100 illiyi (1923-2023)" Azərbaycan Respublikasının yubiley medalı haqqında

## ƏSASNAMƏ

**Maddə 1. Təltif edilən şəxslər**

1.1. "Heydər Əliyevin 100 illiyi (1923-2023)" Azərbaycan Respublikasının yubiley medalı ilə Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, Azərbaycan Respublikasının və xarici ölkələrin dövlət və digər qurumlarının, beynəlxalq təşkilatların nümayəndələri aşağıdakılara görə təltif edilirlər:

1.1.1. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev irsinin tədqiqində və təbliğində xüsusi xidmətlərinə görə;

1.1.2. Azərbaycan Respublikasının dövlət quruculuğunda, o cümlədən milli azadlıq hərəkatında xüsusi xidmətlərinə görə;

1.1.3. azərbaycançılıq ideyasının həyata keçirilməsində, dünya azərbaycanlılarının həmrəyliyinin möhkəmləndirilməsində xidmətlərinə görə;

1.1.4. sülhün və xalqlar arasında dostluğun möhkəmləndirilməsində və beynəlxalq əməkdaşlığın inkişafında xidmətlərinə görə;

1.1.5. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunub saxlanılmasına və inkişafına, Azərbaycanın tərəqqisinə və şöhrətinin artmasına töhfə verən xidmətlərinə görə;

1.1.6. Azərbaycan Respublikasının sosial-iqtisadi, elmi-texniki və mədəni inkişafında xidmətlərinə görə;

1.1.7. dövlət idarəçiliyində, dövlət qulluğunda və ictimai-siyasi sahədə səmərəli fəaliyyətinə görə.

**Maddə 2. Təltif edən orqan**

"Heydər Əliyevin 100 illiyi (1923-2023)" Azərbaycan Respublikasının yubiley medalı ilə bu Əsasnamənin 1-ci maddəsində qeyd olunan şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

"Heydər Əliyevin 100 illiyi (1923-2023)" Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda ordenlərdən sonra taxılır.

*Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli Qanunu ilə təsdiq edilmişdir*

## "Heydər Əliyevin 100 illiyi (1923-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

"Heydər Əliyevin 100 illiyi (1923-2023)" Azərbaycan Respublikasının yubiley medalı (bundan sonra - medal) üzəri 999.9 əyarlı qızıl qatı ilə örtüləcək soyuq ştamplama üçün nəzərdə tutulmuş xüsusi tərkibli əlvan metaldan hazırlanan ümumi diametri 42 mm olan, bir-birinin üzərinə qoyulmuş iki səkkizguşəli ulduzdan ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfində hər bir guşəsi relyefli xətlərlə işlənmiş səkkizguşəli ulduzun üzərində guşələri ağ rəngli mina ilə işlənmiş səkkizguşəli ulduz yerləşdirilmişdir. Ağ minalı səkkizguşəli ulduzun üzərində xarici və daxili çevrələrlə konturlanmış, diametri 26 mm olan dairəvi lövhə yerləşdirilmişdir. Xarici və daxili çevrələrin arasında yuxarı qövs boyunca "HEYDƏR ƏLİYEV" sözləri, aşağı qövs boyunca "1923-2023" rəqəmləri yazılmışdır.

2.2. Daxili çevrənin içərisində, mərkəzdə Heydər Əliyevin barelyefi həkk olunmuşdur.

2.3. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır, qızılı rəngdədir.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfi hamar səthlidir.

3.2. Medalın arxa tərəfinin aşağı hissəsində medalın seriyası və nömrəsi göstərilir.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, yuxarı hissəsinə 34,5 mm x 1,5 mm ölçülü və aşağı hissəsinə 34,5 mm x 7,5 mm ölçülü, üzərində dəfnə yarpaqlarından ibarət çələng həkk olunmuş qızılı rəngli hamar lövhə bərkidilmiş, 31,5 mm x 15 mm ölçülü xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Xara lentin üzərində hər birinin eni 10,5 mm olan, Azərbaycan Respublikası Dövlət Bayrağının rənglərini əks etdirən yaşıl rəngli, qırmızı rəngli və mavi rəngli şaquli zolaqlar əks olunmuşdur.

4.3. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş, 31,5 mm x 9 mm ölçülü qəlib əlavə olunur.

**"Heydər Əliyevin 100 illiyi (1923-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsviri**




## 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, İkinci Dünya müharibəsində Qələbənin 78-ci ildönümü ilə əlaqədar **qərara alıram:**

1. 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 1 500,0 (bir min beş yüz) manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 750,0 (yeddi yüz əlli) manat məbləğində birdəfəlik maddi yardım verilsin.

2. Bu Sərəncamın 1-ci hissəsinin icrası məqsədilə:

2.1. Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 2,9 milyon (iki milyon doqquz yüz min) manat vəsait ayrılsın;

2.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 2.1-ci bəndində nəzərdə tutulmuş vəsaitin Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xüsusi hesabına köçürülməsini təmin etsin;

2.3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birdəfəlik maddi yardımın bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş şəxslərə ödənilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 aprel 2023-cü il*

## "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 mart tarixli 2553 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 mart tarixli 2553 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 3, maddə 258; 2022, № 5, maddə 498) birinci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. "Elnur Əliyev - Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin birinci müavini" sözləri "Rəşad Nəbiyev - Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri" sözləri ilə əvəz edilsin.

2. "Məmməd Abbasbəyli - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi" abzasından əvvəl aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Samir Məmmədov - Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini".

3. "Samir Məmmədov - Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Aparatının rəhbəri" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 aprel 2023-cü il*

## Prezident İlham Əliyevin Bolqarıstana səfəri Rumıniya KİV-inin diqqət mərkəzindədir

**Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstana səfəri Rumıniya KİV-inin də diqqət mərkəzində olub.**

AZƏRTAC xəbər verir ki, "Calea Europeana", "Agerpres", "Capital.ro", "Euractiv", "Economedia" və digər nüfuzlu xəbər portallarında, nəşrlərdə dərc olunan yazılarda aprelin 25-də Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu"nun imzalandığı vurğulanıb.




Bildirilib ki, anlaşma memorandumu Azərbaycandan Avropaya əlavə qazın tədarükü üçün 4 ötürücü sistem operatoru ilə SOCAR arasında əməkdaşlığın istiqamətlərini müəyyən edir. Əlavə qaz tədarükü "Həmrəylik Halqası" adlandırılan Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın təkmilləşdirilmiş ötürücü şəbəkə sistemləri vasitəsilə həyata keçiriləcək. Qeyd olunur ki, layihə Bolqarıstan, Rumıniya, Macarıstan, Slovakiyanın mövcud qaz nəqli infrastrukturundan istifadə etməklə Azərbaycandan əlavə həcmdə təbii qazın ötürülməsinə imkan verəcək.

## Litvalı nazir müavini bölgədə mövcud vəziyyət barədə məlumatlandırılıb

Aprelin 26-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Litva Respublikasının xarici işlər nazirinin müavini Mantas Adomenas ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan və Litva arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyində duran aktual məsələlər, o cümlədən regionda cari vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov Azərbaycan və Litva arasında ikitərəfli səviyyədə siyasi, iqtisadi, ticarət, enerji təhlükəsizliyi, bağlantılar, mədəniyyət, humanitar və digər sahələrdə, çoxtərəfli səviyyədə isə Avropa İttifaqı (Aİ) çərçivəsində səmərəli əməkdaşlıq gündəliyinin mövcudluğunu qeyd edib. Ölkəmizin Aİ-nin Şərq Tərəfdaşlığı proqramı çərçivəsində həyata keçirilən uğurlu layihələrinin münasibətlərin inkişafına töhfə verdiyi diqqətə çatdırılıb. Nazir Ceyhun Bayramov iki ölkə arasında münasibətlərin inkişafında qarşılıqlı səfərlərin və təmasların əhəmiyyətindən bəhs edərək, siyasi məsləhətləşmələrin əlaqələrin daha da genişləndirilməsi üçün mühüm mexanizmlərdən biri olduğunu qeyd edib.

C.Bayramov postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində apardığı bərpa və quruculuq işləri, regionda nəqliyyat və kommunikasiyaların açılması, sülh gündəliyinin irəli aparılması istiqamətində göstərilən səylər barədə qarşı tərəfi ətraflı məlumatlandırıb. Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində atılan addımların Ermənistanın qeyri-konstruktiv mövqeyi və davamlı təxribatları ilə üzləşdiyi qeyd edilib. Laçın-Xankəndi yolunda qeyri-qanuni fəaliyyət barədə ətraflı məlumat verilərək, Azərbaycan tərəfindən sərhəd-buraxılış məntəqəsinin təsis edilməsinin şəffaflığı və təhlükəsizliyi təmin edəcəyi vurğulanıb.

Nazir müavini Mantas Adomenas Litvanın Azərbaycan ilə münasibətlərin daha da inkişaf etdirilməsində maraqlı olduğunu qeyd edib. Nazir müavini bölgədə sülh və təhlükəsizliyin təmin olunacağına inam ifadə edib, bu istiqamətdə Litva tərəfinin dəstəyə hazır olduğunu bildirib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Sudandan 26 Azərbaycan vətəndaşının ölkəmizə təxliyəsi həyata keçirilir

Sudan Respublikasındakı mövcud vəziyyətlə əlaqədar olaraq bu ölkədə daimi və müvəqqəti yaşayan Azərbaycan Respublikası vətəndaşlarının təhlükəsizliyinin təmin edilməsi məqsədilə Azərbaycan hökuməti tərəfindən müvafiq tədbirlər həyata keçirilməkdədir.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, hazırda Sudan Respublikasında yerləri müəyyənləşdirilmiş 26 Azərbaycan vətəndaşının qardaş Türkiyənin dəstəyi ilə üçüncü ölkə vasitəsilə təxliyəsi həyata keçirilməkdədir. Həmçinin təxliyə edilən vətəndaşlarımızdan etibarlı səyahət sənədləri olmayanların ölkəmizin aidiyyəti diplomatik nümayəndəlikləri vasitəsilə sənədləşdirilməsi işi təmin olunacaq.

Xarici İşlər Nazirliyi Sudan Respublikasındakı vəziyyətlə əlaqədar bu ölkədə daimi və müvəqqəti yaşayan Azərbaycan vətəndaşlarına müraciət edərək onlardan hərbi qüvvələrin cəmləşdiyi ərazilərə səyahət etməməyi, ehtiyac olmadığı təqdirdə evlərində və ya güvənli yerlərdə qalmaları, habelə vətəndaşlarımıza bu ölkəyə səyahətdən çəkinmələrini tövsiyə edir.

Sudanda yaşayan vətəndaşlarımızdan təxliyə və ya hər hansı çətinliklə bağlı Azərbaycan Respublikasının Misir Ərəb Respublikasındakı səfirliyi ilə əlaqə saxlamaları xahiş olunur.

*Azərbaycan Respublikasının Misir Ərəb Respublikasındakı səfirliyinin qaynar xətti:*
*+201010271387*

# Qapını bağladıq, açarı da cibimizdədir!

## 105 il ərzində ilk dəfədir ki, Azərbaycan öz sərhədlərinə tam şəkildə nəzarət edir



Birinci dövlət müstəqilliyi dövründə (1918-1920-ci illər) Azərbaycan daxili və xarici qovğalardan baş açaraq sərhədlərini dəqiq müəyyənləşdirib tam nəzarətə götürə bilmədi.

Buna nə vaxtı çatdı, nə maliyyə imkanı.

Bu funksiyanı icra edəcək silahlı qüvvələr də hələ tam formalaşmamışdı.

Texniki nəzarəti təmin edəcək digər zəruri amillərin çatışmazlığı da bir yandan.

**On dörd müttəfiq respublikanı zorla öz tərkibinə qatan (sözdə "qardaş xalqların könüllü ittifaqı" adlandırılsa da) Rusiya - mərkəz üçün yalnız bütöv SSRİ-nin hüdudları sərhəd sayılırdı.**

Müttəfiq respublikalar arasında torpaq çəkişmələri baş verəndə isə mərkəzin nümayəndəsi gəlib hər ikisinin üstünə çımxırırdı: "Sizin torpağınız var ki ona görə mübahisə edirsiniz, oturun öz yerinizdə!" (Qazax rayonunda baş verən sərhəd mübahisəsini xatırlayın).

*Müttəfiq respublikaların xarici işlər nazirlikləri formal və rəmzi xarakter daşıyırdı.*

*Xarici siyasət və əlaqələrlə bağlı bütün məsələlər, xaricə getmək üçün verilən vizalar Moskvada həll olunurdu.*

Hətta bu gün öz yurdumuz kimi gedib-gəldiyimiz qardaş Türkiyəyə hər adam ayaq basa bilməzdi!

Bunun üçün yüz qat yoxlamadan keçməli, sonra Moskvaya uçaraq oradan sərhədi adlamaq barədə razılığa uyğun hərəkət etməli idin.

**Bəli, SSRİ-yə daxil olan bütün müttəfiq respublikaların sərhəd qapıları açıq idi, yalnız öz aralarında.**

**Qırmızı sovet pasportu ilə istədiyin vaxt istədiyin "qardaş ölkə"yə gedə bilərdin.**

**Səninlə "çəpər qonşusu" olan xarici dövlətlərin yolu isə Moskvadan keçirdi.**

**Hamı buna alışmışdı və qəbul etmişdi.**

Necə deyərlər, ağa deyər sür dərəyə, sür dərəyə də.

Düz 70 il daxilə açıq, xaricə bağlı qapılar arxasında yaşadıq.

❖ ❖ ❖

*Sovet dövründə Azərbaycanla Hayastan arasında da sərhədlər formal xarakter daşıyırdı.*

*Hətta o qədər formal ki, haylar Moskvadakı hamilərinin (Moskvada həmişə haylara hay verənlər çox olub) dəstəyindən istifadə edərək "örüş yerləri" adı ilə hissə-hissə Azərbaycan torpaqlarını mənimsəyirdilər.*

Sərhəddə yaşayan əhali arasında "otlaq mübahisələri" baş verəndə isə səssizcə, həm də amiranə şəkildə həll olunurdu.

**Bu "sərhədsizlik" və "qapısızlıq" Qarabağ probleminin meydana gəlməsində, əvvəlcə münaqişəyə, sonra müharibəyə çevrilməsində, ən nəhayət, otuz illik işğalla sonuclanmasında mühüm amillərdən birinə çevrildi.**

*İrəvan-Laçın-Xankəndi yolu həmişə təxribat, xəyanət və mənfur planlar yolu olub.*

- Qarabağda yaşayan ermənilərə həmişə təlimat və tapşırıqlar o yolla gəlib.
- "Böyük Ermənistan" sərsəmləməsi və "miatsum" sayıqlaması hərəkatı o yolla içərilərimizə ötürülüb.
- Separatizm hərəkatı o yolla Azərbaycan ərazisinə daxil edilib.
- Keçmiş DQMV-nin Azərbaycanın tərkibindən çıxarılmasına xidmət edən mərkəzin qərar və tapşırıqları, ermənipərəst nümayəndəsi A.Volski də həmin yolla ölkəmizə gəlib. (A.Volskinin "əmisi oğlu" R.Vardanyan da həmin yolla təşrif buyurmuşdu.)
- Otuz il "sülh danışıqları" adı ilə başımızı qatan ATƏT-in Minsk qrupu da gedib-gəlməkdən həmin yolu yağır etmişdi.
- 1988-1990-cı illərdə Xankəndidəki "xalqın etiraz hərəkatını" qızışdıran və silahlı toqquşmalara çevirən "irəvanlı saqqallılar" da həmin yolla gəlirdi.
- Azərbaycan ərazisinə silah-sursat, terrorçu-təxribatçı dəstələr hələ də o yolla gətirilirdi.
- Xocalıda soyqırımı törədən 366-cı alay da Laçın-Xankəndi yolu ilə ərazimizə soxulmuşdu.
- Otuz illik işğal dövründə işğalçı ordunun bütün təminatı həmin yolla aparılırdı.
- I və II Qarabağ müharibəsi dövründə işğalçılara göndərilən canlı qüvvə, sursat, zirehli texnika və digər təminatlar həmin yoldan keçmişdir.

*Hələ bu harasıdır, bütün mənəvi və siyasi dəstək də İrəvan-Laçın-Xankəndi yolu vasitəsilə baş tuturdu:*

- Baronessa Koks həftə səkkiz mən doqquz;
- Rusiya Dövlət Dumasının iqtidar partiyasından olan deputatları;
- Hayların "böyük bacısı" fransızların senator və konqresmenləri;
- Avropadan, ABŞ-dən gələn, ciblərində erməni pulu olan bütün erməniپərəstlər həmin yolla Azərbaycan ərazisinə icazəsiz-filansız soxulurdular.

*O yolun daha bir "missiyası" da vardı;*

- Azərbaycanın bütün talan olunmuş evləri, əmlakları, muzeyləri, yeraltı və yerüstü sərvətləri həmin yolla ölkə ərazisindən xaricə daşınırdı.

**Əslində, Laçın yolu ölkəmizin müstəqilliyinə qara kölgə salan anarxiya, xəyanət, təhlükə, özbaşınalıq yoluna çevrilmişdi.**

*Başda dünya erməniliyi olmaqla bütün erməni təəssübkeşləri həmin yola Azərbaycan tərəfindən nəzarətin bərpasına hər vəchlə mane olmağa çalışır, müxtəlif adlarla və bəhanələrlə əngəlləməyə can atırdılar.*

**Müzəffər Ali Baş Komandan İlham Əliyev bu bəlalı yolun qapadılması üçün çox uzun, çox uzaqgörən, çox müdrik, çox qətiyyətli gedişlər etdi, dəfələrlə qabaqlayıcı addımlar atdı!**

**Hayastanın səhvlərindən məharətlə istifadə edərək beynəlxalq rəyi öz xeyrimizə köklədi!**

**Ən nəhayət, vədəsində və məqamında Laçın qapısını qapadaraq bu "şər yolu"na dövlətimizin nəzarətinə nail oldu!**

**Əslində, Müzəffər Ali Baş Komandan İlham Əliyev "status", "hüquq", "sülh müqaviləsinə əlavə şərt" deyənlərin ağızlarına daş basaraq hayların, Qarabağdakı separatçıların sonuncu "ümid qapı"larını üzlərinə çırparaq birdəfəlik bağladı!**

❖ ❖ ❖

*Şişirtmədən deyək ki, İkinci Qarabağ müharibəsindən sonra bu, Azərbaycanın ikinci mühüm qələbəsi sayıla bilər!*

*Həm də bu uğurun çox böyük tarixi əhəmiyyəti var:*

*Bütün ərazimiz boyu sərhədlərimizə özümüz etibarlı şəkildə nəzarət edirik!*

İNDİ:

- O yolla ölkəmizə gəlmək istəyənləri özümüz yoxlayıb buraxacağıq!
- Vizasızları mədəni şəkildə geri qaytaracağıq!
- "Qara siyahı"ya saldıqlarımıza dirsək göstərəcəyik!
- Bizim razılığımız olmadan oradan heç bir silah, sursat, hərbçi keçə bilməyəcək!
- Nəyəsə ümid bağlayaraq və RSK-nin üçtərəfli bəyanatın tələblərini yerinə yetirməməsindən istifadə edərək Qarabağda qalan silahlılar daha kənardan heç bir yardım və təminat ala bilməyəcəklər!
- Qarabağda doğulmayıb sonradan burada məskunlaşdırılanları həmin yolla gəldikləri yerə yola salacağıq!
- Qanunlarımıza tabe olmaq istəməyənləri, vardanyan kimilərinin sözlərinə inanaraq nəyəsə ümid bəsləyənləri həmin yolla ölkədən çıxaracağıq!

**Bu yolla yalnız müstəqil Azərbaycanı sevənlər, onun qanunlarına hörmətlə yanaşanlar gedib-gələ biləcəklər!**

*Laçında nəzarət-buraxılış məntəqəsinin qurulması həm də tezliklə Zəngəzur dəhlizinin açılacağından xəbər verir!*

**Bəxtiyar SADIQOV**









# Heydər Əliyev İli 2023

# Müstəqil Azərbaycanın memarı





**Aprelin 26-da "Gülüstan" Sarayında Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, Bakı Dövlət Universitetinin və Türkiyənin Ankara Universitetinin birgə təşkilatçılığı ilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Müstəqil Azərbaycanın memarı" mövzusunda beynəlxalq elmi konfrans öz işinə başlayıb.**

Əvvəlcə konfrans iştirakçıları Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycan dövlətinin memarı, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib, məzarın önünə əklil və gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Konfransın açılış mərasimində Dövlət himni səsləndirilib. Sonra Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Konfransda çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, "Heydər Əliyev İli" çərçivəsində respublikamızda və ölkə xaricində müxtəlif tədbirlər keçirilir, yeni, müasir və müstəqil Azərbaycan dövlətinin banisi, Yeni Azərbaycan Partiyasının qurucusu, müdrik dövlət xadimi Heydər Əliyevin zəngin dövlətçilik irsinə hərtərəfli nəzər salınır və Ulu Öndərin əbədiyaşar ideyaları geniş ictimaiyyətin diqqətinə çatdırılır: "30 ildə zəngin və şərəfli inkişaf yolu keçərək Azərbaycanın tərəqqisində müstəsna rol oynayan Yeni Azərbaycan Partiyası tərəfindən də "Heydər Əliyev İli" çərçivəsində müxtəlif tədbirlərin - müsabiqələrin, aksiyaların, görüşlərin, elmi-praktik konfransların keçirilməsi nəzərdə tutulmuşdur. Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən tədbirlər planı çərçivəsində Heydər Əliyev şəxsiyyətinin müasir dövlətçilik tariximizdə müstəsna yerinin və rolunun tədqiq olunması, dahi şəxsiyyətin ideyalarının yeni nəslə aşılanması məqsədilə respublikamızın bütün bölgələrində tanınmış ictimaiyyət nümayəndələrinin iştirakı ilə silsilə tədbirlər artıq həyata keçirilməkdədir".

Tahir Budaqov söyləyib ki, Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı, Bakı Dövlət Universiteti və Ankara Universitetinin birgə təşkilatçılığı ilə "Müstəqil Azərbaycanın memarı" mövzusunda keçirilən bugünkü beynəlxalq elmi konfrans da Heydər Əliyevin xalqımız qarşısında müstəsna xidmətlərinin, Ulu Öndərin bizə bəxş etdiyi müstəqil Azərbaycanın inkişaf yolunun hərtərəfli öyrənilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

YAP Sədrinin müavini qeyd edib ki, müasir müstəqil Azərbaycan Heydər Əliyevin zəngin milli-mənəvi dəyərlərə və çoxəsrlik dövlətçilik ənənələrinə malik xalqımıza ən böyük tarixi və mənəvi-siyasi mirasıdır: "Ötən əsrin 90-cı illərinin əvvəlində dövlət müstəqilliyini yenicə bərpa etmiş, amma "ya olum, ya ölüm" dilemması qarşısında olan Azərbaycan xalqı düzgün seçim etməklə ölkənin xilasına, rifah və tərəqqi yoluna çıxmasına, respublikamızın əsl müstəqillik qazanmasına nail oldu. Söhbət o zamana qədər Azərbaycan SSR-in rəhbəri kimi respublikamızın intibahını təmin edən və gələcək müstəqilliyinin əsaslarını formalaşdıran, Sovet İttifaqı dövründə Azərbaycan dilinin respublika Konstitusiyasında dövlət dili kimi təsbit edilməsinə nail olan, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi ölkəmizin mənafelərini qətiyyətlə qoruyaraq xalqımızın rifahı və firavanlığı naminə vacib işlər görən, Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Sədri kimi blokada vəziyyətində olan muxtar respublikanı ağır sosial-iqtisadi vəziyyətdən və tənəzzüldən xilas edərək dirçəlişini təmin edən və Türkiyə başda olmaqla bir sıra xarici dövlətlərlə beynəlxalq əlaqələrini genişləndirən, ilk dəfə Naxçıvanda üçrəngli bayrağımızın qaldırılmasına müvəffəq olan və bütövlükdə ölkəmizə mühüm nailiyyətlər qazandıran Heydər Əliyevin xalqın təkidli tələbi ilə tarixi-siyasi məsuliyyəti öz üzərinə götürməsindən, respublikamızı siyasi təlatümlərdən, iqtisadi böhrandan, regional təcrid vəziyyətindən xilas edərək inkişaf yoluna çıxarmasından, güclü, qüdrətli və nüfuzlu dövlətə çevirməsindən gedir. Məlumdur ki, ölkədə iqtisadi böhran və siyasi hərc-mərcliyin hökm sürdüyü, Ermənistan tərəfindən respublikamızın ərazi bütövlüyünə qəsd edildiyi - torpaqlarımızın ard-arda işğal olunduğu ağır, acınacaqlı və mürəkkəb bir şəraitdə Azərbaycan xalqı çıxış yolunu qətiyyətli və vətənpərvər, zəngin idarəetmə təcrübəsinə malik lider - dahi şəxsiyyət Heydər Əliyevin ətrafında sıx birləşməkdə görmüşdü. Təbii ki, xalqın Heydər Əliyevə inamı təsadüfi deyildi, konkret reallıqlara əsaslanırdı, Ulu Öndərin ayrı-ayrı dövrlərdə və müxtəlif vəzifələrdə xalqımız qarşısındakı misilsiz xidmətlərindən qaynaqlanırdı. Bu inam və etimadın bariz təzahürü kimi Azərbaycan xalqının qabaqcıl nümayəndələrindən olan 91 nəfər ziyalının müraciəti əsasında 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaradılması xalq-Lider birliyi və milli həmrəylik şəraitində qarşıda duran milli vəzifələrin yerinə yetirilməsində müstəsna rol oynadı".

Tahir Budaqov vurğulayıb ki, müdrik dövlət xadimi Heydər Əliyevin liderliyi ilə Yeni Azərbaycan Partiyası dövlətimizin maraqlarına uyğun prinsipial mövqe ortaya qoyaraq qısa zamanda xalqın böyük dəstəyini qazandı: "Heydər Əliyev şəxsiyyətinə sarsılmaz inam Yeni Azərbaycan Partiyasının da yüksək nüfuz qazanmasını şərtləndirdi. 1993-cü ilin 3 oktyabr tarixində keçirilən seçkilərdə xalqın müdrik seçimi - böyük etimadı əsasında Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev milli maraqlardan irəli gələn strateji hədəfləri uğurla reallaşdırmaqla Azərbaycanı müstəqil ölkəyə çevirdi, başqa sözlə, müstəqillik de-fakto təmin olundu. Həyata keçirilən uzaqgörən və məqsədyönlü siyasət nəticəsində sabitlik və təhlükəsizlik mühitinin yaradılması, xarici dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığın qurulması və münasibətlərin bərabərhüquqlu tərəfdaşlıq prinsipi əsasında inkişaf etdirilməsi, beynəlxalq təşkilatlarda yüksək fəallığın təmin olunması və digər mühüm addımlar müstəqilliyin möhkəmləndirilməsini, Azərbaycanın regionda rolunun artmasını, qlobal siyasi arenada imkanlarının genişlənməsini təmin etdi, ölkəmiz beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaşa çevrildi. İnkaredilməz həqiqətdir ki, Ümummilli Liderin xalqın firavan gələcəyi və dövlətin parlaq perspektivləri naminə müstəsna xidmətlərindən biri siyasi varisliyin təmin olunmasıdır. Ulu Öndərin siyasi varisi olan cənab İlham Əliyev 2003-cü ildə xalqın iradəsi ilə Prezident seçildikdən sonra ölkəmizin inkişafında yeni mərhələnin əsası qoyuldu. Azərbaycan dövləti öz iqtisadi, siyasi, hərbi gücü və xalqımızın mübarizə ruhu, əzmkar mövqeyi sayəsində yeni zirvələrə doğru inamla irəliləməyə başladı, bütün sahələrdə möhtəşəm və tarixi əhəmiyyətə malik uğurlar əldə olundu. Ölkəmizin ərazi bütövlüyünün bərpa olunması - 44 günlük Vətən müharibəsində qazanılmış şanlı qələbə sayəsində torpaqlarımızın işğaldan azad edilməsi isə Heydər Əliyev ideyalarının təntənəsi, Prezident İlham Əliyevin uğurlu və uzaqgörən siyasətinin real nəticəsidir. Bir sözlə, Prezident İlham Əliyevin Heydər Əliyev ideyalarına əsaslanan, milli maraqlara və müasir çağırışlara cavab verən ardıcıl siyasəti Azərbaycanın bugünkü inkişafını təmin, gələcək strateji hədəflərinin isə gerçəkləşməsini mümkün edən başlıca amildir".

"Azərbaycan xalqı hər zaman Heydər Əliyev siyasətinə, onun parlaq ideyalarına sədaqət nümayiş etdirmişdir. Cəmiyyətin bütün təbəqələrini təmsil edən vətənpərvər insanlar kimi, Bakı Dövlət Universitetində çalışan qabaqcıl elm xadimləri, ziyalılar da Ulu Öndərin ideyalarının reallaşmasında mühüm rol oynamış, Prezident İlham Əliyevin milli maraqlara əsaslanan siyasətinə qətiyyətli dəstək ifadə etmişlər. Bu, Ümummilli Liderimizin məzunu olduğu və fəaliyyətinə hər zaman böyük önəm verdiyi, yüksək diqqət və qayğı göstərdiyi Bakı Dövlət Universitetinin milli məsələlərdə və tarixi-siyasi məsuliyyət anlarında öz sözünü deyən ziyalılar ordusuna malik olduğunu təsdiqləyən təkzibedilməz faktdır. Xüsusi vurğulamaq istəyirəm ki, bu gün tarixi ənənələrə və zəngin elmi təcrübəyə malik olan Bakı Dövlət Universitetinin elm və təhsil sahəsi ilə yanaşı, siyasi proseslərdə də fəal rol oynayan, prinsipial mövqeyi və sağlam əqidəsi ilə fərqlənən nüfuzlu alimləri partiyamızın sıralarında təmsil olunurlar. Yeni Azərbaycan Partiyasının üzvü olan elm xadimlərinin dövlətçilik, azərbaycançılıq, vətənpərvərlik prinsipləri əsasında çalışmaları, üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirmələri Heydər Əliyev irsinə və ideyalarına sədaqət nümunəsi olmaqla yanaşı, Azərbaycanın inkişafına, qarşıda duran milli hədəflərin reallaşmasına önəmli töhfədir",- deyən YAP Mərkəzi Aparatının rəhbəri bildirib ki, bu gün dahi şəxsiyyət, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ruhu şaddır. Çünki onun vəsiyyəti siyasi varisi, dövlətimizin başçısı, partiyamızın Sədri, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən yerinə yetirilmişdir: Azərbaycan Ulu Öndərin arzuladığı - görmək istədiyi kimi qüdrətli, əzəmətli və qalib dövlətdir.

"Azərbaycan xalqı müstəqil dövlətimizin banisi, dahi şəxsiyyət, müdrik dövlət xadimi Heydər Əliyevin əziz xatirəsini daim ehtiramla və minnətdarlıqla yad edəcək, Ulu Öndərin əziz xatirəsini qəlbində əbədi yaşadacaqdır. Heydər Əliyev ideyalarına sədaqət nümayiş etdirərək və Prezident İlham Əliyevin ətrafında sıx birləşərək daha güclü Azərbaycan naminə davam etdirdiyiniz şərəfli və məsuliyyətli fəaliyyətinizdə hər birinizə yeni-yeni uğurlar arzulayıram", - deyə YAP Sədrinin müavini vurğulayıb.

Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev bildirib ki, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş bu konfrans iki gün ərzində 3 bölmədə işini davam etdirəcək, 110-dan çox məruzə dinləniləcək. Konfransın işində ölkəmizin müxtəlif qurumlarından olan alimlərlə yanaşı, qardaş Türkiyə və İsraildən də qonaqlar iştirak edirlər. Onun sözlərinə görə, konfransın plenar iclasının Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilən bu möhtəşəm sarayda keçirilməsinin də böyük rəmzi mənası var: "2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsini xalqımız xoş ovqat və böyük sevinc hissi ilə qarşılayır. Bu gün qədirbilən xalqımız onu ağır sınaqlardan müdrikliklə, ağlın, idrakın yenilməz gücü ilə çıxarmış, işığa, nura qovuşdurmuş Ulu Öndər Heydər Əliyevi minnətdarlıqla yad edir. Əziz və unudulmaz xatirəsi hər zaman bizimlə olan Ümummilli Liderimizin mənəvi ömrünün 100-cü zirvəsindən ötən illərə baxdıqca bir daha şahid oluruq ki, XX əsrin 70-ci illərindən başlayaraq xalqımızın və dövlətimizin əldə etdiyi bütün uğurların təməlində məhz Heydər Əliyev siyasəti dayanır - bu fenomenal şəxsiyyətin işıqlı əməlləri, parlaq siması dayanır".

Elçin Babayev qeyd edib ki, həyatının məqsədi, başlıca amalı Azərbaycanın müstəqilliyi, doğma xalqının xoşbəxtliyi olan Ulu Öndər bütün mənalı ömrünü bu məqsədə nail olunmasına sərf edib. Ümummilli Lider öz soy-kökünə, milli-mənəvi dəyərlərimizə söykənərək misilsiz xidmətlər göstərib, bu müqəddəs missiyanı uğurla, şərəflə, cəsarət və mərdliklə yerinə yetirib. Dövlət başçısının 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Sərəncamında qeyd edildiyi kimi, "Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur".

Daha sonra mövzu ilə bağlı videoçarx nümayiş etdirilib.

Konfransda çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini Əli Əhmədov bildirib ki, xalqımız Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyini böyük coşqu və ehtiramla yad edir: "Bu, xalqımızın Heydər Əliyevə, onun şəxsiyyətinə və tarixi xidmətlərinə verdiyi böyük qiymətin təzahürüdür, digər tərəfdən isə, xalqın milli dövlətçiliyə ehtiramının ifadəsidir. Zaman keçdikcə Heydər Əliyevin tarixi xidmətlərinə və şəxsiyyətinə verdiyimiz qiymət daha kamil olacaqdır. Zaman bu deyilənlərin həqiqət olduğunu isbat etdi. Çünki ötən illər ərzində Heydər Əliyevin qurduğu müstəqil Azərbaycan daha qüdrətli dövlət oldu, daha güclü ölkə kimi dünya birliyində özünü təsdiq etdi".

YAP Sədrinin müavini söyləyib ki, Ümummilli Lider Heydər Əliyevin ideyaları daim yaşayacaq. Çünki bu ideyalar Azərbaycanın tərəqqisinin və yüksəlişinin əsasını təşkil edir: "Ümummilli Liderin Azərbaycana rəhbərlik etdiyi illərdə görülən işlərə, xalqımızın həyatında baş verən əsaslı dəyişikliklərə nəzər salsaq, bu fikri təsdiqləyən kifayət qədər faktlar söyləmək mümkündür. 1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsindən sonra respublikamızda sürətli inkişaf başladı. 1969-cu ildən sonra Ulu Öndərin həyata keçirdiyi islahatlar nəticəsində Azərbaycan tamamilə dəyişdi, özünə inamı artdı, dinamik inkişaf yoluna çıxdı və xalq öz gələcəyinə inamla baxmağa başladı. Eyni zamanda o dövrdə Heydər Əliyevin uğurlu siyasəti nəticəsində milli iradənin güclənməsi Azərbaycanın gələcək müstəqilliyinə gedən yolun əsaslarını təşkil edirdi".

"1993-cü ilə qədərki və ondan sonrakı Azərbaycan gözlərimiz qarşısındadır. 1990-cı illərin əvvəlində respublikamızda total böhran hökm sürürdü, ovaxtkı hakimiyyət Azərbaycanı məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Belə bir şəraitdə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı zərurətə çevrildi. O zamana qədər xalq Heydər Əliyevi qurucu lider kimi qəbul edirdisə, bu dəfə Ulu Öndər xilaskarlıq missiyasını yerinə yetirdi. Xaos, anarxiya, ümidsizlik içərisində olan, dərin böhran keçirən Azərbaycanda məhz Ulu Öndərin hakimiyyətə qayıdışından sonra, onun qətiyyətli islahatlar strategiyası nəticəsində əmin-amanlıq bərqərar oldu, dinamik inkişaf təmin edildi", - deyə Əli Əhmədov vurğulayıb.

Ulu Öndərin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərindən danışan Baş nazirin müavini söyləyib ki, Azərbaycanın uğurlu inkişafı məhz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət nəticəsində təmin edilib: "Ümummilli Liderin Azərbaycan xalqı və dövləti qarşısında xidmətləri o qədər böyükdür ki, Heydər Əliyevin xatirəsi hər gün, hər zaman anılır. Azərbaycanın hər bir guşəsində Heydər Əliyevin izi görünür, hər bir sahənin inkişafında Ulu Öndərin müəyyənləşdirdiyi siyasət özünü göstərir. Bu gün Azərbaycan Heydər Əliyev ideyaları əsasında uğurla, qürurla inkişaf edir. Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət, dəyərlər, strategiya Azərbaycan xalqına xidmət edir".

Əli Əhmədov diqqətə çatdırıb ki, bu gün Heydər Əliyev siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Onun sözlərinə görə, hazırda Azərbaycan güclü, qüdrətli, beynəlxalq aləmdə nüfuzlu bir dövlətə çevrilib: "Məhz Azərbaycan dövlətinin möhkəm təməllər üzərində qurulmasının nəticəsidir ki, daha da güclənirik, beynəlxalq müstəvidə ölkəmizin nüfuzu daha da artır. Bu gün ölkəmizlə hesablaşırlar. Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində ərazi bütövlüyümüzün bərpa edilməsi dövlətimizin gücünü daha da artırıb. Heydər Əliyev siyasəti bundan sonra da uğurla davam etdiriləcək".

Daha sonra çıxış edən elm və təhsil naziri Emin Əmrullayev qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycanda elm və təhsilin inkişafında müstəsna rolu var: "Təhsil haqqında danışarkən böyük hədəflərdən bəhs edirik. Xüsusi qeyd etmək lazımdır ki, 1920-ci illərdə ali təhsillilərimizin sayı olduqca az olub. Ölkəmizin ötən 100 il ərzində təhsil sahəsində əldə etdiyi nailiyyətlər unikal nəticədir".

Emin Əmrullayevin sözlərinə görə, Ulu Öndər Heydər Əliyevin təhsil şəbəkəsinin artırılmasında, Azərbaycan vətəndaşlarının keçmiş Sovet İttifaqının ali məktəblərində təhsil almasında rolu təqdirəlayiqdir. Nazir qeyd edib ki, azərbaycandilli təhsil şəbəkələrinin genişləndirilməsi, ali təhsil kontingentinin artırılması təhsilimizin sonrakı dövrlərinə, bu gününə əsaslı şəkildə təsir edib: "Ulu Öndərin ölkəmizə rəhbərliyi dövrü təhsilin qızıl dövrüdür. O dövrdə məktəb şəbəkəsi böyüdü, ucqar kəndlərdə məktəblər fəaliyyətə başladı. Ötən əsrin əvvəlində bir neçə min ali təhsilli insan var idisə, 70-ci illərdə bu rəqəm yüz minə çatdı. Yəni Ulu Öndər Heydər Əliyevin 1970-ci illərdə ali təhsillilərin sayının artırılmasında böyük rolu var.

*Ardı 5-ci səh.*



**Heydər Əliyev İli 2023**

# Müstəqil Azərbaycanın memarı









*Əvvəli 4-cü səh.*

Məhz bu dövrdə Azərbaycanda elm və təhsil sahəsində müsbət dinamikanın təməli qoyulub. Azərbaycan dilində tədris verən ümumi təhsil müəssisələrinin sayının artırılması və bu kimi irəliləyişlər məhz Ulu Öndərin adı ilə bağlıdır. 15 minə yaxın gəncin respublikadan kənarda - keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almasının dəstəklənməsi məhz Heydər Əliyevin respublikamıza rəhbərliyi dövründə olub".

Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli çıxışında bildirib ki, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş bu konfrans həmçinin Azərbaycanın müstəqilliyinin bərpası tarixinin bir daha düzgün qiymətləndirilməsi imkanıdır. Siyasi tarix elmi nöqteyi-nəzərindən Heydər Əliyevin, o cümlədən YAP-ın müstəqil Azərbaycan uğrunda mübarizədə yeri əvəzolunmazdır və düzgün dəyərləndirilməlidir.

Əli Hüseynli qeyd edib ki, xalqımız Heydər Əliyevin sovet Azərbaycanı və SSRİ rəhbərliyində olduğu dövrlərdə böyük uğurlar qazanmışdı. Ona görə də belə bir şəxsiyyətin - Heydər Əliyevin 1987-ci ildə sovet rəhbərliyindən ədalətsizcəsinə kənarlaşdırılması və təqib olunması Azərbaycan xalqının sovetlər birliyinə inamını sarsıtdı. Əslində, xalqın müstəqillik düşüncəsinə ilk təkan məhz bu hadisə oldu. "Ardınca soydaşlarımız Ermənistandan kütləvi deportasiya edildi, Sumqayıtda ermənilər təxribat törətdilər. Hadisələrin kulminasiyası 20 Yanvar faciəsi oldu. Hakimiyyətdə olanların və Xalq Cəbhəsi fəallarının qorxaqlığı və xəyanəti fonunda Azərbaycan xalqının haqq səsini dünyaya çatdıran yalnız Heydər Əliyev oldu. Onun Moskvada cəsarətli bəyanatından ruhlanmış Azərbaycan xalqının müstəqillik mübarizəsi daha geniş vüsət aldı",- deyən Əli Hüseynli əlavə edib ki, 1987-ci ildən başlayan tarixi uğursuzluqların və faciələrin qarşısını ala biləcək yeganə şəxs Heydər Əliyev idi. Yüz minlərlə insanın arzusu Heydər Əliyevin Bakıya dönüşü və xalqa rəhbərliyi idi. Belə bir tarixi şans Heydər Əliyev Moskvadan 1990-cı ilin yayında Bakıya gələrkən yarandı. Təəssüflər olsun ki, o həm vaxtilə özünün vəzifə verdiyi Azərbaycanın ozamankı hakimiyyət nümayəndələri tərəfindən təqib olunmağa başladı. Eyni zamanda xalq azadlıq hərəkatına yamaq kimi qoşulmuş cəbhəçilər də Heydər Əliyevi gözdən salmağa cəhd etdilər, amma heç zaman buna nail ola bilmədilər.

Əli Hüseynli xatırladıb ki, 1990-cı illərin əvvəlində Azərbaycan dövlətçiliyi daha dərin bir uçuruma yuvarlandı. "Şuşanın və Laçının işğalına şərait yaratmaqla təxribat və dövlət çevrilişi nəticəsində AXC-Müsavat cütlüyü hakimiyyəti zəbt etdi, nəticədə ölkənin iqtisadiyyatı dağıdıldı və Qarabağın işğalı genişləndi. Sözsüz ki, Azərbaycan xalqı bütövlükdə özünün müstəqillik uğrunda apardığı mübarizəsinin bir qrup qaragüruh quldur tərəfindən heçə endirilməsi ilə barışmayacaqdı. Məhz buna görə də Bakı Dövlət Universitetinin nümayəndələrinin də təmsil olunduğu "91-lər" adlanan bir qrup ziyalı, əslində, bütün xalqın iradəsini həyata keçirərək Azərbaycanın müstəqillik mübarizəsinin tarixində dönüş yaratdı. Tarixi reallıq bundan ibarətdir ki, Heydər Əliyevin rəhbərliyi ilə yaranmış Yeni Azərbaycan Partiyası xalqın müstəqillik uğrunda apardığı mübarizənin layiqli aparıcı siyasi qüvvəsi kimi meydana çıxdı. Azərbaycan xalqının düşüncəsində əsl milli azadlıq və müstəqillik simvolu olmuş Heydər Əliyev, nəhayət, Azərbaycan dövlətinə rəhbərliyə qayıtdı", - deyən Əli Hüseynli vurğulayıb ki, 1993-cü ilin 15 İyun - Milli Qurtuluş Günü həm də müstəqilliyimizin qurtuluşu oldu.

O bildirib ki, 1990-cı ilin 17 noyabrında Naxçıvanda Heydər Əliyevin qaldırdığı müstəqil üçrəngli Azərbaycan bayrağı məhz onun davamçısı, Yeni Azərbaycan Partiyasının Sədri, Ali Baş Komandan İlham Əliyev tərəfindən 2020-ci ilin 8 noyabrında Şuşada ucaldıldı: "Şübhə yoxdur ki, YAP-ın bayrağı da hər zaman Azərbaycanın üçrəngli bayrağı ilə yanaşı dalğalanacaqdır. Heydər Əliyev və Yeni Azərbaycan Partiyası Azərbaycan tarixində müstəqillik uğrunda mübarizənin həqiqi carçısı kimi əbədi qalacaq".

Konfransda çıxış edən Türkiyənin Ankara Universitetinin prorektoru Hasan Serdar Öztürk əvvəlcə universitetin rektoru professor Necdet Ünüvarın salamlarını konfrans iştirakçılarına çatdırıb. O bildirib ki, müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş beynəlxalq elmi konfrans böyük əhəmiyyətə malikdir: "Heydər Əliyev bütün ömrünü Azərbaycan və onun inkişafı üçün fəda etmiş dəyərli Liderdir. O, təkcə Azərbaycanın deyil, bütün türk dünyasının sahib olduğu liderlər arasında müstəsna yer tutur. Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərliyi dövründə Ankara Universitetini də ziyarət edib. 2001-ci ildə Heydər Əliyevə Ankara Universitetinin Fəxri diplomu təqdim edilib. O, Ankara Universitetinin rektorluğunun binası qarşısında ağac əkib. 2001-ci ildə əkilən bu ağac bizim üçün dahi şəxsiyyətin ziyarətindən qalmış əziz xatirələrdən biridir".

Türkiyə ilə Azərbaycanın dost və qardaş ölkə olduğunu deyən qonaq münasibətlərimizin Ulu Öndər Heydər Əliyevin söylədiyi "Bir millət, iki dövlət" fəlsəfəsinə əsaslandığını vurğulayıb. O bildirib ki, Azərbaycan xalqının Qarabağ Zəfəri bütün türk dünyasının qələbəsidir.

Beynəlxalq konfransın açılış mərasiminin sonunda xatirə fotosu çəkdirilib.

Daha sonra konfrans Milli Məclisin deputatı, Bakı Dövlət Universitetinin Ümumi Dilçilik kafedrasının müdiri, AMEA-nın həqiqi üzvü Nizami Cəfərovun moderatorluğu ilə plenar iclasla davam edib. Plenar iclasda Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, bp-nin Yaxın Şərq və Xəzər regionunda xarici əlaqələr və kommunikasiya üzrə vitse-prezidenti, BDU-nun Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının müəllimi Bəxtiyar Aslanbəyli, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, BDU-nun Konstitusiya hüququ kafedrasının müəllimi Ziyafət Əsgərov, İsrailin Key Pedaqoji İnstitutunun prorektoru Mark Applebaum, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri, YAP Təftiş Komissiyasının üzvü Sadiq Qurbanov, Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü, BDU-nun Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri Anar İsgəndərov, BDU-nun Tarix fakültəsinin dekanı İbrahim Zeynalov, Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü, Gəncə Dövlət Universitetinin elm və innovasiyalar üzrə prorektoru Pərvin Kərimzadə, Milli Məclisin deputatı, YAP Təftiş Komissiyasının üzvü, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi Araşdırmalar İnstitutunun direktoru Elman Nəsirov, YAP Xətai Rayon Təşkilatının sədri, Bakı Slavyan Universitetinin professoru Vüqar Rəhimzadə, BDU-nun Qafqaz xalqları tarixi kafedrasının müdiri İradə Hüseynova, BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecin direktoru, BDU-nun Şifahi xalq ədəbiyyatı kafedrasının müdiri Səhər Orucova məruzələrlə çıxış ediblər.

Konfrans öz işini bu gün bölmə iclasları ilə davam etdirəcək və ümumilikdə 98 mövzu ətrafında çıxışların dinlənilməsi nəzərdə tutulub.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*



# Heydər Əliyev İli 2023

## Ulu Öndər Heydər Əliyevin 100 illiyi münasibətilə hüquqi yardım aksiyası təşkil edilib

**Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyevin deputat ofisində aprelin 26-da Ulu Öndər Heydər Əliyevin 100 illiyi münasibətilə hüquqi yardım aksiyası təşkil edilib.**



Milli Məclisin Sədri Sahibə Qafarovanın təşəbbüsü ilə keçirilən hüquqi yardımla bağlı silsilə tədbirlərin davamı olaraq təşkil edilmiş aksiyada Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının dəstəyi ilə ərazi məhdudiyyəti olmadan şəhid ailələri və qazilərə, eləcə də 20 saylı Nərimanov ikinci seçki dairəsinin əhatə etdiyi ərazidə yaşayan seçicilərə peşəkar hüquqi yardım göstərilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, aksiyada vətəndaşların mülkiyyət, mənzil hüququ, əmlak məsələləri və digər məzmunlu müraciətlərinə vəkillər tərəfindən peşəkar hüquqi məsləhətlər verilib, müvafiq tədbirlər görülüb.

Adil Əliyev eyni zamanda şəhid ailələrinin, qazilərin və seçicilərin növbəti qəbulunu keçirib. Qəbul zamanı vətəndaşlar tərəfindən qaldırılan müxtəlif məzmunlu müraciətlər dinlənilib, onların bir qismi yerindəcə həll edilib, digər müraciətlərin həlli və araşdırılması üçün aidiyyəti orqanlara sorğular hazırlanıb.

Müraciət edən vətəndaşlara bildirilib ki, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi, rifah halının daha da yaxşılaşdırılması, şəhid ailələrinin və qazilərin sosial problemlərinin həlli daim diqqət mərkəzindədir. Qeyd olunub ki, cənab Prezident tərəfindən əhalinin müraciətlərinə həssaslıqla yanaşılması barədə verilən tapşırıq və tövsiyələrə uyğun olaraq, Milli Məclis Sədrinin müavini Adil Əliyevin ünvanına daxil olan bütün növ müraciətlərə yüksək diqqət göstərilir, mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq müvafiq tədbirlər görülür.

*"Azərbaycan"*

## Türkiyə-Azərbaycan əlaqələrində Heydər Əliyevin mirası

Türkiyənin İstanbul şəhərində Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM), Azərbaycanın İstanbuldakı baş konsulluğu, İbn Haldun Universiteti və Heydər Əliyev Avrasiya Çalışmaları Uyğulama və Araşdırma Mərkəzinin (HACE) təşkilatçılığı ilə "Türkiyə-Azərbaycan əlaqələrində Heydər Əliyevin mirası" adlı konfrans keçirilib.

Bu barədə AZƏRTAC-a BMTM-in Mətbuat xidmətindən məlumat verilib.

BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev 2023-cü ilin "Heydər Əliyev İli" elan olunası ilə əlaqədar rəhbərlik etdiyi qurumun həm Azərbaycanda, həm də ölkəmizdən kənarda konfranslar təşkil etdiyini bildirib. Qeyd olunub ki, bu tədbirlərin keçirilməsində əsas məqsəd o dövrdə baş vermiş siyasi iqtisadi prosesləri, Heydər Əliyevin yürütdüyü siyasəti, o cümlədən Azərbaycan-Türkiyə əlaqələrini akademik cəhətdən təhlil etmək, universitetlərə, tələbələrə çatdırmaqdır. Fərid Şəfiyev deyib ki, müstəqilliyinin ilk illərində Azərbaycan çətin iqtisadi və siyasi proseslərdən keçmiş, ərazilərinin bir qismi Ermənistan tərəfdən işğal olunmuşdu. 2020-ci ildə Azərbaycan ərazilərini işğaldan azad edərkən Türkiyənin mənəvi dəstəyini hiss edib. Azərbaycan öz dövlətçiliyini gücləndirir, Azərbaycan-Türkiyə dostluğu, qardaşlığı möhkəmlənir. Bütün bunların əsasını Ümummilli Lider Heydər Əliyev qoyub. Ulu Öndərin həyata keçirdiyi enerji layihələrinin, iqtisadi islahatların təqribən 30 ildən sonra nəticələrini gördükcə onun nə qədər uzaqgörən siyasi xadim olduğunu müşahidə edirik.

Azərbaycanın İstanbuldakı baş konsulu Nərminə Mustafayeva Ulu Öndər Heydər Əliyevin öz həyatını xalqımızın rifahının yaxşılaşmasına, güclü Azərbaycan dövlətinin qurulmasına həsr etdiyini və xalqın da buna qarşılıq verdiyini deyib. Diqqətə çatdırılıb ki, Heydər Əliyev hakimiyyətinin ilk illərindən, həmçinin Türkiyə-Azərbaycan əlaqələrinin inkişafına önəm verib və bu, xarici siyasətin əsas istiqamətlərindən biri olub. Ortaq dilimiz, dinimiz, tariximiz bunlar üçün yaxşı zəmin təşkil edib. Bu gün Azərbaycan və Türkiyə təkcə öz ölkələri üçün deyil, bölgədə sülhə və əmin-amanlığa xidmət edən layihələr gerçəkləşdirir. Heydər Əliyevin hər zaman dediyi kimi, Azərbaycan və Türkiyə beynəlxalq məsələlərdə hər zaman birlikdədir, bu siyasət əlaqələrimizin təməl prinsiplərindən biridir.

Konfransda İbn Haldun Universitetinin rektoru Atilla Arkan, Universitetin Qəyyumlar Şurasının sədri İrfan Gündüz, Azərbaycan Parlamentinin üzvü Ramil Həsən, TBMM Türkiyə-Azərbaycan Dostluq Qrupunun rəhbəri Şamil Ayrım, Türkiyə Prezident Administrasiyası Xarici Siyasət və Təhlükəsizlik Şurasının üzvü, Altınbaş Universitetinin rektoru Çağrı Erhan, "SOCAR Türkiyə"nin Kommunikasiya və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəhbəri Mikayıl Yusifov, BMTM-in şöbə müdiri Cavid Vəliyev, aparıcı məsləhətçi Mətin Məmmədli və digər Türkiyə və Azərbaycandan olan professor və müəllimlər Türkiyə-Azərbaycan əlaqələrinin inkişafında Heydər Əliyevin yürütdüyü siyasətin roluna və əlaqələrin gələcəyinə dair müzakirələr aparıblar.

## Moskvada Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş fotosərgi açılıb

Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində Azərbaycan Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və "Azərbaycan Dəmir Yolları" QSC-nin təşəbbüsü, "Rusiya Dəmir Yolları" ASC, Rusiya Nəqliyyat Universiteti və Azərbaycanın Rusiyadakı səfirliyinin birgə təşkilatçılığı ilə Moskvanın "Kazan" Dəmiryol Vağzalının "Çar qülləsi" salonunda fotosərgi açılıb.

AZƏRTAC xəbər verir ki, sərgidən öncə Azərbaycan nümayəndə heyəti Yaroslavl Dəmiryol Vağzalında Baykal-Amur magistralının (BAM) tikintisində iştirak edənlərin xatirəsini əbədiləşdirən lövhəni ziyarət ediblər.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Rusiya nəqliyyat naziri Vitali Savelyev BAM-ın tikintisinə həsr olunmuş "Nəsillərin estafeti" adlı səyahət kuponunu imzalayıblar. Kupon Rusiya Nəqliyyat Universitetinin tələbə-gənclər dəstələrinin qərargahına və veteran BAM əməkdaşlarına təqdim olunub.

Daha sonra Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş və Ulu Öndərin Baykal-Amur magistralının (BAM) tikintisinə töhfəsini əks etdirən fotosərginin açılış mərasimi keçirilib.

Sərgidə Ulu Öndərin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışdığı illərdə Baykal-Amur magistralının nəqliyyat kuratoru olaraq layihənin ərsəyə gəlməsinə verdiyi önəmli töhfələrlə bağlı fotolar nümayiş etdirilir.

Açılış mərasimində çıxış edən rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev bildirib ki, BAM-ın ərsəyə gəlməsində Heydər Əliyevin peşəkar fəaliyyəti ilə yanaşı, şəxsi keyfiyyətləri də böyük rol oynayıb: "Həqiqətən də, relyefi mürəkkəb, iqlimi sərt bir regionda layihənin uğurla inşa edilməsində məhz Heydər Əliyevin diqqəti, həssaslığı və qayğıkeşliyi ilə güclü komanda ruhu formalaşdı. Ulu Öndərin rəhbərliyi ilə bütün BAM ailəsi qeyri-mümkün olanı reallığa çevirə bildi. Bu gün sərgilənən fotolarda həmin tarixin ən nadir anları nümayiş etdirilir. Onu da qeyd etmək lazımdır ki, BAM-ın uğur hekayəsində 1975-ci ildən bu regiona işləməyə gəlmiş azərbaycanlı mütəxəssislərin də rolu böyük olub".

Rusiya Prezidentinin köməkçisi İqor Levitin çıxışında Heydər Əliyevin yüksək idarəetmə bacarığı sayəsində BAM-da görülmüş işlərlə bağlı tədbir iştirakçılarına geniş məlumat verib. "9 may 1984-cü ildə Heydər Əliyevin Miroşniçenko yolayrıcında relslərin qovuşduğu hissəyə rəmzi "qızıl yanlığ"ı vurması mərasimində iştirak edən nümayəndə heyətinin üzvü olaraq Heydər Əliyev kimi liderlə təmasda olduğum həmin illəri iftixarla xatırlayıram", - deyə o bildirib.

"2008-ci ildə BAM-ın Anqoya stansiyasında istifadəyə verilən yeni vağzala Heydər Əliyevin adının verilməsi onun xidmətlərinin böyük minnətdarlıqla yad edilməsinin təzahürüdür", - İqor Levitin vurğulayıb.

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu bildirib ki, Amur vilayətinin Tında şəhəri BAM-ın paytaxtı hesab edilən dövrlərdə dəfələrlə orada olub: "BAM-ın tikintisində görkəmli dövlət xadimi Heydər Əliyevin böyük xidmətləri olub. Səfirliyimizdə Heydər Əliyevin BAM-a səfərlərini əks etdirən xeyli fotoşəkil qorunub saxlanılır".

Daha sonra rəsmilər fotostendlərlə tanış olub, sərgi iştirakçıları ilə fikir mübadiləsi aparıblar.

Tədbirdə Rusiya Nəqliyyat Nazirliyinin yüksək nümayəndə heyəti, "Azərbaycan Dəmir Yolları" QSC-nin rəhbərliyi, "Rusiya Dəmir Yolları" ASC-nin rəhbərliyi, Azərbaycanın Rusiyadakı səfirliyinin diplomatları, Rusiyada fəaliyyət göstərən Azərbaycan diasporunun nümayəndələri, Rusiyanın "BAM" İctimai Birliyinin üzvləri, yerli ictimaiyyət və media təmsilçiləri iştirak ediblər. Sərgi aprelin 30-dək davam edəcək.

Qeyd edək ki, ümumi uzunluğu 4300 kilometr olan BAM-ın tikintisinə 1940-cı ildə başlanılsa da, tikinti işləri təxirə salınıb, 1974-cü ildən layihə yenidən gündəmə gəlib. Layihə çərçivəsində BAM-da 200-dən çox dəmir yolu stansiyası inşa edilib, dəmir yolu xətti isə 60-dan çox şəhər və qəsəbəni birləşdirir. BAM boyunca 10 dəmir yolu tuneli tikilib. BAM 11 iri çayın üzərindən keçir, ümumilikdə xətt üzrə 2230 iri və xırda körpü tikilib.

## Ulu Öndər Azərbaycanda tolerantlığın mükəmməl nümunəsinin əsasını qoyub

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək üçün Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" 29 sentyabr 2022-ci il tarixli Sərəncamına uyğun olaraq, Azərbaycan İlahiyyat İnstitutu (AİÍ) "Heydər Əliyev və dini tolerantlıq" mövzusunda respublika elmi konfransı keçirib.





Konfransın plenar iclasında açılış nitqi ilə Azərbaycan İlahiyyat İnstitutunun Elm və innovasiyalar üzrə prorektoru, dosent Mirniyaz Mürsəlov çıxış edib. Bildirib ki, Ümummilli Lider Heydər Əliyev hakimiyyəti dövründə düşmən qüvvələrin dini zəmində pozuculuq fəaliyyətlərinə imkan verməyib. O, çoxmillətli, çoxkonfensiyalı Azərbaycanda tolerantlığın gözəl nümunəsinin əsasını qoyaraq, birgə mehriban yaşamağın mümkünlüyünü bütün dünyaya nümayiş etdirib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı çıxışında konfransın Heydər Əliyev irsinin öyrənilməsi baxımından mühüm əhəmiyyətə malik olacağını bildirib. Qeyd edib ki, xüsusilə gənc nəslə Ulu Öndərin siyasi xəttinin çatdırılması baxımından bu cür konfransların keçirilməsi olduqca əhəmiyyətlidir.

Azərbaycanın müstəqillik tarixinə nəzər yetirən M.Qurbanlı Heydər Əliyevin siyasi hakimiyyətə gələrkən Azərbaycanda hökm sürən total böhran vəziyyətdən, cəmiyyətin bütün sahələrində Azərbaycan xalqının maraqlarına uyğun olmayan vəziyyətin mövcud olmasından danışıb. Bildirib ki, Ulu Öndərin hakimiyyətə gəlişindən sonra qısa zaman kəsiyində həyata keçirdiyi siyasət nəticəsində ölkəmiz müstəqilliyinin dönməzliyini təmin etdi, eyni zamanda regionda öz mövqelərini möhkəmləndirdi, sosial, mənəvi, iqtisadi sahələrdə Azərbaycan milllətinin maraqlarına uyğun siyasət həyata keçirdi. Ulu Öndərin Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində mühüm addımlarından biri də cəmiyyətin vahidliyinin, bütövlüyünün təmin olunması, milli ideologiyanın sistem halında təqdim edilməsi idi. Ümummilli Liderin hakimiyyətə yenidən qayıdışından sonra ölkədə dini fəaliyyət sahəsində sabitliyə nail olunması, konfessiyalar arasında dözümlülük mühitinin qorunub-saxlanılması və möhkəmləndirilməsi istiqamətində gördüyü böyük işlər dini etiqad azadlığına geniş imkanlar açdı və nəticədə dini icmaların normal fəaliyyəti üçün hüquqi-mənəvi şərait yaradıldı. Bu gün Azərbaycanda mövcud olan dini dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir. Bu siyasət dünya ölkələri tərəfindən məqbul bir model kimi qəbul olunur və bəyənilir.

Ulu Öndərin əsasını qoyduğu bu nümunəvi modelin bu gün uğurla davam etdirilməsinin önəminə toxunan komitə sədri vurğulayıb ki, ölkəmizdə yaşayan müxtəlif millətlərə və dinlərə mənsub insanların mədəni müxtəlifliyinə, birgəyaşayış qaydalarına, onların inkişafı və harmonizasiyasına dövlət səviyyəsində qayğı göstərilir. Ölkəmiz hər zaman sülhsevər dövlət kimi dünyaya multikultural dəyərlərini, tolerant mühiti ilə özünün xoşməramlı mesajlarını göndərir. Bütün dinlərin və etnik qrupların nümayəndələrinin birgə yaşaması və ölkəmizin uğurlu inkişafına birgə töhfələr mövcud mühitin təzahürüdür.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın dövlət-din münasibətlərinə xüsusi həssaslıqla yanaşdıqlarını qeyd edən komitə sədri ölkəmizdə dövlət-din münasibətləri, tolerantlıq sahəsində görülən işlər və həyata keçirilən layihələr barədə məlumat verib.

Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev qeyd edib ki, müasir Azərbaycanın qurucusu və memarı olan Ulu Öndər Heydər Əliyev güclü dövlət yaratmağa müvəffəq olmuşdur. M.Yevdayev bildirib ki, dahi rəhbər ölkə Konstitusiyasının qəbuluna, dövlət dilinin qorunub-saxlanılmasına, iqtisadiyyatın gücləndirilməsinə, əsrin müqaviləsinin reallaşdırılmasına, daxili və xarici siyasətin prioritetlərinin müəyyənləşdirilməsinə, milli-mədəni problemlərlə yanaşı, azərbaycançılıq ideologiyasının hazırlanmasına, digər təxirəsalınmaz və taleyüklü məsələlərin həllinə nail olmuşdur.

Konfransda digər çıxış edənlər Azərbaycan dövlətinin qurulmasında Ulu Öndərin xidmətlərini xüsusi vurğulayaraq, bu gün tolerant cəmiyyətdə yaşadığımıza görə dahi rəhbərə minnətdar olduğumuzu söyləyiblər.

Konfransın panellərində "Azərbaycanda dövlət-din münasibətləri: tarix və müasirlik"; "Tolerantlıq və multikulturalizm Azərbaycanda dövlət siyasətinin tərkib hissəsi kimi"; "Heydər Əliyev və Azərbaycanda din siyasətinin prioritetləri"; "Dünyada dövlət-din münasibətləri modelləri"; "Ümummilli Lider və Azərbaycanın müsəlman Şərqi siyasətinin prioritetləri"; "Qloballaşan dünyada dinlər və mədəniyyətlərarası dialoq"; "Ekstremizm, terrorizm və radikalizmlə mübarizədə din təhsilinin əhəmiyyəti"; "Heydər Əliyevin siyasətində mənəvi dəyərlər və milli ləyaqət anlayışı"; "Multikultural dəyərlərin formalaşmasında təhsilin rolu"; "Heydər Əliyevin siyasətində dünyəvilik və mənəvi dəyərlərin qorunması"; "Heydər Əliyevin milli-mənəvi dəyərlərə dair siyasi kursunun istiqamətləri"; "Heydər Əliyev və gənclər arasında milli-mənəvi dəyərlərin təbliği"; "Azərbaycanda tarixi, mədəni və dini abidələrinin qorunub-saxlanılması və bərpasında Ulu Öndərin rolu"; "Ümummilli Liderin milli-mənəvi və dini dəyərlərə dair siyasi irsinin davam etdirilməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rolu" mövzularında məruzələr dinlənilib.

*"Azərbaycan"*

## "Heydər Əliyev və Azərbaycanda əmək hüquqlarının etibarlı təminatı" mövzusunda konfrans keçirilib

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycanda əmək hüquqlarının etibarlı təminatı" mövzusunda konfrans keçirilib.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, konfransda hökumət və qeyri-hökumət qurumlarının, beynəlxalq təşkilatların, vətəndaş cəmiyyəti institutları və işəgötürənlərin nümayəndələri iştirak ediblər.

Konfrans Ulu Öndər Heydər Əliyevin ölkəmizdə sosial müdafiə sisteminin qurulması və inkişaf etdirilməsi sahəsində xidmətlərindən bəhs edən videoçarxın nümayişi ilə başlanılıb.

Tədbirdə çıxış edən əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov vurğulayıb ki, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Ümummilli Lider Heydər Əliyevin sosial inkişaf strategiyası ölkəmizdə sosial müdafiə sisteminin qurulması və ildən-ilə güclənməsinə imkan verib.

Hər bir işləyən insanın əmək hüquqlarının qorunmasını dövlət qarşısında mühüm vəzifələrdən biri kimi müəyyən edən Ulu Öndərin 1997-ci il 27 yanvar tarixli Fərmanı ilə ölkəmizdə əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən orqan - Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində Dövlət Əmək Müfəttişliyi, hazırkı Dövlət Əmək Müfəttişliyi Xidməti yaradılıb. Onun imzaladığı qanunla 1999-cu ildə MDB məkanında ilk dəfə olaraq Azərbaycanda yeni sosial-iqtisadi münasibətlər dövrünə uyğun Əmək Məcəlləsi təsdiq edilib.

Ümummilli Lider Heydər Əliyevin uğurlu daxili və xarici siyasətinin Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam və inkişaf etdirildiyi vurğulanıb, dövlət başçısının tapşırıqlarına əsasən ölkəmizdə sosial sahədə aparılan islahatlar diqqətə çatdırılıb.

Xüsusilə son 5 ildə 4 sosial islahat paketinin icra olunduğu, həmin dövrdə sosial ödənişlərdəki ciddi artımlar, habelə minimum əməkhaqqında 2,7 dəfə, orta aylıq əməkhaqqında 60 faiz, median əməkhaqqında 2,1 dəfə, əməkhaqqı fondunda 2,5 dəfə artım baş verdiyi qeyd edilib.

Konfransda Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini Cavanşir Alxasov, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) vitse-prezidenti Vüqar Zeynalov çıxış edib, habelə Beynəlxalq Əmək Təşkilatının (BƏT) bölmə rəhbəri Yoaquim Pintado Nunesin videomüraciəti, BƏT-in Azərbaycan üzrə koordinatoru Yaşar Həmzəyevin çıxışı dinlənilib.

Əməyin mühafizəsi sahəsində müsbət təcrübəyə malik işəgötürənlər və əmək-sosial hüquqlar barədə ictimai maarifləndirməyə töhfə verən QHT-lərə mükafatlar təqdim edilib.

İlk panel iclasında "Heydər Əliyev və Azərbaycanda əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarəti sisteminin qurulması" mövzusunda videoçarx nümayiş etdirilib.

İclasda əmək qanunvericiliyinin təkmilləşdirilməsi sahəsində aparılan işlərə, əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarəti sahəsində həyata keçirilən islahatlara dair müzakirələr aparılıb. Konfrans əməyin mühafizəsi məsələlərinə həsr olunmuş ikinci panel iclası ilə yekunlaşıb.



# Zərifə Əliyeva - 100

**Dünyada ən qiymətli nemət sağlamlıqdır deyirlər!**

**Və bəzən biz bunu sağlamlığımızı itirdikdən sonra dərindən dərk edirik.**

**El-oba, xalq üçün gərəkli insanlar da belədir!**

**Onları itirdikdən sonra yerləri boş qalır, gözlərimiz daim axtarır-arayır...**

**Akademik Zərifə xanım Əliyeva xalqımızın qəlbində özünə yurd salmış gərəkli, fədakar, həm də təvazökar insanlardandır.**

**Ömrünü-gününü təkcə ailəsinə, övladlarına deyil, həm də insanların sağlamlığına həsr etmişdir.**

**İnsanların gözünə nur, ürəklərə işıq bəxş edərdi...**

**Bir alim kimi daim arayıb-axtarmış, Azərbaycan üçün xarakterik sayılan göz xəstəliklərinin müalicəsi üçün uzun illər tədqiqatlar aparmış, üsul və vasitələr tapmışdır.**

**Zərifə xanım Əliyevanın həm də özünəməxsus həkim fəlsəfəsi, xəstələrə yanaşma metodu, prinsipləri olmuşdur.**

**Bütün bunları o, qələmə aldığı "Yüksək əqidə" kitabında həssaslıqla əks etdirmişdir.**

**Dövlət başçısı cənab İlham Əliyevin sərəncamı ilə bu il həm də akademik Zərifə xanım Əliyevanın yüz illik yubileyi qeyd olunacaqdır.**

**Şanlı yubiley ərəfəsində akademik Zərifə xanım Əliyevanın "Yüksək əqidə" (həkimlik etikası, həkimin ürəyinin və fikirlərinin paklığı) kitabından parçaları dərc edir, onun əziz və unudulmaz xatirəsini ehtiramla anırıq.**






## Akademik Zərifə xanım Əliyeva

# Yüksək əqidə

*(Həkimlik etikası, həkimin ürəyinin və fikirlərinin paklığı)*

Öz davranışı və ruh yüksəkliyi ilə cavanlara nümunə olan baş cərrah, Dövlət mükafatı laureatı, professor M.A.Topçubaşov və əməkdar elm xadimi, terapevt, professor V.R.Tarqoqradskiy və başqaları fədakarlıqla fəaliyyət göstərirdilər.

1942-ci ildə respublika tibb işçiləri "Azərbaycan həkimi" vətənpərvər sanitar təyyarəsinin təşkili üçün vəsait toplanması təşəbbüsü ilə çıxış etdilər. O dövrdə mətbuatda belə bir məlumat verilirdi ki, "Azərbaycan həkimləri" sanitar təyyarəsinin təşkili üçün həkimlər, tibb işçiləri 714.000 rubl. Fonda pul yığıblar. Bir ildən sonra üzərində bu məğrur yazı olan təyyarə müharibə cəbhələrində döyüş tapşırıqlarını yerinə yetirirdi.

### "YER KÜRƏSİNDƏ SİZ BÖYÜK İNSANLARSINIZ"

Deyirlər ki, xoşbəxtliyə alışaraq hətta ona adət də edirlər. Bizim ölkəmizdə uşaqların böyük əksəriyyəti pulsuz oxuyurlar, dövlət bir sıra tikinti işlərinə kömək edir, tibb idarələrinin xərclərini öz üzərinə götürür. Bu, onun sübutudur ki, dövlət vətəndaşlarının qayğısına qalır.

1928-ci ilin payız ayının sonunda Səhiyyə Nazirliyinin xalq komissarı N.A.Semaşko məktub aldı. Məktub Maksim Qorkidən idi. O, belə yazırdı:

"Əziz Nikolay Aleksandroviç... Mən Moskvada olduğum zaman Sizi az gördüm. Bu, çox pis oldu. Mənə görə pis oldu. Bəlkə yaşımla əlaqədardır, bəlkə də insanlara qarşı zövqün pis də inkişaf etmədiyinə görə birdən sizin hamınıza qarşı - yeni başlayanlara qarşı, çox güman ki, bir qədər gülməli, ruhi qohumluq, xüsusi yaxınlıq hissiyyatı baş qaldırdı. Mən Sizi çox sevir və yüksək qiymətləndirirəm. Yer üzünün Siz böyük adamlarısınız. Şişirtmədən deməliyəm ki, Sizinlə yaşamaq yaxşıdır... Mənim əzizim və yaxşı dostum... elə nə demək istədiyimi söylədim. Mən sizi on il müddətində gördüyünüz gözəl işlərinizlə alovlu qəlblə təbrik edirəm (Səhiyyə Komissarına - Z.A.): inanın ki, bu işin çətinliyi və sözsüz, böyük müvəffəqiyyəti mənə aydındır".

Yazıçı "Siz yer üzünün böyük adamlarısınız" ifadəsi ilə cəmiyyətdə həkim fəaliyyətinə hərtərəfli və yüksək qiymət verərək onun insanpərvər olmasına və davranışında gələcəyə böyük ümid hissiyyatının olmasını xarakterizə edir.

Əlbəttə, cəmiyyətdə həkimin rolunun yüksək olmasını qiymətləndirməklə bərabər qeyd etmək lazımdır ki, bu, heç də o demək deyil ki, həkimin fəaliyyəti ilə əlaqəli bütün məsələlər həll olunub və daha heç bir problem qalmayıb. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, həkimlərin əksəriyyəti sözləri keçən və böyük əhəmiyyət kəsb edən yerdə həyata fəal qoşulmuşlar.

Məsələn, belə bir sualı, insanmoda və onun sağlamlığa təsiri problemini götürək. Moda adətən o insanlar tərəfindən təklif edilir ki, onlar səhiyyədən uzaq olurlar və tamam başqa prinsipləri rəhbər tuturlar. Məsələn, son vaxtlara qədər qadınların əksəriyyəti hündür, nazik daban ayaqqabılar geyirdilər. Hər bir təbibə aydındır ki, bu cür ayaqqabılarda gəzmək olmaz, çünki qadınların, cavanların, xüsusilə gələcək anaların sağlamlığına zərərlidir. Bu hamilə qadınların sağlamlığına və onları həyata gətirəcək nəslə mənfi təsir göstərir.

*Əvvəli qəzetin 29 mart və 4, 6, 14, 15 aprel saylarında*

Belə bir halda bu qeyri-fizioloji modaya qarşı həkimlər gərək bir səslə çıxışlar edəydilər, öz etirazlarını bildirməli idilər. Lakin bu, baş vermədi. Hətta belə ayaqqabılar həkim qadınların da ayağını bəzəyirdi. Ona görə də bu ətrafdakılar üçün bəyənilmiş bir amil kimi təsir göstərdi.

Belə misallardan çoxlu göstərmək olar.

Hər bir təbibə məlumdur ki, insanın sağlamlığına onun bioloji xüsusiyyətlərindən başqa həmçinin xarici mühit şəraiti faktorlarının da böyük təsiri var. Lakin ətraf mühitin sağlamlaşdırılması, qorunması üçün tibb işçiləri hələ çox iş görməlidirlər.

Biz bakılılar şəhərimizin mərkəzində təşkil olunub, fəaliyyət göstərən "Sağlamlıq zonası" ilə fəxr etməyə bilmərik. Burada təbiətin bizə bəxş etdiyi dəniz, dənizkənarı gözəl, çox böyük sahə yaşıllığa qərq olmuş bulvardan hər bir kəs istifadə edir.

Haqlı olaraq bura "sağlamlıq zalı" adlandırılır. Eyni zamanda bir sıra müəssisələrin, fabrik-zavodların cinayətkar rəhbərlərinin, soyuqqanlı, məsuliyyətsiz və ictimai vəzifəsini zəif yerinə yetirən həkimlərin ucbatından tullantıların atılması nəticəsində atmosfer zəhərlənir və dəniz çirkləndirilir.

Bunlarla bərabər qeyd etmək lazımdır ki, həkimlərin ictimai fəaliyyətinin azalmasında bizim nəşriyyatın da təqsiri var. Bir çox jurnalistlər, qəzet, jurnal səhifələrindən həkimlərin fəaliyyətinin ancaq bir tərəfini - xəstəyə diqqətli münasibətini və yüksəkixtisaslı tibb yardımının edilməsi haqqında məqalə və oçerklər yazırlar. Əlbəttə, bu sahəni də yaddan çıxarmaq olmaz. Elə bu sahə yaxşı işıqlandırılır.

Bəs ictimai iş görən həkim? Öz otağından kənarda onun göstərdiyi fəaliyyət haqqında hanı məqalə? Həkimin profilaktik məqsədlə apardığı iş hanı, nə üçün onun haqqında yazmırlar? Axı təbiətin əsasını təşkil edən profilaktik tədbirlərdir. Bu haqda çox az məqaləyə rast gəlmək olar. Çox əfsus ki, həkim otağından kənarda aparılan iş kölgədə qalır. Elə bu fəaliyyət xəstəliklərin başlanmasının və yayılmasının qarşısını alır, minlərlə insanın sağlamlığını qoruyur, həkimin cəmiyyətdə hörmətini yüksək pillələrə qaldırır.

Ölkə, cəmiyyət nə qədər inkişaf etmiş olursa, onun insanları da, mənəvi cəhəti də, humanistliyi də yüksək olur, eyni zamanda həkimin mənəviyyatı da, insanpərvərliyi də diqqəti cəlb edir.

Tibb jurnallarından vaxtaşırı tibb etikasına aid xüsusi məqalələr, mühazirələr çap olunur. Bu, tamamilə qanunauyğundur. Hal-hazırda konkret mənəvi məsələlərə aid zəhmətkeşlərin, əhalinin marağı artıb, ixtisas (sənət) etikasına dair yeni kodekslər tərtib olunmalıdır.

Həkimin gündəlik zəhməti onu əhatə edən insanlarla, birinci növbədə xəstələrlə davranış qaydalarını və formasını bilməyi tələb edir.

Həkimin fəaliyyətinin əsasını xəstənin həkimə inamı, onların arasında sıx əlaqənin yaranması, bir-birini yaxşı başa düşməsi təşkil edir. Həkim çox səbrli olmalıdır. O, xəstənin daxili aləminə girib, onu başa düşməsi üçün "Şəhrizadın" uzun-uzadı nağılını dinləməyi bacarmalıdır. İnsanın və xüsusilə xəstənin daxili aləmi də onun orqanizmi kimi mürəkkəbdir.

Xəstəyə düzgün münasibət onun sənətinin əsas mahiyyətlərindəndir. Bəzən həkim xəstəyə yardım göstərərkən (bu həm mənim, həm də həmkarlarımın təcrübəsində olub) xəstəliyin xüsusiyyətlərindən asılı olaraq, həkim xəstənin və onun qohumlarının yersiz məzəmmətlərini, acı sözlərini, hətta hədələrini dinləməyə məcbur olur. Başqa sənət sahibi olanlar bundan inciyərək təhqir edəndən imtina edərdi, üstünə qışqırıb onu qovardı. Lakin həkim belə hərəkəti özünə rəva bilmir, özünün təhqir olunmuş hissiyyatını və həyəcanını büruzə verməyə ixtiyarı yoxdur.

Bir hadisədən misal gətirim. Xəstəxanalardan birinə daxil olmuş xəstə gecənin yarısı evə getmək istəyir. Xadimə onu buraxmır. Xəstə dava salır, hay-küy edir, nalayiq sözlər deyir. Səs-küyə, bu şöbədə müalicə olunan başqa xəstələr oyanırlar. Xəstə heç cürə yola gəlmir. Əfsus ki, tərslikdən növbətçi həkimi başqa şöbəyə çağırmışdılar. Xəstə pəncərədən qaçmağa cəhd edirdi. Bu zaman sağalmaqda olan iki kişi xəstəni zorla dayandırıb, çarpayıya bağlayırlar. Qaçıb gəlmiş həkim gecə davakarına necə lazımdır köməklik etdi. Bu zaman xəstənin acı sözlərini, öz ünvanına olan söyüşləri səbir və təmkinlə dinləyərək, xəfifcə gülümsəyərək onu sakitləşdirir və yola gətirirdi. Sonra xəstəni çarpayıya sarıyan o iki "qəhrəmanı" dəhlizdə başa saldı ki, bu dava, həyəcan xəstəliklə əlaqədardır. ona görə də insan ilə belə kobud rəftar etmək olmazdı. Heç nə başa düşməyən "qəhrəmanlar" inciyərək öz palatalarına qayıtdılar.

Həkim xəstənin mənafeyini hər şeydən üstün tutmalıdır, öz iş gününün qurtarmasına baxmayaraq, o, xəstəxanada qalaraq xəstəsinə yardım edir, hətta onun çarpayısı yanında bir neçə sutka müddətində qalır, bunun cavabı isə xəstənin təşəkkür gülümsəmələri olur.

Həkim xeyirxah olmalıdır. Həkimin ürəkaçıqlığı xəstə və onun qohumları arasında mənəvi ünsiyyətin yaranmasında ən yaxşı vasitədir. Həkimin fəaliyyətində formalizm (xəstə mənim sahəmdən deyil, mən məşğulam. başqa vaxt gəlin və s.) olmamalıdır.

Eyni zamanda aparılan müalicənin müvəffəqiyyəti həkim ilə xəstə arasında əmələ gəlmiş mənəvi kontaktdan, xəstənin özünün və qohumlarının həkimə münasibətindən çox asılıdır. Ona görə də XIII əsrdə yaşamış suriyalı həkim Əbül Fərədis xəstəyə müraciət edəndə deyirdi ki, "Biz üçük - sən, xəstəlik və mən. Əgər sən xəstəlik ilə birləşsən, siz ikiləşəcəksiniz, mən tək qalacağam, o zaman siz mənə qalib gələcəksiniz. Əgər sən mənimlə olsan, onda biz ikiləşərik, xəstəlik tək qalar - biz birlikdə xəstəliyə qalib gələrik".

Həkimlik fəaliyyətinin xüsusiyyəti xəstə ilə həkim arasında həqiqi hörmət, həkimin xəstənin əziyyətini yüngülləşdirmək üzərində qurulmalıdır. Bunun nəticəsində tibb işçilərinin müəyyən hüquqi və ixtisas borcu var. Həkimin əsas borcu xəstəyə imkan dairəsində nə varsa, hamısını edib onu sağaltmaqdır.

Respublikamızda təcili yardım geniş yayılmışdır. O, hər rayonda təşkil olunduğu üçün həkim həm xəstəyə vaxtında yardım göstərir, həm də xəstənin diaqnozunun vaxtında müəyyənləşdirilməsi üçün şərait yaranır.

Təcili tibbi yardım göstərmək məsələsi xəstənin və onun qohumlarının onun zəruriliyinin qiymətləndirilməsi ilə əlaqədardır. Bəzən əsassız olaraq xəstənin yalançı hissiyyatı ucbatından qohumları təcili yardım çağırırlar. Təcili yardımı nəinki əsassız, hətta acığa görə çağırırlar. Məsələn, Bakı Təcili Tibbi Yardım Stansiyası ildə üç yüzə qədər yalançı çağırış alır. Ona görə də təcili yardıma ehtiyacı olan həqiqi xəstələrin çağırışına çatmağa çətinlik çəkirlər.

Bəzi hallarda sərxoş insanlar "zarafat edərək keyfini açmaq" məqsədi ilə dostunu ruhi xəstə adlandıraraq təcili tibbi yardım avtomobilini çağırtdırır. Əlbəttə, belə yaramaz hərəkət sahibini nəinki danlamaq, cərimə edib, hətta xuliqan kimi cəzalandırmaq lazımdır.

Deyirlər ki, həkim maddi zənginlik yaratmır. Burda bir balaca yanlışlıq var. Həkim yüksək maddi və mənəvi zənginlik yaradır. O, cəmiyyətin zəhmətkeşlərinin, yaradıcılarının, mübarizlərinin, döyüşçülərinin sağlamlığını qoruyur, bərpa edir.

İnsan xəstələnib yorğan-döşəyə düşəndə həkim ona gəlir mənbəyi kimi baxmamalıdır. Bundan biabırçı halı ağla gətirmək olmaz. Biz bununla barışa bilmərik.

Əgər belə bir sualı götürsək, həkimin fəal həyat mövqeyi hansı bünövrə üzərində qurulub, cavab çox qısa olar: xəstəyə münasibət! Ancaq həqiqi həkim odur ki, o, xəstənin əzabını öz şəxsi əzabı kimi qəbul etsin; sağalmış, dirilmiş insanın gülər üzü, şadlığı həkim üçün ən böyük mükafat, şərəfdir. Ona görə də həkimin insanla hər söhbəti, onu qəbul etməsi həm xəstə, həm də cəmiyyət qarşısında böyük mənəvi məsuliyyətdir. Başlıcası isə onun öz vicdanı qarşısında olan məsuliyyətidir.

Vicdan - bizim əsas hakimimizdir. Ağır dəqiqədə və sevinc saatında təkbətək olanda soruşur: ağ xalat geyinməyə sənin mənəvi hüququn varmı? İllər keçdikdən sonra sənin əllərin əzab çəkən insana tək biliyini deyil, narahat fikirlərini, yanan ürəyini çatdıra bilibmi? Bu, düzünü desək, şəxsi vicdan qarşısında ciddi mühakimədən çıxmaq, böyük xoşbəxtlikdir.

Həqiqi həkim xəstə ilə bahəm əzab çəkir, çünki xəstənin ağrısı, acısı onun şəxsi ağrısıdır. Sağlamlığını itirmiş insan yenidən onu tapırsa, deməli, həkim də yenidən həyata qayıdır. Bu da bizim insanpərvər sənətimizin mənəvi əsasıdır. N.A.Semaşko belə yazmışdır: "Həkimlik sənətindən xeyirxah sənət yoxdur: xəstə nəinki sağlamlığı, hətta bütün həyatı ilə sizə arxayın olur".

*(Ardı var)*

















# Azərbaycan qazının ixrac coğrafiyası genişlənir

## Rumen RADEV: "Prezident Əliyev Azərbaycanın etibarlı ticarət tərəfdaşı olduğunu sübut etdi"

**"Azərbaycan Avropa İttifaqının etibarlı tərəfdaşı olduğunu sübuta yetirdi. Bu qış enerji təchizatının təhlükəsizliyini təmin etmək üçün Azərbaycan tərəfindən enerji təchizatı həlledici olmuşdur. Komissiya Xəzər dənizindən təbii qazın Mərkəzi və Şərqi Avropaya çatdırılması üçün alternativ marşrutların təmin edilməsi üzrə əlavə səyləri dəstəkləyir".**

Bu sözlər cari il aprelin 25-də Sofiyada Bolqarıstan, Rumıniya, Macarıstan, Slovakiyanın ötürücü sistem operatorları və SOCAR arasında anlaşma memorandumunun imzalanması zamanı Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simsonun videomüraciətində səslənib. İmzalanma mərasimində Azərbaycanın özünü əhəmiyyətli və etibarlı enerji tərəfdaşı kimi təsdiq etdiyi, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynadığı bütün çıxışlarda vurğulanıb.

Bu gün də Avropanın enerji bazarında Azərbaycan qazına tələbat durmadan artır. Odur ki, Bolqarıstan, Rumıniya, Macarıstan, Slovakiya ötürücü sistem operatorları ilə SOCAR arasında memorandumun imzalanması "Həmrəylik Halqası" təşəbbüsünün reallaşması üçün böyük bir addımdır. Bu yeni layihə "Cənub qaz dəhlizi" sayəsində iki ildən artıq müddət ərzində tərəfdaşlarımız üçün etibarlı və sabit enerji təchizatında strateji rol oynayan Azərbaycanın təbii qazının alternativ marşrut vasitəsilə əlavə bazarlara çıxışını təmin edəcək. Qeyd edək ki, anlaşma memorandumu Azərbaycandan Avropaya əlavə qazın tədarükü üçün 4 ötürücü sistem operatoru ilə SOCAR arasında əməkdaşlığın istiqamətlərini müəyyən edir. Əlavə qaz tədarükü "Həmrəylik halqası" adlandırılan Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın təkmilləşdirilmiş ötürücü şəbəkə sistemləri vasitəsilə həyata keçiriləcək.

"Həmrəylik Halqası" təşəbbüsü həmçinin "Cənub qaz dəhlizi"nin genişlənməsi vasitəsilə yeni imkanlar açır. Eyni zamanda enerji sahəsində Azərbaycan və Avropa İttifaqı arasında strateji tərəfdaşlıq üzrə anlaşma memorandumunun müddəalarının həyata keçirilməsinə dəstək verir. Təsadüfi deyil ki, bununla bağlı atılan addımlar TAP (Trans-Adriatik Qaz Boru Kəməri) layihəsindən sonra Prezident İlham Əliyevin apardığı enerji siyasətinin yeni bir səhifəsi kimi dəyərləndirilib. Əgər TAP vasitəsilə Azərbaycan qazı Yunanıstan üzərindən keçməklə İtaliyanı əhatə edirdisə, bu yeni layihələrin icrası ilə 10-dan artıq Avropa ölkəsinin enerji təminatına töhfə verəcəyik.

Anlaşma memorandumu icra olunduqdan sonra Avropada enerji təhlükəsizliyini birmənalı olaraq gücləndirəcək və Azərbaycan üçün daha çox Avropa ölkəsinə, həm də daha çox qaz ixrac etməyə imkan yaradacaq. Məlum olduğu kimi, ötən ilin iyul ayında Azərbaycan və Avropa Komissiyası arasında "Enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb. Bu sənədə əsasən, ölkəmiz 2027-ci ilə qədər Avropa İttifaqı bazarına qaz təchizatını iki dəfə artırmağı planlaşdırır. 2021-ci ildə Avropaya 8 milyard kubmetr qaz çatdırılıb. Bu il isə 12 milyard kubmetr mavi yanacağın nəqli hədəflənir. Beləliklə, həmin həcm Azərbaycanın bu il üçün planlaşdırılan 24,5 milyard kubmetr səviyyəsində ümumi qaz ixracının təxminən yarısını təşkil edəcək. Gələcəkdə qazın hasilatı və ixracı daha da artacaq. Hasilat həm mövcud yataqlarda artırılacaq, həm də gələn illərdə yeni yataqlardan mavi yanacağın alınacağı gözlənilir.

Hazırda Azərbaycan qazı Gürcüstana, Türkiyəyə, Yunanıstana, Bolqarıstana və İtaliyaya ixrac edilir. Bu ildən başlayaraq Rumıniya da ölkəmizdən qaz alır. Lazımi interkonnektorlar olarsa, bu ilin sonundan etibarən Macarıstana və Slovakiyaya da qaz təchizatına başlamaq planlaşdırılır.

Prezident İlham Əliyev tədbirdə məhz ixracın şaxələndirilməsi məsələlərinə toxunaraq demişdir: "Biz yerli qazpaylayıcı sistemin qurulması məqsədilə Albaniya ilə danışıqlar prosesindəyik. Çünki "Cənub qaz dəhlizi" Albaniyanın ərazisindən keçir. Eyni zamanda Slovakiya "Həmrəylik Halqası"nın üzvü kimi, əminəm ki, yaxın vaxtlarda enerji sahəsində bizim tərəfdaşımıza çevriləcək. Biz qaz təchizatımızın coğrafiyasını 6 ölkədən, ən azı 10 ölkəyə qədər genişləndirəcəyik. Mən "ən azı" ona görə deyirəm ki, fikrimcə, bu, planların sonu deyil. Biz Avropanın qaz bazarında fəaliyyətimizi daha da genişləndirməyi planlaşdırırıq. Tərəfdaşlardan ibarət güclü komandanı yaratmaq kimi bu təşəbbüsdə Bolqarıstan Prezidenti cənab Radevin xüsusi rolunu qeyd etmək istərdim. Əminəm ki, "Həmrəylik Halqası" birgə geniş planlarımızın icrasında mühüm rol oynayacaq. Mən, həmçinin Sizə bildirmək istərdim ki, təbii qaz Azərbaycanın Avropaya ixrac etdiyi yeganə enerji məhsulu deyil. İyirmi ildən artıqdır ki, biz xam nefti ixrac edən iri təchizatçı kimi etibarlı tərəfdaşıq".

Azərbaycan etibarlı tərəfdaşdır, Azərbaycana hər zaman güvənmək olar! Bu fikirlər sözügedən tədbirdə bütün çıxışlardan qırmızı xətlə keçib.

Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto: "Mərkəzi Avropada şaxələnmə məsələsinə gəldikdə ən yaxşı, ən real və ən səmərəli həll yolu qazı Azərbaycandan idxal etməkdir. Buna heç bir şübhəmiz yoxdur. Biz özümüzə, ən azından özümüzə düzünü deməliyik. "Həmrəylik Halqası" olmasa, Avropa maliyyələşməsi olmasa, onda Mərkəzi Avropanın həqiqətən də mərkəzində yerləşən bizlərin Azərbaycandan əhəmiyyətli qaz həcmini almağa heç bir imkanı olmayacaq. Bizə mütləq Türkiyə də lazım olacaq. Mərkəzi Avropanın gələcək enerji təchizatının mühüm bir hissəsini təşkil edəcək Azərbaycandan olan qaz həcminə güvənmək üçün ümid edirik ki, onlar da gələn dəfə təmsil olunaraq razılaşmanın bir hissəsi olacaqlar", - deyib.

Rumıniyanın energetika naziri Virgil-Daniel Popesku Bolqarıstan, Rumıniya, Macarıstan, Slovakiyanın ötürücü sistem operatorları ilə SOCAR arasında anlaşma memorandumunun imzalanmasının əhəmiyyətini xüsusi vurğulayaraq bildirib ki, bu, layihədə iştirak edən ölkələr arasında uğurlu və sıx əməkdaşlığın qurulmasının göstəricisidir.

Slovakiyanın iqtisadiyyat naziri Karel Hirman isə Azərbaycanla əməkdaşlığın önəminə toxunaraq deyib: "Bu gün biz anlaşma memorandumunu imzalamaqla aydın siyasi mesaj göndəririk. Bu mesaj ondan ibarətdir ki, biz Avropaya təbii qazın idxalı üçün yeni dəhliz yaratmağa, tərəfdaşımız olan Azərbaycanla əməkdaşlıq etməyə və qaz təchizatının ümumi şaxələnməsinə töhfə verməyə hazırıq. Slovakiya Azərbaycandan əlavə qaz təchizatını təmin etmək üçün regionumuzdakı qazötürücü sistemi operatorlarının mövcud infrastrukturdan istifadə edilməsi və onun müasirləşdirilməsi çağırışını alqışlamışdır".

Bolqarıstan Prezidenti Rumen Radev haqlı olaraq qeyd edib ki, bugünkü uğur əhəmiyyətli dərəcədə Bolqarıstanla Azərbaycan arasında etibarlı, uzunmüddətli strateji əməkdaşlıqla əlaqədardır. Xüsusilə son bir ildə bu əməkdaşlıq çox uğurla inkişaf edib və hazırda artıq yeni müstəvidədir: "Prezident Əliyev Azərbaycanın etibarlı ticarət tərəfdaşı olduğunu sübut etdi. On ildən artıq müddət bundan əvvəl imzaladığımız müqaviləyə əsasən Bolqarıstanın artıq bir ildən çoxdur Azərbaycan tərəfindən etibarlı şəkildə təchiz olunduğu faktına əlavə etməli heç nə yoxdur. Bütün qlobal siyasi faktlara baxmayaraq, Azərbaycan müqavilənin şərtlərinə ciddi şəkildə əməl edir. Azərbaycan təkcə Bolqarıstanın deyil, həm də Avropa İttifaqının strateji tərəfdaşıdır. Bu, ötən ilin iyulunda, Azərbaycanın Avropa Komissiyası ilə enerji sektorunda strateji əməkdaşlığa və xüsusilə Avropa İttifaqına əlavə həcmdə qaz təchizatına dair memorandum imzalaması ilə təsdiq olundu".

Şərhə ehtiyacı olmayan sözlərdir! Yalnız onu xatırladaq ki, keçən il oktyabrın 1-də Sofiyada Yunanıstan-Bolqarıstan İnterkonnektorunun açılışı olmuş və dövlətimizin başçısı orada iştirak etmişdir. Bu il aprelin 25-də isə Sofiyada həmçinin SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) Bolqarıstan ofisinin açılışı oldu. Bu, SOCAR-ın xaricdəki ilk ofisi deyil. Bütün bunlar isə o deməkdir ki, Azərbaycanın əməkdaşlıq və tərəfdaşlıq əlaqələri genişlənir, Azərbaycanın getdikcə daha çox ölkənin enerji təhlükəsizliyində rolu artır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Qara dənizdə Türkiyə zəfəri

## 100 yaşlı cümhuriyyətin qaz istehsalçısına çevrilməsi qardaş ölkənin iqtisadi qüdrətini daha da gücləndirəcək

Ötən həftə islam dünyasında yaşanan Ramazan bayramı qardaş Türkiyədə ikiqat bayrama çevrildi. Cümhuriyyətin 100 illik tarixində bütün hökumətlərin arzusunda olduğu enerjiyə sahib çıxmaq istəyi gerçəkləşdi. Qara dənizdən Türkiyəyə qaz nəqlinə başlanıldı. Yəni Qara dəniz qazının Türkiyəyə tədarükünə start verildi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirak etdiyi mərasim Zonquldakdakı "Filmos" Qaz Emalı Kompleksində baş tutdu.

### Türkiyə xalqı 1 il qaz sərfiyyatına görə pul ödəməyəcək

Mərasimdə çıxış edən Rəcəb Tayyib Ərdoğan 20 aprel tarixini Türkiyənin enerji müstəqilliyinin əldə etməsində əlamətdar gün adlandırıb. Həmin gündən Qara dəniz qazının tədarükünə başlanılıb.

Prezident bildirib ki, ilkin mərhələdə ildə 10 milyon kubmetr qaz hasil ediləcək. Layihə tam gücü ilə işləyəndə ölkənin qaz ehtiyacının 30 faizi ödəniləcək. Türkiyə xalqı il ərzində qazdan mətbəxdə istifadə edəndə və isti suyun sərfiyyatına görə pul ödəməyəcək. Bundan əlavə, sakinlər evlərin qızdırılması üçün istifadə etdikləri qazı bir ay pulsuz alacaqlar.

"Biz bu layihənin ilk addımını öz qazımızla atdıq. 2020-ci ilin avqust ayında "Filmos"dan 175 kilometr uzaqlıqda Sakarya Qaz Sahəsində Fatih gəmisinin ilkin tədqiqatlarına əsasən quyularından birində 320 milyard kubmetr qazın olduğu aşkarlandı. Sonra əlavə qazmalarda bu rəqəm 405-ə yüksəldi. Ehtiyat məbləğimiz Fatih Qazma gəmimiz və Kanuni gəmimizin iştirakı ilə inkişaf etdirilən işlər nəticəsində 540 milyard kubmetrə yüksəldi. Yavuz Qazma Gəmimiz qazma donanmamıza qatıldıqdan sonra Sakarya Qaz Sahəsindəki qaz miqdarı 652 milyard kubmetrə yüksəldi. Digər bir yataqda isə Çaycuma-1 quyusunda 58 milyard kubmetr ehtiyat aşkar edilib. Beləliklə, Qara dənizdəki qaz ehtiyatlarımız 710 milyard kubmetrə çatıb", - deyə Prezident vurğulayıb.

Xatırladaq ki, Türkiyənin Qara dənizdəki yataqlardan əldə edəcəyi təbii qaz ölkənin idxaldan asılılığını 25-30 faiz azaltmağa imkan verəcək. Türkiyə indiyədək istehlak etdiyi qazın cəmi 1 faizini özü istehsal edir. 2020-ci ilin avqustunda Sakarya qaz yatağındakı "Tuna-1" quyusunda Fatih qazma gəmisi tərəfindən aparılan qazma işləri nəticəsində 320 milyard kubmetr təbii qaz kəşf edilib. 2020-ci ilin oktyabrında "Dunay-1" quyusunda qazma işləri başa çatdıqdan sonra quyudakı ehtiyatın həcmi 85 milyard kubmetr yenidən nəzərdən keçirilməklə 405 milyard kubmetrə çatdırılıb.

### 1 trilyon dollara bərabər qaz ehtiyatı

Türkiyənin enerji və təbii sərvətlər naziri Fatih Dönmez isə bildirib ki, may ayından etibarən ölkənin təbii qazı abonentlərə istifadə üçün veriləcək: "Müəyyən prosedur qaydalar icra ediləcək. Təxminən bir neçə həftədən sonra, yəni may ayından etibarən mətbəxdə öz qazımızdan istifadə edə biləcəyik".

Onun sözlərinə görə, təbii qazın istehsalı həm dövlətə, həm də vətəndaşlara xeyir verəcək. Dövlət vətəndaşlarının rifahı üçün nə lazımdırsa, edəcək. Həmçinin yeni qaz yataqlarının kəşfi istiqamətində işlər davam etdiriləcək.

Ümumiyyətlə, son 20 ildə Prezident Rəcəb Tayyib Ərdoğanın həyata keçirdiyi məqsədyönlü siyasət Türkiyəni ən böyük iqtisadi gücə, heç kimdən asılı olmayan ölkəyə çevirib. Məhz bu siyasətin nəticəsidir ki, Türkiyə həm də dünyanın enerji mərkəzlərindən biridir. Əgər diqqət etsək görərik ki, Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə ölkə neft-qaz, elektrik enerjisi, ümumiyyətlə, enerji sektorunda çox böyük nailiyyətlər əldə edib. Bu zamana qədər neft-qaz ölkəsi kimi tanınmayan qardaş ölkə bu sahə üzrə apardığı uğurlu siyasət və görülən işlər nəticəsində artıq qaz istehsalçısına da çevrilir. Qara dənizdəki qaz yataqları onun enerji sahəsində böyük istehsalçıya çevrilməsinə zəmin yaradıb.

Hələ ötən ilin dekabrında Rəcəb Tayyib Ərdoğan Nazirlər Kabinetinin iclasında Qara dənizdə yeni təbii qaz kəşfinin müjdəsini verərkən "Çaycuma-1" quyusunda - dənizin 3023 metr dərinliyində 58 milyard kubmetr təbii qaz ehtiyatı aşkar edildiyini bildirmişdi. Qara dənizdə kəşf edilən qazın beynəlxalq bazarlarda 1 trilyon dollara bərabər olduğu vurğulanmışdı.

### Türkiyənin yeni-yeni zirvələri fəth etməsi Azərbaycanın da uğurudur

Son illərdə hərtərəfli yüksəliş dövrünü yaşayan Türkiyə Cümhuriyyətinin iqtisadiyyatı real ifadədə 3 dəfə böyüyüb. 900 milyard dollarlıq ümumi daxili məhsula malik olan Türkiyə sözün əsl mənasında müasir inkişaf mərhələsindədir. Yeni kəşflər ölkənin qaza olan tələbatının dörddəbirini ödəyəcək. Qeyd edək ki, Türkiyə layihə ilə bağlı boru yerləşdirmə işlərini ötən il tamamlayıb və işlər dənizin 2200 metr dərinliyində görülüb. Bu işlərin görülməsi isə müasir texnologiyalar, uzaqdan idarə olunan robotlar vasitəsilə həyata keçirilir. Türkiyə ötən dövrlərdə Qara dənizdə quyular qazsa da, onlar yalnız xarici şirkətlərlə birgə iş sahəsində mümkün olmuşdu. İndi isə iqtisadi yüksəliş dövrünü yaşayan qardaş ölkə bu işləri artıq öz imkanları hesabına həyata keçirir.

Türkiyənin mavi qaza olan tələbatını öz hesabına ödəməsi yanacağın qiymətinin aşağı düşməsinə gətirib çıxaracaq ki, bu da ümumilikdə ölkədəki inflyasiya səviyyəsini aşağı salacaq.

Dünyada baş verən hadisələrin enerji sektoruna təsirini, həmçinin təchizat təhlükəsizliyini nəzərə alsaq, Türkiyənin bu sahədə gördüyü işlər həm öz, həm də müqavilə bağladığı bir sıra ölkələrin enerji təminatının etibarlı əllərdə olduğunu göstərir.

Təbii ki, qaz istehsalı Türkiyə iqtisadiyyatını dünyanın ən güclü iqtisadiyyatlarından birinə çevirəcək. İqtisadi qüdrəti daha da artan dövlətin isə bütün istiqamətlərdə imkanları genişlənir. Real faktlar göstərir ki, Türkiyə həm də enerji sahəsində güclü dövlətə və regional mərkəzə çevrilir.

Qardaş Türkiyənin yeni-yeni zirvələr fəth etməsi, qazandığı hər bir uğur bütün türkiyəlilər kimi azərbaycanlıları da sevindirir. Azərbaycan və Türkiyənin dinamik inkişafı qarşılıqlı olaraq hər iki ölkənin gücünə güc qatır.

Təkcə siyasi dairələrdə deyil, cəmiyyətlərimizin bütün təbəqələrində bu həyat gerçəkliyinin dərk edilməsi tarixi qardaşlıq bağlarımızı daha da sıx bərkidir. Bu doğma münasibət Qara dənizin Türkiyəyə aid milli sektorunda nəhəng təbii qaz yatağının hələ tapılması müjdəsi eşidiləndə bir daha təsdiqini tapdı. Prezident İlham Əliyev bu xəbərlə bağlı qardaşı Rəcəb Tayyib Ərdoğana ünvanladığı məktubda yazdı ki, Azərbaycan və Türkiyə uzun illər ərzində nəhəng enerji və nəqliyyat layihələrini uğurla icra edirlər. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP, Bakı-Tbilisi-Qars layihələri ölkələrimiz və xalqlarımız üçün yeni imkanlar açır və Azərbaycan-Türkiyə tərəfdaşlığını daha da möhkəmləndirir: "Ümid edirəm ki, Türkiyənin hazırda apardığı digər kəşfiyyat layihələri də müvəffəqiyyətlə nəticələnəcəkdir. Qardaş Türkiyənin uğurlarına öz uğurlarımız qədər sevinirik. Əminəm ki, Azərbaycan-Türkiyə qardaşlığı və dostluğu bundan sonra da inkişaf edəcək və güclənəcəkdir".

Görünən odur ki, Rəcəb Tayyib Ərdoğan müstəqil siyasəti ilə daha böyük hədəflərə çatmaq üçün çoxlarına mümkünsüz kimi görünən, amma perspektivdə böyük vədlər verən layihələrə imza atır. Bu isə bir daha onu göstərir ki, Türkiyə enerji sahəsinə sərmayələr yatırmaqla, artıq özü də bu istiqamətdə güclü dövlətə çevrilib. İndi qardaş ölkə idxalçı ölkədən ixracatçıya çevriləcək. Bu da ölkənin iqtisadi qüdrətini daha da gücləndirəcək, Türkiyə dünyada güc və söz sahibi kimi mövqeyini daha da möhkəmləndirmiş olacaq.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*



# Milli maraqlarımız qətiyyətlə təmin olunur

## Siyasi iradənin təntənəsi

### Azərbaycan bayrağı Laçın-Xankəndi yolunun başlanğıcında yaradılan nəzarət-buraxılış məntəqəsində də dalğalanır





Azərbaycan hər zaman üzərinə götürdüyü öhdəliklərə vaxtında əməl edir, heç bir beynəlxalq hüquq və normanı pozmadan öz suveren ərazisində qanunsuz fəaliyyətlərin qarşısını alır. Bunun daha bir bariz nümunəsini aprelin 23-də Laçın-Xankəndi yolunun başlanğıcında Azərbaycanın nəzarət-buraxılış məntəqəsinin yaradılmasında gördük.

Üçtərəfli Bəyanatın şərtlərini pozaraq Laçın-Xankəndi yolundan öz məkrli məqsədləri üçün istifadə edib silah-sursat, mina daşıyan, terorçuları ərazimizə keçirən Ermənistana dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, bir nəticəsi olmadı. Odur ki, Azərbaycan gələcək təhdidlərin və təxribatların qarşısını almaq məqsədilə öz suveren ərazisində nəzarət-buraxılış məntəqəsi qurdu.

Təbii ki, bu hər şeydən öncə qətiyyətli, uğurlu siyasətin nəticəsidir. Azərbaycan razılaşmaya əsasən yeni Laçın yolunu üç il müddətinə istifadəyə verməli idi, lakin bunu vaxtından əvvəl bir il yarıma başa çatdırdı. Ermənistan isə bəyanatdan irəli gələn şərtlərin heç birini praktiki olaraq həyata keçirmədi. Eyni zamanda Laçın-Xankəndi yolundan humanitar məqsədlər üçün istifadə nəzərdə tutulsa da, yolun məramını dəyişdirdi. Onlar bu yoldan silah-sursat daşıyaraq, Qarabağdakı qanunsuz erməni birləşmələrini silahlandırıb terroru alovlandırmağa, təxribatları genişləndirməyə çalışdılar. Əlbəttə, dövlətimiz öz suveren ərazilərində belə qanunsuzluqlara yol verə bilməzdi.

Ötən gün Ermənistanla sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında yeni yaradılmış sərhəd-buraxılış məntəqəsində Azərbaycan bayrağının ucaldılması mərasimi baş tutdu. Nəzarət-buraxılış məntəqəsindən Müzəffər Ali Baş Komandan İlham Əliyevə məruzə də edildi.

Məruzə edən Dövlət Sərhəd Xidmətinin polkovniki, Vətən Müharibəsi Qəhrəmanı Babək Ələkbərov dedi: "Möhtərəm Prezident, cənab Müzəffər Ali Baş Komandan, məruzə edirəm ki, Sizin tapşırığınıza əsasən, Azərbaycan-Ermənistan dövlət sərhədində, Həkəri çayının üzərindəki körpünün üstündə fəxarət rəmzimiz olan üçrəngli dövlət bayrağımız dalğalanmaqdadır. Bununla da Vətən sərhədlərinin bütövlüyü təmin olunmuşdur. Yaşasın Azərbaycan, yaşasın Ali Baş Komandan! Qarabağ Azərbaycandır!"

Azərbaycanın bütün sərhədlərində artıq üçrəngli bayrağımız dalğalanır, Vətənimizin bütövlüyünü öz sərhədçilərimiz qoruyurlar. Bütün bunlar Prezident İlham Əliyevin milli maraqlarımız uğrunda sərgilədiyi dönməz mövqeyin nəticəsidir.

#### Dünya bir daha Azərbaycanın öz hüquqlarını qorumaq əzmində olduğunu gördü

Azərbaycanın Laçın yaxınlığında, Ermənistanla şərti sərhədin öz tərəfində nəzarət-buraxılış məntəqəsinin yaradılmasından fəxarətlə söz açan Milli Məclisin deputatı Aydın Mirzəzadə bildirib ki, bunu etməkdə məqsəd ölkəmizin suveren hüquqlarının müdafiəsi, Azərbaycana daxil olan şəxslərin və yüklərin dövlət səviyyəsində nəzarətinin həyata keçirilməsidir. Bu, Ermənistanın həmin yoldan istifadə edərək ölkəmiz daxilində təxribatlar törətməsinin qarşısını almaq üçündür.

Deputat qeyd edib ki, Azərbaycan bunu beynəlxalq hüquq normalarına və özünün suveren hüquqlarına əsasən həyata keçirib: "Bunu etməyə bizim tam haqqımız var idi. Göründüyü kimi, beynəlxalq ictimaiyyət bunu normal qəbul etdi. Bundan sonra həmin istiqamətdə keçid ancaq Azərbaycan qanunlarına riayət etməklə mümkün olacaq".

Deputat qeyd edib ki, dünya bir daha Azərbaycanın öz hüquqlarını qorumaq və həyata keçirmək əzmində olduğunu gördü. Ermənistan Azərbaycanın daxili işlərinə qarışmaqdan əl çəkməli, təklif etdiyimiz 5 prinsip əsasında ikitərəfli münasibətlərin qurulmasına səy göstərməlidir. Bu, Azərbaycandan daha çox Ermənistana lazımdır.

Deputat sonda bidlirib ki, Azərbaycanın bundan sonra da atdığı addımlar ancaq beynəlxalq hüquq çərçivəsində olacaq.

#### Nəzarət-buraxılış məntəqəsinin təsis edilməsi Azərbaycanın legitim hüququdur

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov bildirib ki, Laçın-Xankəndi yolunun başlanğıcında nəzarət-buraxılış məntəqəsinin qurulması şərəf tariximiz və beynəlxalq hüququn aliliyinin təmin edilməsidir. Konstitusiyamızın 11-ci maddəsinə, BMT Nizamnaməsinə, Beynəlxalq hüququn prinsiplərinə, Sərhədlərdən keçidə dair 1975 və 1982-ci il Konvensiyalarına, o cümlədən "Dövlət sərhədi haqqında" qanuna əsasən Laçın-Xankəndi yolunun başlanğıcında nəzarət-buraxılış məntəqəsinin təsis edilməsi Azərbaycanın suveren və legitim hüququdur.

Deputat vurğulayıb ki, iki gündür bəzi beynəlxalq subyektlərin riyakar "narahatlıq" bəyanatlarının şahidi oluruq: "Təsəvvür edin, Meksika sərhədi boyunca qala divarları hörən ABŞ hökuməti nəzarət-buraxılış məntəqəsinin etimad mühitini pozmasından narahatdır. Vaşinqton hansı etimaddan danışır? Yaxın günlərdə Şuşa istiqamətində 3 hərbçimiz yeni basdırılmış minaya düşərək həlak oldu.

Rusiya XİN 10 noyabr Bəyanatını pozan birtərəfli addımları yolverilməz sayır. Bəs Qarabağda, eyni zamanda Ermənistan ordusunun hissələrinin və qanunsuz erməni birləşmələrin mövcudluğu, habelə rus sülhməramlılarının separatçılara daşınan hərbi təyinatlı yükləri müşayiət etməsi, Qarabağda gənc nəsli müharibəyə hazırlaması üçtərəfli Bəyanata uyğundurmu?"

Deputat qeyd edib ki, cinayətkar bir rejim, istismarçı neokolonist dövlət olan Fransanın mövqeyinə hamımız şahidik. Nədir bu ikili standartlar, ümumiyyətlə, hansı dövlət öz sərhədindən nəzarətsiz keçidə imkan verər? ABŞ, Fransa hər gün dünyada yüz minlərlə insana ya viza verməkdən imtina edir, ya da viza tələb edir? Belə çıxır ki, bunların sərhədləri sərhəddir, amma bizimki yox?!

Ermənistanın isterik davranışlarına gəlincə, məsələnin aydın olduğunu bildirən B.Məhərrəmov bir vaxtlar Ohanyan səddi və "məğlubedilməz erməni ordusu" miflərinin mövcudluğunu Prezident İlham Əliyevin darmadağın etdiyini vurğulayıb: "İndi də onlar sonuncu - Laçın-Xankəndi yolunun toxunulmazlığı mifindən məhrum oldular və yenə də cənab İlham Əliyevin iradəsi qarşısında kimsə dayana bilmədi. Necə ki, Müzəffər Ali Baş Komandan xəbərdarlıq etmişdi ki, bizi kimsə dayandıra bilməz. Bu gün artıq sərhəd-buraxılış postumuzda Azərbaycan bayrağı ucalır. Sərhədçilərimiz mümkün düşmənçilik fəaliyyətlərinin qarşısını qətiyyətlə almaqla hərəkətin təhlükəsizliyinə zəmanət verirlər".

Bəhruz Məhərrəmov sonda Qarabağdakı erməniəsilli sakinlərə Prezident İlham Əliyevin aprelin 18-də Azərbaycan Televiziyasına müsahibəsində kifayət qədər açıq konturlar verdiyini xatırladaraq deyib ki, onlar ya Azərbaycan vətəndaşlığını qəbul etməli, ya da özləri üçün başqa yaşayış yeri tapmalıdırlar. İndi seçim haylarındır. Ya Azərbaycan vətəndaşlığını qəbul edib xoşbəxt həyat sürməli, ya da Hayastana qayıdaraq rəzalət, zülmət içərisində yaşamağa məcbur qalmalıdırlar.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Kanada xarici işlər nazirinin Azərbaycan-Ermənistan sərhədində buraxılış məntəqəsi ilə əlaqədar bəyanatı ciddi anlaşılmazlıq yaradır

Azərbaycan tərəfinin Laçın-Xankəndi yolunun başlanğıcında Azərbaycan-Ermənistan sərhədində nəzarət-buraxılış məntəqəsi təsis etməsi ilə əlaqədar Kanada xarici işlər naziri Melani Jolinin 25 aprel tarixli bəyanatı ciddi anlaşılmazlıq yaradır.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Kanada xarici işlər naziri Melani Jolinin məlum bəyanatı ilə bağlı açıqlamasında bildirilib.

Açıqlamada həmçinin qeyd edilib: "Kanada tərəfinə məlum olmalıdır ki, Azərbaycan tərəfindən öz suveren ərazisində, sərhəddə nəzarət-buraxılış məntəqəsi təsis etməsi ölkəmizin legitim hüququdur və bütün beynəlxalq qaydalar çərçivəsindədir. Bu məntəqənin təsis edilməsi Ermənistan tərəfinin üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq Azərbaycana qarşı hərbi təxribatları dayandırmaması, yoldan qeyri-qanuni fəaliyyətlər, silah-sursat və minaların daşınması üçün istifadə edildiyi, hərbçilərinin rotasiyasının həyata keçirməsi vəziyyətində qəbul edilmiş milli təhlükəsizlik qərarıdır. Bu xüsusda qeyd edilən məntəqənin təsis edilməsinin sülh prosesinə və bölgədə sabitliyə təsir etdiyi barədə fikirlər yanlışdır. Əksinə, bu addımın atılması sözügedən qeyri-qanuni fəaliyyətlərin effektiv qarşısının alınmasına xidmət edəcək.

Bununla yanaşı, Laçın yolunun bağlı olması ilə əlaqədar Kanada tərəfinin iddiasının heç bir əsası yoxdur. Sərhəd-nəzarət buraxılış məntəqəsi yola sərhəddən giriş-çıxış rejimini tənzimləyəcək.

Üçtərəfli Bəyanat üzrə öhdəliklərə uyğun olaraq, Laçın yolundan vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə Azərbaycan Respublikası tərəfindən təhlükəsizlik zəmanəti olan bu əlavə tədbir çərçivəsində Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin bu məntəqədən hər iki istiqamətdə Ermənistana və Azərbaycana şəffaf və nizamlanan keçidi üçün müvafiq şəraitin mövcud olduğunu bir daha bəyan edirik.

Qeyd edilənlərlə yanaşı, Kanada xarici işlər nazirinin Azərbaycanın Qarabağ bölgəsinə yanlışlıqla "Dağlıq Qarabağ" kimi istinad etməsi qəbuledilməzdir. Bir daha açıqlamalarda bu kimi məqamlara Kanada tərəfindən diqqət yetirilməsini zəruri hesab edirik".

## İrəvanda "Nemezis" abidəsinin açılması Ermənistanın terror əməllərinin təbliğatıdır

Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistanda "Nemezis" terror əməliyyatına həsr olunmuş abidə ilə əlaqədar bəyanat yayıb. AZƏRTAC bəyanatı təqdim edir.

"Aprelin 25-də Ermənistanın paytaxtı İrəvan şəhərində "Nemezis" terror əməliyyatına həsr olunmuş abidənin açılmasını qətiyyətlə pisləyirik. Bu abidənin Ermənistanın aidiyyəti dövlət qurumlarının icazəsi və təsdiqi ilə hazırlanması, habelə açılış mərasimində hakim partiyanın üzvü olan Ermənistan merinin müavini və digər rəsmilərin də iştirak etməsi Ermənistan tərəfindən terrorçuluq siyasətinin təşviq olunması və tarixboyu həyata keçirdiyi terror əməllərinin təbliğatıdır.

Azərbaycan Xalq Cümhuriyyəti və Osmanlı dövlət xadimlərini hədəf alan "Nemezis" terror əməliyyatı zamanı Osmanlı dövlətinin rəsmi şəxsləri ilə yanaşı, 1920-1922-ci illərdə Azərbaycanın keçmiş Baş naziri Fətəli xan Xoyski, Azərbaycan parlamentinin keçmiş sədr müavini Həsən bəy Ağayev, Azərbaycanın keçmiş daxili işlər naziri Behbud xan Cavanşir, Azərbaycanın keçmiş Baş naziri Nəsib bəy Yusifbəyli qətlə yetiriliblər.

Hər kəsə bəllidir ki, Ermənistanda dövlət siyasəti səviyyəsində irəlilədilən terrorçuluq, ASALA və digər erməni terror təşkilatları 1970-1980-ci illərdə dünyanın 22 ölkəsində 235-dən çox terror aktı törədərək 24 türk diplomatını qətlə yetiriblər. 1980-ci illərin sonundan etibarən Ermənistan tərəfindən Azərbaycana qarşı metro və avtobusların partladılması daxil olmaqla, 30-a yaxın genişmiqyaslı terrorçuluq aktları törədilib, mülki əhali terrorçuların hədəfinə alınıb

Azərbaycanlılara qarşı Xocalıda soyqırımının törədilməsində ASALA və onun altqolları olan "Arabo" və "Aramo" terrorçu qruplarının yaxından iştirak etməsi məlumdur. Türkiyə diplomatı Kamal Arıkanı qətlə yetirən erməni terrorçu, ASALA üzvü Ambik Sassunyanın Ermənistanda qəhrəmanlaşdırılması, Ermənistanda nasizmin təbliğinin dövlət siyasətinin tərkib hissəsi olması, SS generalı Njde Qaregin və "Dro" ləqəbi ilə tanınan Drastamat Kanayanın "milli qəhrəman" kimi təbliğ edilməsi, onların adlarının əbədiləşdirilməsi və "Njdeizmin" təbliği Ermənistan rejiminin əsl mahiyyətini açıq şəkildə göstərir.

Tarixboyu radikal erməni qruplarının istifadə etdiyi terrorçuluğun Ermənistanda dövlət səviyyəsində dəstəklənməsi beynəlxalq ictimaiyyət tərəfindən qətiyyətlə qınanmalı, bölgədə sülh və əmin-amanlığın təmin edilməsi üçün Ermənistan tərəfindən terrorçuluq siyasətinə son qoyulmalıdır.

Erməni terrorizmi, ekstremizmi, aqressiv separatizmi və irqi ayrı-seçkiliyin bütün forma və təzahürlərinə qarşı birmənalı və ikili standartlardan kənar şəkildə qəti mübarizə aparılmalıdır.

Ermənistanın bu cür addımları bu ölkənin Azərbaycan və Türkiyə ilə davam edən normallaşma danışıqları ilə bağlı iddia etdiyi "səmimiyyətini" və "xoş iradəsini" ciddi sual altında qoyur.

Qeyd edək ki, sülh və barışığa aparan yol cinayət və səhvlərin daha çox tərənnüm edilməsindən deyil, bunların etiraf olunmasından keçir".

## Azərbaycan Ordusu ərazilərinə tam nəzarət edir

Aprelin 23-də dünya ictimaiyyəti Hayastanla sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında Azərbaycanın nəzarət-buraxılış məntəqəsinin yaradılmasından xəbər tutdu. Bu tarixi xəbər Şuşanın düşmən işğalından azad olunması, 44 günlük Vətən müharibəsində ordumuzun çaldığı zəfər qədər əhəmiyyətli və qürurverici bir hadisə kimi azərbaycanlıların yaddaşına həkk oldu. Hayastanla sərhəddə bayrağımızın ucaldılması möhkəm iradənin, ardıcıl aparılan prinsipial siyasətin, torpaqlarımız üzərində sahiblik hissinin qələbəsidir.

İftixarla deyə bilərik ki, xalqımızın illərlə həsrətlə gözlədiyi bu hadisə Azərbaycan Prezidenti İlham Əliyevin apardığı qətiyyətli və ardıcıl siyasətin nəticəsi və təntənəsidir. Bununla da dövlətimizin başçısı hayların "böyük Ermənstan" yaratmaq barədə xəyallarını alt-üst etdi. İkiyüzillik erməni ideologiyasını tarixin arxivinə göndərdi.

Ermənilər tam uduzduqlarının fərqindədirlər. Artıq erməni politoloqları, siyasətçiləri, Hayastanın hərbi-siyasi rəhbərliyi uduzduqlarını, Azərbaycan Prezidenti İlham Əliyevin diktə etdiyi şərtlərdən kənara çıxa bilmədiklərini etiraf edirlər. Reallıqları qəbul etməkdə hələ müəyyən tərəddüdləri olsa da, başqa yolun olmadığını anlamaqdadırlar. Yenidən revanş götürmək niyyətində olanlar da artıq uduzduqlarının və geri qayıdışın bir daha mümkün olmayacağını dərk edirlər. Bəzi araqızışdıranlar, xüsusilə də erməni kilsəsinin başçısı isə çıxış yolunu baş nazir Nikol Paşinyanın hakimiyyətdən getməsində görürlər.

Bu gün Azərbaycan Ordusu ərazilərimizə tam nəzarət edir. Qalib Azərbaycanın Dövlət bayrağı bütün sərhədboyu qürurla dalğalanır. Bu, Azərbaycan Ordusunun zəfərinin təntənəsidir. Bu, siyasi iradənin nəticəsidir. Yaxşı bilirik ki, 2020-ci il 10 noyabr üçtərəfli Bəyanatın imzalanması ərəfəsində Azərbaycan, Rusiya və Ermənistan arasında aparılan danışıqlar zamanı haylar dəhlizin 20 kilometr enində, özü də Ermənistanın nəzarətində olmasını təkid edirdilər. Lakin bəzi qüvvələrin Azərbaycana qarşı təhdid və təzyiq etdiyi həmin zamanda Prezident İlham Əliyev ortalığa barışmaz, qətiyyətli mövqe qoydu. Dəhlizin 5 kilometr müəyyən edilməsini, 3 il müddətində yeni yolun istifadəyə verilməsini və Laçın rayonunun mərkəzinin Azərbaycana qaytarılması ilə bağlı prinsipial müddəaların üçtərəfli Bəyanatın şərtlərinə salınmasına nail oldu. Laçının, Kəlbəcərin, Ağdamın qan tökülmədən işğaldan azad edilməsi məhz Prezident İlham Əliyevin qətiyyətinin, iradəsinin nəticəsində mümkün oldu.

Azərbaycan üçtərəfli Bəyanat imzalanandan sonra onun şərtlərinə sadiq qaldığını hər an öz işi ilə təsdiq etdi. Cəmi ilyarıma yeni yol çəkib istifadəyə verdi. Amma Ermənistan müxtəlif bəhanələrlə üçtərəfli Bəyanatın şərtlərini yerinə yetirməkdən boyun qaçırıb sərhədlərin delimitasiya və demokrasiyasına maneçilik törətdi. Ermənilər yenidən təxribatlar törədib aranı qızışdırmağa çalışır, qan tökməkdən belə çəkinmirdilər. 2022-ci ilin sentyabrında Hayastanın törətdiyi təxribat qanlı toqquşmaya gətirib çıxardı. Bu hər iki tərəfdən insan itkisinə səbəb oldu. Şəhidlər verdik. Hər şey aydın idi. Hayastan güc toplayıb Azərbaycanla "güclü" tərəf kimi danışmaq niyyətinə düşmüşdü. Lakin qətiyyət, möhkəm iradə öz işini gördü. 2022-ci ilin sentyabrında Laçının mərkəzi qansız və heç bir qurban olmadan yenidən Azərbaycanın nəzarətinə keçdi. 2022-ci il sentyabrın 21-də Prezident İlham Əliyevin Laçına səfəri zamanı və şəhərin mərkəzində Azərbaycan bayrağını ucaldarkən dediyi "Azərbaycan Ordusu Laçın şəhərinə daxil oldu və biz Laçın şəhərini qaytardıq. Bu, tarixi hadisədir. Laçın şəhərinin azad edilməsi həmişə tarixdə qalacaq. Bu gün Laçın şəhərində, şəhərin mərkəzində, mərkəzi küçədə Azərbaycan bayrağını qaldırmışam. Bu bayraq burada əbədi dalğalanacaq" tarixi sözlərlə xalqımızda bir daha əminlik yaratdı ki, qələbəmiz əbədidir.

Məlumdur ki, ermənilər işğal etdikləri əraziləri, bir qayda olaraq, xarabazara çeviriblər. Erməni vəhşilikləri Laçından da yan keçməmişdir. Bu barədə ölkə Prezidenti demişdir: "Erməni vandalizminin təzahürləri hər bir kənddə, hər bir şəhərdə var. Ağdam şəhəri tamamilə yerləyeksan edilib, Füzuli şəhəri də, həmçinin Cəbrayıl şəhəri də, bütün kəndlər. Bəzi yerlərdə, o cümlədən Laçın şəhərində ermənilər qanunsuz məskunlaşma aparmışdılar, Ermənistandan və daha çox xaricdən - Suriya və Livandan erməniəsilli insanları gətirib burada qanunsuz yerləşdirmişdilər. Bu, hərbi cinayətdir, bütün beynəlxalq konvensiyalarda hərbi cinayət kimi təsbit edilir və bu cinayət dünya ictimaiyyətinin gözü qarşısında baş vermişdir".

Qazanılan hərbi qələbədən sonra dövlətimiz vaxt itirmədən ardıcıl olaraq Laçında da törədilən vandalizmin yaralarını sağaltmaq üçün ardıcıl iş aparır. Bu gün Laçını yenidən qururuq, bərpa edib, həyat veririk. Yaxın zamanlarda Laçını məcburi tərk etmiş insanların doğma yurdlarına dönüşü başlayacaq. Gözəl mənzərəsi, buz bulaqları, uca dağları ilə adamı heyran edən Laçın dünyanın ən gözəl turizm zonalarından biri olacaq.

Çox təəssüf ki, Hayastan istər döyüş, istərsə də siyasi meydandakı məğlubiyyətindən dərs almır. Ən pisi də budur ki, haqsız olduqlarını anlamaq belə istəmirlər. Eyni zamanda anlamaq dərdindən başqa, nankorluq xəstəliyinə də mübtəla olublar. Onlara humanitar məqsəd üçün verilmiş Laçın yolundan hərbi məqsədlər üçün istifadə edib, Qarabağa silah-sursat daşıyırdılar. Azərbaycanın təbii sərvətlərini qanunsuz talan edərək Hayastana daşıyırdılar. Azərbaycan ictimaiyyəti hayların qanunsuz hərəkətlərinə etiraz edəndə də ermənilər dünyada ölkəmizə qarşı kampaniya təşkil edib havadarları vasitəsi ilə təzyiqlər göstərib nəyə isə nail ola biləcəklərinə ümid edirdilər. Xarici media da Azərbaycana qarşı qara piar kampaniyası aparıb dünya ictimaiyyətini çaşdırır, Qarabağda etnik təmizləmə siyasəti həyata keçirilməsi haqqında uydurma xəbərlər yayırdılar. Halbuki Azərbaycan Prezidenti dəfələrlə Qarabağda yaşayan ermənilərə müraciət edərək onların toxunulmazlığına yüksək səviyyədə təminat verdiyini bəyan etmiş, Azərbaycan Prezidentinin Administrasiyası Qarabağ ermənilərinə reinteqrasiya və mövcud problemlərin həlli ilə bağlı müraciət edərək onların nümayəndələrini danışıqlar üçün dəfələrlə Bakıya dəvət etmişdi. Azərbaycan Prezidentinin xoşməramlı çağırışlarına ermənilər tərəfindən təxribatların davam etməsi, ara yollarla Qarabağa silah daşınması, əsgərlərimizə qarşı silah işlədilməsi kimi fitnəkarlıqlarla cavab verildi.

Ermənilər elə zənn edirdilər ki, çirkli pullarına, fitnəkar niyyətlərinə aldanıb onlara himayədarlıq edənlərin ölkəmizə qarşı apardıqları kampaniyanın bir nəticəsi olacaq. Azərbaycan Laçın-Xankəndi yolunun başlanğıcında nəzarət-buraxılış məntəqəsini yararmaqla təkcə ermənilərin növbəti təxribatlarının qarşısını almadı, həm də öz ərazi bütövlüyünü tam bərpa etdiyini bir daha təsdiqlədi. Bundan sonra dost da, düşmən də anlamalıdırlar ki, Azərbaycan ərazisində yaşayanlar ölkəmizin qanunlarına əməl etməlidirlər. Bizə "yol" göstərmək istəyənlər dərk etməlidirlər ki, "nəyi, necə, nə vaxt etmək lazımdır" bunu biz yaxşı bilirik.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Beynəlxalq Prokurorlar Assosiasiyası ilə əməkdaşlıq uğurla davam etdirilir



Baş prokuror Kamran Əliyevin dəvəti ilə dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) icraçı direktoru Yanne Holst Hübner və baş müşaviri, İngiltərə və Uelsin baş prokurorunun müavini Şenaz Muzafferin rəhbərliyi ilə nümayəndə heyəti ölkəmizə işgüzar səfərə gəlib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, aprelin 26-da keçirilmiş görüş zamanı baş prokuror, BPA-nın vitse-prezidenti Kamran Əliyev qonaqlara Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq prokurorluq orqanlarında həyata keçirilmiş institusional və kadr islahatları barədə məlumat verməklə gənc hüquqşünasların işə qəbulu və onların peşəkar prokurorluq əməkdaşları kimi formalaşdırılmasının prioritet məsələlərdən biri olduğunu diqqətə çatdırıb.

Qonaqlar səmimi görüşə görə minnətdarlıq ifadə edərək prokurorluq orqanlarında həyata keçirilən islahatları yüksək qiymətləndirib, milli prokurorluq orqanlarımızın rəhbərliyi tərəfindən assosiasiyanın işinə verilən dəyərli töhfə və daimi dəstəyə görə təşəkkür ediblər.

2024-cü ildə ölkəmizin evsahibliyi ilə keçiriləcək BPA-nın 29-cu İllik Konfrans və ümumi yığıncağına hazırlıq məqsədilə yaradılmış yerli təşkilat komitəsinin fəaliyyəti ilə bağlı iclas keçirilib, bir sıra təşkilati məsələlər müzakirə edilib.

Sonra BPA rəsmiləri təşkilatın üzvlüyünə yeni qəbul olunmuş gənc əməkdaşlarla görüş keçirməklə üzvlük vəsiqələrini təqdim ediblər.

Nümayəndə heyətinin ölkəmizə işgüzar səfəri davam edir.

# Azərbaycan ilə Rumıniya kibertəhlükəsizlik və süni intellekt sahələrində birgə tədqiqatlar aparacaqlar

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XRİTDX) ilə Rumıniya Respublikasının İnformatika üzrə Milli Tədqiqat və İnkişaf İnstitutu arasında anlaşma memorandumu imzalanıb.

XRİTDX-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayevin rəhbərlik etdiyi nümayəndə heyəti Rumıniyaya səfəri çərçivəsində bu ölkənin İnformatika üzrə Milli Tədqiqat və İnkişaf İnstitutunun rəhbəri Adrian Viktor Vevera və digər rəsmilərlə görüş keçirib. Sonra nümayəndə heyəti institutun fəaliyyət istiqamətləri, müəllifi olduğu elmi, texniki və texnoloji həllərlə tanış olub, gələcək mümkün əməkdaşlıq istiqamətlərini müzakirə edib.

Səfər zamanı XRİTDX-nin rəisi general-leytenant İlqar Musayev və Rumıniya Respublikasının İnformatika üzrə Milli Tədqiqat və İnkişaf İnstitutunun rəhbəri Adrian Viktor Vevera kibertəhlükəsizlik sahəsində siyasət və inkişaf strategiyası, kiberdiplomatiya, bulud həllərinin təhlükəsizliyi, əşyaların interneti, "ağıllı şəhər" konsepsiyalarında kibertəhlükəsizlik, "big data", yüksəksəviyyəli domen sistemlərində blokçeyn tətbiqi, süni və artırılmış intellekt sahələrində birgə tədqiqatların aparılması sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumunu imzalayıblar.

# "Azərbaycanda kibercinayət və kibertəhlükəsizlik barometri" nəticələri ilə bağlı mətbuat konfransı keçirilib



Aprelin 26-da Sosial Tədqiqatlar Mərkəzinin (STM) Avropa İttifaqı və Avropa Şurası ilə birgə layihəsi olan "Azərbaycanda kibercinayət və kibertəhlükəsizlik barometri" nəticələrinin təqdimatı ilə bağlı konfrans təşkil olunub.

AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə açan Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin və Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc hazırda Azərbaycanda vətəndaşlara vacib xidmətlərin böyük bir qisminin rəqəmsallaşdırıldığını qeyd edib.

Zahid Oruc bildirib ki, maraqlı qüvvələr Azərbaycan gəncləri arasında yad dini-ideoloji təbliğatda yeni texnologiyalardan istifadə edirlər. Virtual məkan burada sui-istifadə edilir. Bir çox faktlar göstərir ki, uşaq və gəncləri hədəfə alan məqsədyönlü fəaliyyətlər çoxluq təşkil edir.

Sonra Azərbaycanda kibercinayət və kibertəhlükəsizlik ilə bağlı videoçarx nümayiş olunub.

Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin Rəqəmli media ilə iş sektorunun müdiri Elmir Vəlizadə çıxışında Azərbaycanın hərtərəfli tərəqqisi üzrə informasiya texnologiyalarında kibertəhlükəsizliyə yüksək qiymət verildiyini bildirib. Qeyd edib ki, Azərbaycan kibertəhlükəsizlik üzrə Avropa Konvensiyasına qoşulub.

O əlavə edib ki, ölkəmizdə kibertəhlükəsizlik yüksək səviyyədə təmin olunur. Beynəlxalq Telekommunikasiya İttifaqının hazırladığı kibertəhlükəsizlik üzrə sonuncu indeksdə Azərbaycan 169 ölkə arasında 15 pillə irəliləyərək 40-cı pilləyə yüksəlib.

Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəis müavini Azər Əhədov qeyd edib ki, dövlət qurumlarında informasiya təhlükəsizliyinin təmin olunması üçün mühüm işlər görülür. Bu məqsədlə cari ilin birinci rübündə təqribən 148 milyon 130 min zərərli keçid müəyyən olunub. Bundan əlavə, 314 kiberhücum indikatoru müəyyən edilib və bloklanıb.

O bildirib ki, dövlət qurumlarında informasiya təhlükəsizliyinin gücləndirilməsi üzrə nümunəvi təlimat hazırlanıb. Hazırlanan təlimat isə dövlət qurumlarına göndərilib.

Digər çıxış edənlər - rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Fərid Əhmədov, Dövlət Təhlükəsizliyi Xidmətinin Kibertəhlükəsizlik Mərkəzinin rəisi Davud Rüstəmov, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası İdarə Heyətinin sədri Elvin Balacanov ölkəmizdə kibertəhlükəsizliklə bağlı görülən işlərdən danışıblar. Son illərdə Azərbaycanda bu sahənin inkişaf etdiyi diqqətə çatdırılıb.

Sonra ölkəmizə qarşı həyata keçirilən kiberhücumların müəyyən olunması və bloklanması məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb. Kritik İnformasiya İnfrastrukturlarının hazırlanmasında milli həllərin istifadəsinin vacibliyi vurğulanıb.

Tədbirdə Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin üzvü Tahirə Allahyarova STM-in Avropa İttifaqı və Avropa Şurası ilə birgə layihənin nəticələrini təqdim edib.

# Azərbaycan Respublikası Milli Məclisinin Aparatında 2023-cü ilin may ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Vəzifəli şəxs | Qəbul günü |
|---|---|
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini - Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | 1 |
| **Adil Abış oğlu ƏLİYEV**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - Gənclər və idman komitəsinin sədri | 17 |
| **Fəzail Feyruz oğlu İBRAHİMLİ**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - İctimai birliklər və dini qurumlar komitəsinin sədri | 4 |
| **Ziyafət Abbas oğlu ƏSGƏROV**<br>Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | 24 |
| **Zahid Məhərrəm oğlu ORUC**<br>Milli Məclisin İnsan hüquqları komitəsinin sədri | 31 |
| **Sadiq Haqverdi oğlu QURBANOV**<br>Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | 10 |
| **Tahir Famil oğlu MİRKİŞİLİ**<br>Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | 3 |
| **Tahir Musa oğlu RZAYEV**<br>Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | 8 |
| **Musa İsa oğlu QULİYEV**<br>Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | 15 |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV**<br>Milli Məclisin Səhiyyə komitəsinin sədri | 25 |
| **Hicran Kamran qızı HÜSEYNOVA**<br>Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | 18 |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV**<br>Milli Məclisin Regional məsələlər komitəsinin sədri | 24 |
| **Bəxtiyar Həmzə oğlu ƏLİYEV**<br>Milli Məclisin Elm və təhsil komitəsinin sədri | 22 |
| **Qənirə Ələsgər qızı PAŞAYEVA**<br>Milli Məclisin Mədəniyyət komitəsinin sədri | 11 |
| **Səməd İsmayıl oğlu SEYİDOV**<br>Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | 16 |
| **Eldar Rza oğlu İBRAHİMOV**<br>Milli Məclisin İntizam komissiyasının sədri | 5 |
| **Fərid Famil oğlu HACIYEV**<br>Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | 2 |
| **Firudin Süleyman oğlu HACIYEV**<br>Azərbaycan Respublikası Milli Məclisinin işlər müdiri | 5 |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD**<br>Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | 26 |
| **Məhəmməd İmran oğlu BAZIQOV**<br>Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | 30 |
| **Adil İsrayıl oğlu VƏLİYEV**<br>Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | 23 |
| **Şakir Himalay oğlu ŞABANOV**<br>Milli Məclis Aparatının İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin müdiri | 19 |
| **Ayan Zəfər qızı MURTUZOVA**<br>Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | 12 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının qəbul otağında qəbul olunurlar.**

**Ünvan: Bakı şəhəri, Parlament prospekti 1.**

**"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun tələblərini təmin etmək məqsədilə:**

**Qəbul vaxtı: saat 14:00-dan başlayır.**

**Qəbul günü qəbula yazılmaq imkanı saat 12:00-da dayandırılır.**

**Qəbula bir gün qalmış elektron qeydiyyat dayandırılır.**

**Azərbaycan Respublikasının Milli Məclisinə qəbula dəvət olunan vətəndaşlar şəxsiyyət vəsiqəsini təqdim edirlər.**

**Telefonlar: (012) 510-99-38; (012) 510-89-14; (012) 492-74-05.**

# Füzulidə Ekoloji məsələlər üzrə işçi qrupu iclas keçirib

Füzuli şəhərində Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən Ekoloji məsələlər üzrə işçi qrupunun iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, iclasda işçi qrupda təmsil olunan müvafiq dövlət qurumlarının nümayəndələri və Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Şuşa şəhəri Dövlət Qoruq İdarəsinin, Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin, Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin əməkdaşları iştirak ediblər.

İşçi qrupunun rəhbəri, ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov Prezident İlham Əliyevin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı"nın tədbirlər planında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin icraçı olduğu tədbirlər üzrə görülmüş işlər, o cümlədən yeraltı və yerüstü su mənbələrinin qiymətləndirilməsi, məlumat bazasının və elektron su xəritəsinin hazırlanması, mineral xammal ehtiyatlarının monitorinqi, təftişi, axtarışı və qiymətləndirilməsi barədə məlumat verib. O cümlədən "Qarabağın təbii ehtiyatlar atlası"nın, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə rəqəmsal tematik xəritələrin hazırlanması, hidrometeoroloji müşahidə şəbəkəsinin bərpası, yeni xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması, mövcud sahələrin genişləndirilməsi, məhv edilmiş meşə sahələrinin bərpası və artırılması, fauna növlərinin reintroduksiyası layihələri, Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Türkiyə Respublikası Kənd Təsərrüfatı və Meşə Nazirliyi arasında əməkdaşlıq çərçivəsində "Azərbaycan-Türkiyə Beynəlxalq Meşəçilik Təlim Mərkəzi"nin, "Ağıllı Tinglik Təsərrüfatı"nın və "Dostluq meşəsi"nin yaradılması istiqamətində fəaliyyətlər haqqında danışıb.

Bildirilib ki, nazirlik tərəfindən bu tədbirlərin icrası istiqamətində azad edilmiş ərazilərin torpaq-iqlim şəraitinə uyğun olaraq ümumilikdə 160 hektara yaxın sahədə 121 min 420 ədəd ağac tingi əkilib, 3000 kiloqram palıd və Şərq çinarı toxumu səpilib, yerüstü su ehtiyatlarının qiymətləndirilməsi məqsədilə 10 çay üzərində 11 hidroloji avtomat stansiya quraşdırılıb və həmin stansiyaların məlumatları mütəmadi qaydada Milli Hidrometeorologiya Xidmətinin situasiya mərkəzinə ötürülərək təhlil olunur.

İşğaldan azad edilmiş ərazilərdə mineral-xammal ehtiyatlarının qiymətləndirilməsi aparılıb. Füzuli rayonu ərazisində yerləşən Quruçay qum-çınqıl yatağının, Dövlətyarlı əhəngdaşı yatağının, Dilağardı əhəngdaşı yatağının istismar olunduğu, Cəbrayıl dağətəyi düzənliyi yeraltı su hövzəsinə daxil olan Füzuli yeraltı su yatağında yeraltı şirin su quyularının tamamilə məhv edildiyi, rayon ərazisində mövcud olmuş bütün kəhriz sistemlərinin dağıdıldığı qeydə alınıb. Füzuli rayonu ərazisinin geoekoloji və radioaktivlik şəraitinin qiymətləndirilməsi məqsədilə kompleks geoloji tədqiqatlar aparılıb, Füzuli şəhəri və ətraf ərazilərin radioaktivliyi qiymətləndirilib.

Azad edilmiş ərazilərdə tikinti-quruculuq işlərinin həyata keçirilməsi məqsədilə tikinti materiallarına olan tələbatın ödənilməsi üçün Füzuli rayonu ərazisində yerləşən Dövlətyarlı əhəngdaşı yatağının, Aşağı Güzlək, Quruçay qum-çınqıl yataqlarının istismarına icazə verilməsi planlaşdırılıb.

Füzuli rayonu ərazisində 1 ədəd meteoroloji stansiyanın quraşdırılması üçün cihaz və avadanlıqların alınması üçün podratçı şirkətə sifariş verilib.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən Füzuli şəhərinin yaxınlığında yaşıllıq sahəsinin salınması üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyinə ayrılmış 251,1 hektar torpaq sahəsinin 60 hektarında torpaq hazırlığı işləri yekunlaşıb və növbəti əkin mövsümündə əkin işlərinin aparılması nəzərdə tutulur.

İşğal dövründə ətraf mühitə dəymiş ziyanın qiymətləndirilməsi məqsədilə beynəlxalq ekspert qrupunun Azərbaycana səfəri çərçivəsində ekspertlər Qarabağ və Şərqi Zəngəzurda, o cümlədən Füzulidə məhv edilmiş təbiət obyektləri və dağıdılmış infrastruktura yerində baxış keçiriblər.

İşğaldan azad edilmiş ərazilərdə ekosistemin bərpası məqsədilə meşəbərpa, yeni yaşıllıq sahələrinin salınması, xüsusi mühafizə olunan təbiət ərazilərində infrastrukturun bərpası tədbirləri ilə yanaşı, fauna növlərinin reintroduksiyası layihələri də həyata keçirilir. Bu məqsədlə 2022-ci il oktyabrın 19-20-də 33 baş ceyran Cəbrayıl rayonu ərazisinə buraxılıb və hazırda onların izlənilməsi monitorinqi aparılır.

Həmçinin 2022-ci il ərzində Zəngilan, Qubadlı və Füzuli rayonlarının ərazisindən axan Bəsitçay, Həkəriçay, Köndələnçay və Bərgüşad çaylarına 417 min 500 fərd, eləcə də Suqovuşan və Xaçınçay su anbarlarına 440 min fərd qızılxallı forel və çəki cinsli (ağ amur, ağ qalın alın) balıq körpələri (ümumilikdə 857 min 500 fərd) buraxılıb. Nazirlik tərəfindən reintroduksiya və su bioresurslarının artırılması layihələrinin davamlı olaraq həyata keçirilməsi nəzərdə tutulub.

Sonra işçi qrupun üzvlərinə işğaldan azad edilmiş ərazilərdə ekoloji qiymətləndirmə üzrə aparılan minatəmizləmə fəaliyyəti, bu ərazilərdə baş verən yanğın hadisələrinin qarşısının alınması tədbirləri, turizm infrastrukturunun yaradılması sahəsində, eləcə də Füzuli rayonu ərazisində mineral xammal ehtiyatları və yeraltı suların monitorinqi və təftişi, Köndələnçay su anbarlarının təmir-bərpası üzrə görülən işlərə dair məlumat verilib və bu mövzular ətrafında müzakirələr aparılıb.

İclasdan əvvəl tədbir iştirakçıları və media nümayəndələri Füzuli Beynəlxalq Hava Limanının yaxınlığında 100 ədəd Eldar şamı ağacı əkiblər.

# Bakıda Azərbaycan və Rusiyanın hərbi hüquqşünaslarının işgüzar görüşü olub

Azərbaycan Respublikası və Rusiya Federasiyası Müdafiə nazirlikləri arasında imzalanmış illik hərbi əməkdaşlıq planına əsasən, Bakıda hər iki ölkənin hərbi hüquqşünaslarının işgüzar görüşü keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan-Ermənistan sərhədində və Qarabağ iqtisadi rayonunda ermənilərin təxribatları barədə Rusiya nümayəndə heyətinə məlumat verilib.

Beynəlxalq humanitar hüququn tətbiqi və digər məsələlərə dair müzakirələr aparılıb.

Həmçinin hüquq xidmətinin təşkili, hərbi qanunvericilik və hərbi hüquqşünasların xidməti fəaliyyəti sahəsində qazanılan təcrübəyə dair qarşılıqlı fikir mübadiləsi aparılıb.

# "Qadınlar və əqli mülkiyyət: innovasiya və yaradıcılıq" mövzusunda konfrans keçirilib

**Aprelin 26-da Beynəlxalq Əqli Mülkiyyət Günü münasibətilə Əqli Mülkiyyət Agentliyinin və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə "Qadınlar və əqli mülkiyyət: innovasiya və yaradıcılıq" mövzusunda konfrans keçirilib.**



AZƏRTAC xəbər verir ki, Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov builki tədbirin Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində həyata keçirildiyini bildirib. Qeyd edib ki, tarixin hökmü tarixi şəxsiyyətlərin çətinliklər və problemlər barədə izahını yox, çətinliklər və problemlər üzərində qələbəsini tanıyır: "Bu qələbəni biz - qalib xalqın nümayəndələri bu gün yeniləşən və qüdrətlənən Azərbaycanda, ölkəmizin nüfuzunun artmasında görürük, dövlət başçısı İlham Əliyevin son 20 ildə düşünülmüş, müasirləşdirilmiş davamçılıq siyasətinin nailiyyətlərində, yaradıcılıqla keçirilən varislik xəttində görürük.

Bugünkü reallıqlar Ulu Öndərin qələbəsidir, onun fikir və düşüncələrinin cəmiyyətimizin ən dəyərli əqli mülkiyyətinə, ictimai rəy və varidatına çevrilməsidir".

Kamran İmanov deyib: "Həqiqətən, qadınların gözündə ideyanın da həmişə siması var və bu səbəbdən bəşər kitabının mündəricatı qadınlardır. Prezident vurğulamışdır ki, "xalqımız çoxəsrlik tarixinin bütün dövrlərində qadını ülviyyətin təcəssümü saymış və ona hər zaman dərin ehtiram göstərmişdir. Azərbaycan qadınları keçmişimizin taleyüklü, həlledici anlarında vəzifələrinin öhdəsindən daim layiqincə gəlmişlər. Bəşər mədəniyyəti xəzinəsinə töhfəmiz olan milli-mənəvi dəyərlərimizin bir bütöv halında qorunub saxlanılmasında onların misilsiz xidmətləri vardır".

Əqli mülkiyyətə gəldikdə isə, qeyd edək ki, bu fenomen heç bir zaman öz-özünü təmin edən hədəf, öz-özlüyündə abstrakt vasitə olmamışdır. Əqli mülkiyyət xidmətçi sahə kimi "mövcud biliklərdən yaranan və yeni biliklərlə nəticələnən fenomendir".

Agentlik sədri qeyd edib ki, ənənəvi mənada "əqli mülkiyyət" ifadəsini işlədərkən, intellektual, yaradıcılıq məhsuluna məxsus olan hüquqlardan söhbət açılır.

Lakin əqli mülkiyyətin (ƏM) anlayışı və onun dərk edilməsi yenilənir. Çünki bu institutun fəaliyyət dövriyyəsi ənənəvi kontekstdən fərqli olaraq müasir zamanda yeni çağırışlarla rastlaşır. Bunun səbəbi isə ilk növbədə cəmiyyətimizin əhəmiyyətli texnoloji dəyişikliklərlə üz-üzə gəlməsidir, ƏM landşaftına artan təsiridir və həmin çağırışların ƏM-in evolyusiyasını anlamaq üçün vacibliyidir.

ƏM kateqoriyasının müasir, yeniləşmiş təsəvvürü onun ikili təbiətinə əsaslanır: ƏM obyekti bir tərəfdən qeyri-maddi aktivdir (hüquqlardır), digər tərəfdən isə qorunma bu obyektlərə obyektiv formada olduğu halda təqdim edilməsidir (maddi obyekt).

"Zənnimizcə, ƏM-in müasir kateqoriyası anlayışında fiziki və hüquqi şəxslərin əqli fəaliyyət nəticələrinə (ƏFN) yalnız müstəsna hüquqlar yox, onlarla yanaşı, bilavasitə ƏFN də nəzərə alınmalıdır, çünki bazarda tələb və təklif kimi hüquqlar deyil, hüquqlar şamil edildiyi ƏFN birbaşa iştirak edir. Əqdlərdə isə qorunan hüquqların həcmi və verilmə qaydaları nəzərə alınır. Bu cür yanaşma bir tərəfdən ƏM institutunun sinergetikasını, emergentliyini nəzərə alır, hüquq (yurisprudensiya) ilə yanaşı, onun iqtisadiyyatına və sosiologiyasına diqqət yetirir. Digər tərəfdən isə ƏM ekosisteminin institusional dəyişikliklərini gündəmə gətirir", - deyə Kamran İmanov bildirib.

O qeyd edib ki, kommersiyalaşma (iqtisadiyyat) və sosial effekt (sosiologiya) ƏM institutunun zəruri hissələrinə çevrildiyi halda, hüquq (yurisprudensiya) sistem formalaşdıran amil kimi çıxış edir və ƏM institutunun nəticələrinin real dəyərləndirilməsinə imkan verir.

Məsələn, patent və əmtəə nişanları ilə məşğul olan təşkilatı götürək. Bu ƏM strukturu, sadəcə, xidməti sahə deyil və qorunma sənədlərinin verilməsi ilə kifayətlənməməlidir. Əslində, qorunmanın səmərəliyini nəzərə alan, analitik trendləri ölçən, bazarın rəqabət qabiliyyətinə təsirini göstərən və qorunan obyektlərin sosial hissəsini təhlil edən struktur olmalıdır.

Yeniliklərin iqtisadi amili, kommersiyalaşması olmadığı halda innovasiyalar da yoxdur. Müəlliflik hüququ (Copyright) nəzərə alınmadığı halda sosial effekt və kreativ industriyanın nəzərə çarpan effektinin payından imtina etmiş oluruq.

Beləliklə, bir örtük altında sənaye mülkiyyəti (ixtiralar, faydalı modellər, sənaye nümunələri, əmtəə nişanları) və müəlliflik hüququ (Copyright) birləşməsi zəruriyyətə çevrilir. Uzun illər bu qollar bir-birindən ayrılıqda fəaliyyətdə idilər. Lakin Prezident İlham Əliyev institusional islahatlar həyata keçirdi. Əqli Mülkiyyət Agentliyi yaradıldı, onun mandatı həm müəlliflik hüquqları və əlaqəli hüquqlar sahəsini, həm də sənaye mülkiyyəti sahəsini əhatə edir. Agentliyin tabeliyində iki mərkəz - Patent və Əmtəə Nişanlarının Ekspertizası və Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzləri yaradılıb, Respublika Elmi-Texniki Kitabxanası tərkibinə verilib və Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi yaradılıb.

Əqli Mülkiyyət Agentliyinin yaradılması və bu modeli reallaşdıran publik hüquqi şəxs institutu öz töhfələrini verməkdədir. Dövlət-inzibati funksiyaları yerinə yetirən publik hüquqi şəxs eyni zamanda fəaliyyətlərindən əldə olunmuş vəsaitlər hesabına saxlanma və digər xərclərinin optimallaşdırılmış üsullarla idarə olunmasına malikdir.

"Hazırda çalışan dövlət qulluqçularının sayı 43 nəfər, işləyənlərin ümumi sayı isə 32 nəfər azaldılaraq, il ərzində bir milyon 100 min manatdan artıq vəsaitə qənaət etmək mümkün olub. Dövlət büdcəsindən yalnız Əqli Mülkiyyət Agentliyinin dövlət qulluqçularına bərabər tutulan işçilərinin əməkhaqları maliyyələşdirilir. Agentliyin saxlanma xərcləri və tabeliyində olan iki mərkəzin bütövlükdə fəaliyyəti özünümaliyyələşdirmə prinsipi əsasında həyata keçirilir. Bu isə institusional islahatın effektivliyinin təsdiqidir.

Məhz buna görə əqli mülkiyyət sisteminin qarşısında duran vəzifələr ölkənin innovasiya siyasəti ilə müəyyən edilir və ölkədə həyata keçirilən iqtisadi islahatlara xidmət edir", - deyə Kamran İmanov qeyd edib.

O deyib ki, həyata keçirilən digər infrastruktur layihəsi bu qurumun tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin və Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin birgə təsisçiliyi ilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatının təlim mərkəzlərinin statusuna bərabər olan "Əqli Mülkiyyət Milli Təlim Mərkəzi", habelə agentliyin nəzdində Bakı Dövlət Universitetinin Əqli Mülkiyyət Hüququ kafedrasının filialının yaradılmasıdır. Burada tələbələrin təhsili üçün müasir avadanlıqlarla təchiz edilmiş SMART tipli auditoriyalar ayrılıb.

İnfrastrukturun təkmilləşdirilməsi və institusional dəyişikliklər sahəsində agentlikdə yaradılan sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı ilə bağlı iddia sənədlərinin qəbulunun həyata keçirildiyi "Patentlərə, Əmtəə Nişanlarına Açıq Hədəf" (PƏNAH) rəqəmli informasiya sistemi xüsusi olaraq qeyd olunmalıdır. Bu sahədə tətbiq edilən "vahid pəncərə" və "istənilən yerdən xidmətə əlçatanlıq" prinsipi açıqlıq, operativlik və şəffaflığı təmin etmiş, ixtira və patent fəallığının artmasına müsbət təsir göstərmiş, həmçinin dövlət xidmətlərinin səviyyəsini yüksəldib.

Avrasiya ölkələri içərisində ilk olaraq ölkəmizdə rəqəmsal üçölçülü (3D) obyektlər üzrə iddia sənədlərinin qəbuluna başlanılıb. Bununla əlaqədar agentlikdə prosesə nəzarət edəcək mütəxəssislər müəyyən edilib və zəruri texniki işlər görülüb.

İnfrastrukturun yeni layihələri sırasında yaradılmış Çağrı mərkəzinin fəaliyyəti əqli mülkiyyət obyektləri, o cümlədən sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı sahəsində göstərilən xidmətlərin keyfiyyətinin, habelə ixtira və patent fəallığının daha da artmasına müsbət təsirini göstərib. 2022-ci il ərzində əqli mülkiyyət məsələlərinə dair Çağrı mərkəzi vasitəsi ilə daxil olmuş 31730-dan artıq müraciət cavablandırılıb. Keçirilmiş sorğulara əsasən Çağrı mərkəzinin fəaliyyəti ictimai rəydə ən yüksək qiymət alıb.

2022-ci ildə agentliyə ixtira, faydalı model və sənaye nümunəsinin qeydiyyatı ilə bağlı 271 iddia sənədi (keçən illə müqayisədə 83 ədəd çox) Bu artım ixtira fəaliyyətinin stimullaşdırılması nəticəsində baş verib.

Dövlətimizin başçısının 2022-ci il 22 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda Əqli Mülkiyyət Agentliyinin qarşısında duran vacib vəzifələr açıqlanıb. Bu sırada "İnnovasiya ekosisteminin inkişafı" istiqaməti üzrə əqli mülkiyyət hüquqlarının beynəlxalq səviyyədə qeydiyyatının stimullaşdırılması; effektiv patent qeydiyyatı prosedurlarının qurulması və əqli mülkiyyət hüquqları ilə bağlı məlumatlılığın artırılması; həmçinin patent məlumatlarının beynəlxalq göstəriciləri əsasında ölkənin texnoloji profilinin (patent landşaftının) və tədqiqat istiqamətlərinin müəyyən edilməsi və texnologiya inkişaf səviyyəsinin qiymətləndirilməsi xüsusi əhəmiyyət daşıyır.

Bununla yanaşı, agentlik Azərbaycan məhsullarının və "Made in Azerbaijan" brendinin hədəf bazarlarda aktiv təşviqi və bu sahədə ixrac potensialının gücləndirilməsində, əqli mülkiyyət, eləcə də idarəetmə üzrə mexanizmlərin formalaşdırılmasında fəal iştirak edir.

Son illər əqli mülkiyyət sahəsində aparılan məqsədyönlü işlər ölkəmizin beynəlxalq reytinqlərdə mövqelərinin möhkəmləndirilməsində əhəmiyyətli rol oynayır. Dünya İqtisadi Forumunun sonuncu Qlobal Rəqabətqabiliyyətlilik İndeksi üzrə Hesabatına görə (2022-ci ilə görə hesabat hələlik dərc olunmamışdır), Azərbaycan 141 ölkə arasında "əqli mülkiyyətin qorunması" göstəricisinə görə 30-cu yeri tutur və bu göstərici üzrə ölkəmiz MDB dövlətləri arasında 1-ci yeri tutur və bir çox Avropa ölkələrini qabaqlayır.

132 ölkəni əhatə edən "Qlobal İnnovasiya İndeksi (Qİİ) 2022 Hesabatı"nda Azərbaycan "İnnovativ resurslar" altindeksi üzrə reytinqdə 79-cu yeri tutur. "Tədqiqat və inkişaf" inteqral göstəricisində ölkəmiz mövqeyini yaxşılaşdıraraq 76-cı yerə yüksəlib.

2022-ci ildə daha bir beynəlxalq təşkilat - "Mülkiyyət Hüquqları Alyansı" (The Property Rights Alliance) tərəfindən hazırlanmış 129 ölkəni əhatə edən hesabatda Azərbaycan reytinqdə 60-cı yeri tutaraq Ermənistan (63), Gürcüstan (72), Qazaxıstan (75), Rusiya (85), Moldova (95) və Ukraynanı (105) qabaqlayır.

"Əqli mülkiyyət hüququ" qrupunda ölkəmiz Qazaxıstan (86), Moldova (90), Ermənistan (91), Ukrayna (93) və Gürcüstandan (112) irəlidədir, üstəlik, "Əqli mülkiyyətin mühafizəsinin dərk edilməsi" göstəricisinə görə Azərbaycan reytinqdə yüksək 30-cu yeri tutur.

ABŞ Dövlət Departamentinin 2022-ci ildə Azərbaycanın investisiya mühiti haqqında yaydığı hesabatın ("2022 Investment Climate Statements: Azerbaijan") 5-ci bölməsinin "Əqli mülkiyyət hüquqları" hissəsində də ölkəmizdə əqli mülkiyyət hüquqlarının qorunması səviyyəsinin yaxşılaşması qeyd edilib.

Ölkəmizin kreativ iqtisadiyyatının (müəlliflik və əlaqəli hüquqlara əsaslanan sənayemiz) ÜDM-dəki payı 5 faizi ötüb, dünyanın orta səviyyəsindədir, hətta bir sıra inkişaf etmiş ölkələri geridə qoyur. Piratçılığa qarşı görülən tədbirlər nəticəsində 2005-ci illə müqayisədə piratçılığın səviyyəsi müxtəlif sahələrdə 20-40 faiz aşağı düşüb.

Hazırda Azərbaycan ÜƏMT-nin rəhbər orqanlarında təmsil olunur. Həmkarlarımızın beynəlxalq ekspert səviyyəsində çıxış etməsi və nümayəndəmizin ÜƏMT-nin "Müəlliflik hüququna dair Müqaviləsi"nin Assambleyasının rəhbəri seçilməsi artan nüfuzumuza dəlalət edir.

Qadınlarımız istənilən millətin insan resurslarının çox əhəmiyyətli hissəsidir. Elm və texnologiyalar, innovasiyalar və kreativlikdə qadınlar istedad xəzinəsidir.

Son illərdəki müşahidələr göstərir ki, gender asimmetriyasının azaldılması qadının rolunu ədalətli səviyyəyə qaldırmaqla yanaşı, iqtisadi inkişafa da səbəb olur.

"Söylədiklərimiz gender bərabərliyinin iqtisadi əhəmiyyətidir. Bununla yanaşı, müasir "biliklər cəmiyyəti"ndə, "biliklərə əsaslanan iqtisadiyyatda" ƏM-in qorunması kreativlik və yenilikçiliyin stimullaşdırılmasında, investisiyaların yaradıcılığa və yenilikçiliyə cəlb edilməsində, innovasiyalı mühiti formalaşdıran əsas vasitədir.

Lakin ƏM ilə bağlı siyasətdə təəssüflər olsun ki, qadınlar kişilərlə müqayisədə hələlik geridədirlər və bu fərq tezliklə aradan qaldırılmalıdır. Bu yalnız mənəvi borc deyil, bugünkü rəqəmli dünyanın inkişafının mütləq şərtidir", - deyə Kamran İmanov qeyd edib.

Konfransın açılışında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, mədəniyyət naziri Adil Kərimli çıxış ediblər. Çıxışlarda Əqli Mülkiyyət Agentliyinin fəaliyyəti yüksək qiymətləndirilib, bugünkü konfransın mövzusunun aktuallığı vurğulanıb.

Konfransda Kamran İmanovun "Qadınlar və əqli mülkiyyət. İnnovasiya və yaradıcılıq", Əqli Mülkiyyət Agentliyinin Müəllif-hüquq obyektlərinin qeydiyyatı və hüquq ekspertizası şöbəsinin müdiri Nadirə Bədəlbəylinin "Qadın və əqli mülkiyyət: qadın yazıçı, şair və bəstəkar", Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Aparat rəhbəri Ceyran Rəhmətullayevanın "Qadın və əqli mülkiyyət: qadın yaradıcılığının inkişafında dövlətin və ailənin rolu", Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədrinin müşaviri Gülnarə Rüstəmovanın "Qadın və əqli mülkiyyət: qadın ixtiraçı", Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin direktorunun müavini Nərgiz Hacıyevanın "Qadın və əqli mülkiyyət: sahibkar qadının fəaliyyətində əmtəə nişanının rolu", Elm və Təhsil Nazirliyinin Təhsil islahatlarının koordinasiyası sektorunun müdiri Leyla Xəlilovanın "Qadın və əqli mülkiyyət: qadın tədqiqatçılar" mövzusunda məruzələri dinlənilib.

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2023-cü ilin may ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **"Azərişıq" ASC-nin sədri**<br>Vüqar Əhmədov | **Naftalan** | Naftalan, Goranboy, Xocalı | **02** |
| 2. | **Gənclər və idman naziri**<br>Fərid Qayıbov | **Yevlax** | Yevlax, Mingəçevir | **04** |
| 3. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri**<br>Qoşqar Təhməzli | **Mingəçevir** | Mingəçevir, Yevlax, Ağdaş, Göyçay | **05** |
| 4. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru**<br>Ruslan Əliyev | **Xızı** | Xızı, Siyəzən | **08** |
| 5. | **Ədliyyə naziri**<br>Fikrət Məmmədov | **Tərtər** | Tərtər, Ağdam, Bərdə | **12** |
| 6. | **Kənd təsərrüfatı naziri**<br>Məcnun Məmmədov | **Göyçay** | Göyçay, Ağdaş | **12** |
| 7. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri**<br>Anar Quliyev | **Mingəçevir** | Mingəçevir, Yevlax | **16** |
| 8. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri**<br>Rəşad Nəbiyev | **Ağcabədi** | Ağcabədi, Ağdam, Bərdə, Tərtər, Laçın | **17** |
| 9. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri**<br>Rövşən Rzayev | **Sumqayıt** | Sumqayıt, Qubadlı | **17** |
| 10. | **Baş prokuror**<br>Kamran Əliyev | **Yevlax** | Yevlax, Mingəçevir, Naftalan, Bərdə, Tərtər, Goranboy, Xocalı | **18** |
| 11. | **Daxili işlər naziri**<br>Vilayət Eyvazov | **Salyan** | Salyan, Şirvan, Hacıqabul, Kürdəmir | **18** |
| 12. | **Ekologiya və təbii sərvətlər naziri**<br>Muxtar Babayev | **Göygöl** | Göygöl, Daşkəsən | **19** |
| 13. | **Əmək və əhalinin sosial müdafiəsi naziri**<br>Sahil Babayev | **Şəki** | Şəki, Qax | **19** |
| 14. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri**<br>Saleh Məmmədov | **Qəbələ** | Qəbələ, Oğuz | **19** |
| 15. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri**<br>Zaur Mikayılov | **Xaçmaz** | Xaçmaz, Şabran | **19** |
| 16. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri**<br>Bahar Muradova | **Quba** | Quba, Qusar | **23** |
| 17. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri**<br>Mübariz Qurbanlı | **Quba** | Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən | **25** |
| 18. | **Dövlət Gömrük Komitəsinin sədri**<br>Şahin Bağırov | **Gəncə** | Gəncə, Samux, Kəlbəcər | **25** |
| 19. | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən**<br>İlham Mirzəliyev | **Balakən** | Balakən, Zaqatala | **25** |
| 20. | **Elm və təhsil naziri**<br>Emin Əmrullayev | **İsmayıllı** | İsmayıllı, Ağsu, Şamaxı, Qobustan | **26** |
| 21. | **Energetika naziri**<br>Pərviz Şahbazov | **Lerik** | Lerik, Lənkəran, Astara, Masallı, Cəlilabad, Yardımlı | **26** |
| 22. | **Fövqəladə hallar naziri**<br>Kəmaləddin Heydərov | **Salyan** | Salyan, Neftçala | **26** |
| 23. | **İqtisadiyyat naziri**<br>Mikayıl Cabbarov | **Gəncə** | Gəncə, Samux, Göygöl, Daşkəsən | **26** |
| 24. | **Mədəniyyət naziri**<br>Adil Kərimli | **Xaçmaz** | Xaçmaz, Quba, Qusar | **26** |
| 25. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi**<br>Mürsəl İbrahimov | **Şəki** | Şəki, Oğuz, Qəbələ, Qax, Zaqatala, Balakən | **26** |
| 26. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri**<br>Zaur Əliyev | **Qəbələ** | Qəbələ, İsmayıllı, Oğuz | **26** |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

# Azərbaycan Avropa Demokratiya və İdarəetmə Komitəsinin konfransında təmsil olunur

Yaşıl dövlət idarəçiliyi davamlılıq, uzunmüddətli istiqamətlənmə, ətraf mühit və iqlim dəyişikliyi mülahizələrinin idarəetmənin bütün səviyyələrində qərarların qəbuluna inteqrasiyasını nəzərdə tutur.



Bu fəaliyyət Avropa Demokratiya və İdarəetmə Komitəsinin (CDDG) cari səlahiyyətlərinin bir hissəsidir. Bu məqsədlə komitənin təşkilatçılığı ilə "Yaxşı demokratik idarəetmə kontekstində yaşıl dövlət idarəçiliyi: Avropanın yaxşı təcrübələrinin mübadiləsi" adlı konfrans işə başlayıb.

AZƏRTAC xəbər verir ki, konfransda Avropa Şurasına üzv dövlətlərin nümayəndələri iştirak edirlər. Azərbaycan konfransda Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin nümayəndəsi ilə təmsil olunur.

İki gün davam edəcək konfrans iqlim dəyişikliklərinin və ekoloji problemlərin həllinin Avropa Şurasına üzv dövlətlərin hökumətlərinin prioritet məsələsi olduğunu göstərir.

Dövlət idarəçiliyi təbii sərvətlərin və ətraf mühitə təsir edən digər amillərin daha yaxşı idarə olunması, eləcə də karbon emissiyalarının azaldılması ilə bağlı yol göstərə bilər. Dövlət idarəsinin qətiyyətli addımı, eyni zamanda fərdləri, təşkilatları və müəssisələri öz rolunu oynamağa təşviq edir. Dövlət idarələri təbii ehtiyatlara, enerji potensialına və ətraf mühitə birbaşa və dolayı təsirlərini minimuma endirmək üçün özlərinin iş rejimlərində və fəaliyyətlərində daxili dəyişikliklər etməyə başlayıblar.

Konfransda üzv dövlətlərin və beynəlxalq təşkilatların yaxşı təcrübələri təqdim olunacaq, tövsiyələrin müəyyənləşdirilməsi məqsədilə yerli, regional və milli səviyyələrdə dövlət idarəçiliyi üçün imkanlar və problemləri müzakirə ediləcək.

İqlim dəyişikliyi ilə mübarizədə səmərəli olmaq üçün iqlim fəaliyyətləri siyasi öhdəliklərə, yaxşı uyğunlaşdırılmış çoxsəviyyəli idarəetməyə əsaslanmalıdır. İnstitusional çərçivələr, qanunlar, siyasətlər və strategiyalar, həmçinin maliyyə və texnologiyaya daha yaxşı çıxış, aydın məqsədlər, bir çox siyasət sahələri üzrə koordinasiya və inklüziv idarəetmə prosesləri iqlimlə bağlı səmərəli fəaliyyətə kömək edə bilər.

# Bahar çağı Kəlbəcərdə

## ◆ Biz qayıtdıq, Vətən!

**Düz 28 il əvvəl yaz vədəsində tərk etdiyi Kəlbəcərə, elə yenə bahar çağında dönmüşdü... Kənarda dayanıb dünyaya göz açdığı Nizami Gəncəvi prospektində yerləşən "223" nömrəli evlərini, daha doğrusu, indi, sadəcə, quruca divarları qalmış uçuq-sökük tikilini ürək ağrısı ilə seyr etmişdi... Hər daşında, kərpicində atasının alın təri olan bu evdə keçirdiyi xoşbəxt günlərindən bir iz, nişanə tapmaq ümidi ilə əbəs yerə bütün künc-bucaqlara göz gəzdirmiş, xatirələrini oyatmaq istəmişdi, lakin... Mənfur düşmən evləri, həyətləri, bağları kimi, buradakı xatirələrini də məhv etmişdi...**

**Qəhər onu boğmuş, könlü sıxılmış, doluxsunmuş gözlərinə çalması quzey qarı kimi bərq vuran qoca dağlar sataşanda isə rahatlanmış, sanki dünyanın bəxtəvəri olmuşdu.**

**Və o həmin an beynində oyanaraq bir-birini sürətlə əvəz edən uşaqlıq xatirələrinin ardınca düşüb sevinclə üz tutmuşdu Kəlbəcərin binələri çadır-çadır dağlarına, gözoxşayan yaylaqlarına, büllur bulaqlarına...**



### Nağıllar aləmi

Ta ağlı kəsəndən Kəlbəcərin gül-çiçəkli yaylaqlara çıxılan dövrünü çox sevərdi. Şəhərdə yaşasalar da, atası hər zaman qardaşı ilə onu yaylağa köçən qohumlarının yanına aparar və o anda Aqilə elə gələrdi ki, sanki nağıllar aləminə düşüb. Min bir çiçəkdən xalı salınmış çəmənliklərdə oxuyan quşların avazı, dərin dərələrlə köpürə-köpürə axan coşqun çayların şaqqıltısı, sıldırımları məskən tutan qartalların qıyı təbiətdə mistik bir musiqi harmoniyası yaradardı. Lap o başdan dağlara səs salan çoban tütəyinin səsi ilə oyanıb o da təbiətdə yaşanan bu sehrli coşqunun bir parçasına çevrilərdi. O qədər olmuşdu ki, qaşqa atın belinə sıçrayıb uc-bucaqsız çəmənliklərdə üfüqə doğru çapmış, min bir ətirli çiçəklərin rayihəsini özü ilə bu çəməndən o çəmənə daşıyan ılıq mehi ciyərinə çəkmiş, "Fatma nənənin qurduğu al-əlvan həna"nın, "arzular körpüsü"nün altından ilk özü keçmək istəmişdi...

Yaylaqla bağlı ən unudulmaz xatirəsi isə zülmət gecədə səmada toqquşan nəhəng buludların alaçıqların içini bir anlıq nura qərq edib yoxa çıxması, ildırım nəriltisinin dağ-daşda vahiməli əks-səda yaratması idi. Bundan sonra isə göylərin hirs-hikkəsi soyuyar, yuxarıdakı qovğadan can qurtaran yağış damlaları yaylaqlarda durna qatarı kimi düzülən ağ alaçıqların çadırlarını döyəcləməyə başlayar və o da bu həmahəng ritmin altında dərin və sehrli röyalara dalardı...

### Uğur illəri

- "28 ildən sonra Kəlbəcərə yenidən qədəm basanda elə bildim ki, illər əvvəl orada qoyub gəldiyim uşaqlığıma, yeniyetməliyimə yenidən döndüm. Qəhərlə sevincin bir anda yaşandığı və təsviri mümkünsüz duyğular içərisində idim. Bir yandan yurdunun viran qoyulmasından



əzab çəkirsən, digər yandan isə doğma torpağında aldığın gücdən xoşbəxtlik, qürur duyursan. Əminəm ki, bunu tək mən yox, illərin həsrətindən sonra yurduna yenidən dönən bütün keçmiş məcburi köçkünlər yaşayır".

"Biz qayıtdıq, Vətən" rubrikasının budəfəki qonağı Azərbaycan İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinovdur...

1979-cu il sentyabrın 29-da Kəlbəcər şəhərində ziyalı ailəsində anadan olan Aqil Şirinov 1996-cı ildə Bakıda Kəlbəcər rayon 12 saylı orta məktəbini bitirib. Həmin il Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinə daxil olaraq 2001-ci ildə bu universitetdən bakalavr və magistr pilləsi üzrə məzun olaraq Türkiyənin Mərmərə Universiteti Sosial Elmlər İnstitutunun magistratura bölməsinə daxil olub. 2003-cü ildə bu elm ocağında doktorantura şöbəsinə daxil olub, 2007-ci ildə dissertasiya mövzusunu müdafiə edərək ilahiyyat üzrə fəlsəfə doktoru elmi dərəcəsini alıb. O, 2008-ci ildən etibarən Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsində, habelə 2015-2017-ci illər ərzində bu universitetin Tarix, Filologiya, Tətbiqi Riyaziyyat, Jurnalistika, Kitabxanaçılıq və informasiya fakültələrində, İqtisad Universitetinin Xüsusi İstedadlar Qrupu və Beynəlxalq İqtisadiyyat məktəbində ingiliscə fəlsəfə dərslərini aparıb. 2016-2020-ci illər ərzində Qafqaz Müsəlmanları İdarəsində şöbə müdiri vəzifəsində də çalışmış Aqil Şirinov 2018-ci ildə Azərbaycan İlahiyyat İnstitutunun Elm və innovasiyalar üzrə prorektoru vəzifəsinə təyin edilib.

Aqil Şirinov 2020-ci il mayın 12-də Prezidentin sərəncamı ilə Azərbaycan İlahiyyat İnstitutunun rektoru təyin edilib.

### Füsunkar diyar

14 yaşına qədər Kəlbəcərdə yaşayan Aqil Şirinovun atası Muxtar Şirinov Kəlbəcər rayon mərkəzi xəstəxanasında həkim, anası Cəmilə Səfərova Kəlbəcər rayon 2 nömrəli tam orta məktəbində biologiya müəllimi işləyib. Yaşca özündən böyük, Bədən Tərbiyəsi və İdman, eləcə də Polis Akademiyasının məzunu olan İlqar adlı qardaşı isə Kəlbəcər rayon polis şöbəsində çalışıb.



"Ailəmlə birgə keçirdiyim ən xoş günlər Kəlbəcərdə qalmışdı" söyləyən Aqil Şirinov deyir ki, ötən 28 illik böyük bir zaman dilimində elə gün olmayıb ki, kəlbəcərli xoşbəxt günlərini həsrətlə xatırlamamış olsun.

- Evimiz Nizami Gəncəvi prospektində yerləşirdi, ata babam Bahadurla nənəm Mələk bizimlə eyni həyətdə əmimgillə birgə yaşayırdılar. Sol tərəfə dönəndə Aşıq Alı küçəsi başlayırdı və orada ana baba-nənəm Bahadurla Maya yaşayırdı. Ata babam Bahadur Qurbanov arıçılıq idarəsinin müdiri, ana babam Bahadur Səfərov isə uzun müddət polis sistemində müstəntiq, sahə inspektoru və mühafizə polisinin rəisi kimi çalışıb.

Atam min bir zəhmətlə bizə ev tikmişdi. Böyük həyətimiz, alma, armud və gilənar ağaclarından ibarət meyvə bağımız var idi. Atam tez-tez bizi rayonun böyük kəndlərinə, yaylaqlarına, İstisu kurort zonasına aparardı. Kəlbəcərlilər bilirlər, bizdə iki - aşağı və yuxarı istisu mineral bulaqları var. Aşağı istisu püskürərək yer üzərinə çıxdığı üçün xalq arasında ona "fantan" deyərdilər. İnsanlar bura gələrək o sudan içər, eyni zamanda bir-biriləri ilə söhbətləşərdilər. Hətta bu bir adət idi ki, Kəlbəcərdə kimin qonağı gəlsə, mütləq, İstisuya aparardı ki, o da bu sudan içsin.

Qohumlarımızın əksəriyyəti yayda yaylaqlara köç edərdi və biz şəhərdən onlara qonaq gedərdik. Əsasən Çökək, Mansur, Qoç daş yaylaqlarına, həmçinin rayo-





nun məşhur Sınıqkilsə (indi Hacıkənd), Çaykənd, Keşdək və digər kəndlərindəki qohumlarımıza, babamın və atamın tanışlarının evlərində qonaq olardıq. O yerlərin təbiətinin təkrarsız füsunkarlığı insanı valeh edərdi. Sonradan dünyanın bir çox yerlərinə getmək imkanım oldu, amma Kəlbəcərin o əsrarəngiz mənzərəsinə, saf havasına, buz bulaqlarının dadına heç bir yerdə rast gəlmədim.

### Sazlı-sözlü günlər, bayram coşqusu, ilmələrin rəqsi

- Kəlbəcər Azərbaycan saz-söz sənətinin mərkəzlərindən olub və burada xalqımızın sevdiyi böyük ustadlar yaşayıb, yaradıblar. Ustad Ələsgərin yaxın dostu Aşıq Qurban Miskin Abdal ocağının təmsilçisi olub. Onun oğlu Dədə Şəmşir və ustadın ocağında yetişmiş Aşıq Qəmkeş Allahver-



di və başqa böyük sənətkarlar bu sənətdə silinməz imzalarını qoyublar. Aşıqlarımız həm də Kəlbəcər toylarına xüsusi ahəngdarlıq bəxş edərdi. Üç gün sürən Kəlbəcər toylarında bir tərəfdə oynamaq istəyənlər üçün qara zurna səslənərdi, digər yanda isə aşıqlar gəlib dastanlar deyərdilər. Mən özüm bir çox dastanlarımız haqqındakı məlumatları məhz o aşıqları dinləyən ata nənəm Mələkdən almışam. Saza olduğu kimi, insanlarımız sözə də çox böyük dəyər verərdilər və elə ailə tapılmazdı ki, orada şeir yazan olmasın. Həmçinin xanımlarımız gözəl bayatılar deyərdilər. Mələk nənəmin dilindən 130 bayatısını qeydə almışdım, hansı ki o zaman 85-dən çox yaşı var idi və vaxtilə söylədiyi bayatıların bir çoxunu artıq xatırlamırdı. Kəlbəcərdə bayram deyəndə, xalq, əsasən, Novruzu nəzərdə tuturdu. Yadımdadır ki, Novruzqabağı çərşənbələrə yaşlı insanlar cəmrələr deyərdilər. Cəmrə qor deməkdir və bu torpağın isinməsini simvolizə edirdi. Çərşənbələrdən üçüncüsü qara bayram adlandırılardı. Vəfat edən şəxslər anılar, qəbiristanlıqlar ziyarət edilərdi. İstisnasız olaraq uşaqların ən çox sevdiyi ilaxır çərşənbəsi isə böyük təntənə ilə keçirilərdi. Böyük tonqallar çatar, qapılara torba atar, bir sözlə, səhərə qədər yatmazdıq. Nənələrimiz Novruz günü səhər tezdən mütləq böyük qazanlarda odun ocağında lobyalı, ya da əriştəli plov dəmləyərdilər. Adət bu idi ki, qohum-qonşu bir-birinin evinə gedib bir



qaşıq da olsa o aşdan dadsın. Əyirdək, qatdama, kömbə bişirərdilər. Bu gün də bizim ailədə kömbə bişirmə adəti yaşadılır.

Rayonumuzun başqa bir spesifik xüsusiyyəti isə demək olar ki, bütün evlərdə xanımların xalça (biz gəbə deyirik) toxumağı bilmələri idi. Mələk nənəm də yaxşı xalça toxuyardı. O, kimyəvi boyaqlardan istifadə etməz, ipləri təbii çiçəklərdən alınan boyalarla boyayardı. Buna görə də xalçalarımızın rəngi heç zaman solmurdu. Onlara xas ipdən toxunan xalçalar deyərdilər.

### Ağrı-acılı xatirələr

1992-ci ildə Ağdərə rayonu Azərbaycan Ordusu tərəfindən azad olundu. Bu həm də Kəlbəcəri Azərbaycanın digər əraziləri ilə əlaqələndirən əsas yolun açılması demək idi. Buna görə də kəlbəcərlilər çox sevinmiş, çətin günlərinin getdikcə aradan qalxacağına ümid etmişdilər, amma təəssüf ki, qarşıda onları daha faciəvi sınaqlar gözləyirdi.

Aqil Şirinov həmin ağrı-acılı günləri ürək ağrısı ilə xatırlayır:



- İçimizdə olan bir çox satqınlar, həmin dövrdə ölkədə olan hakimiyyət boşluğu nəticəsində minlərlə şəhidin qanı ilə alınmış Ağdərə bir neçə gün içərisində ermənilər tərəfindən yenidən tutuldu. Bundan sonra Kəlbəcərin qara günləri başladı, eləcə də Laçın rayonunun çox hissəsinin işğal olunması Kəlbəcəri mühasirəyə saldı. Əhali qar-boranlı, təhlükəli Murov yolunun ümidinə qalmışdı. Ermənilərin Kəlbəcərə hücumları getdikcə intensivləşir, 1993-cü il martın sonlarında şəhərin özünə qrad atırdılar. Buna görə atam və əmim qərara gəldilər ki, bizi - yəni qadınları, uşaqları, qocaları müvəqqəti olaraq aparıb Gəncəyə qoyub, özləri qayıtsınlar. Amma heç kimin ağlının ucundan belə keçmirdi ki, Kəlbəcər işğal olunar. O zaman bizi Gəncəyə qoyub Kəlbəcərə qayıdan atamla əmimi Murovun başında əsgərlərimiz geri qaytarmış, rayonun artıq işğal olunması ilə bağlı dəhşətli xəbəri vermişdilər.

Kəlbəcərin düşmənə təslim edilməsi odövrkü hakimiyyətin səriştəsizliyi, hətta bəzi hərbi hissə komandirlərinin satqınlığının nəticəsi idi. Çünki Kəlbəcər alınmaz qala idi, o özü-özlüyündə güclü bir isteh-



kam idi. Belə bir ərazinin işğalı sonrakı bir çox savaşda da məğlubiyyətlərimizin təməlini qoydu, rayonlarımızın ard-arda işğalına yol açdı.

### "Əsas odur ki, torpağımız bizdədir, dünya malı yerinə gələr"

"1993-cü il aprelin 2-dən sonra imkanından, sosial statusundan, tutduğu vəzifədən asılı olmayaraq bütün kəlbəcərlilər məcburi köçkünlüyün maddi, mənəvi çətinliyini çiynində eyni cür daşıyırdı", - deyən Aqil Şirinov onu da söyləyir ki, torpağından didərgin salınan bu insanlara ən çox əzab verən isə bir daha o yerlərə dönə bilməmək qorxusu idi.

- Ailəmiz əvvəlcə Gəncədə qaldı, sonra Bakıya köçdük. Atamla, anam hərəsi öz peşələri üzrə bir müddət burada çalışdılar, amma heç cür şəhərə öyrəşə bilmədilər. Buna görə də Gəncədə Kəlbəcər rayon xəstəxanası və rayon 2 nömrəli məktəbi yenidən fəaliyyətə başlayanda ata-anam geri döndülər. Bu, həm də Gəncənin Kəlbəcərə daha yaxın olmasına görə idi və sanki onlar doğulduqları torpağın qoxusunu buradan alırdılar. Mələk nənəm Gəncədə Kəlbəcər həsrəti ilə dünyasını dəyişdi.

Açığı, vaxt keçdikcə məcburi köçkün həyatı yaşayan insanların bir çoxunun ümidi tükənirdi. Əlbəttə, onlar dövlətimizə, ordumuza güvənirdilər, amma dünyadakı konyukturanın torpaqlarımızın azad olunacağına imkan verməyəcəyini düşünürdülər. Şükürlər olsun ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında cəngavər Azərbaycan Ordusu parlaq zəfər qazanaraq bizə torpaqlarımıza əbədi qayıdış xoşbəxtliyi yaşatdılar. Bu qürura, sevincə görə dövlət başçımız cənab İlham Əliyevə, qəhrəman döyüşçülərimizə, qazilərimizə minnətdarıq, canını Vətən uğrunda qurban verən qəhrəman şəhidlərimizin ruhuna hər zaman duaçı olacağıq.

İndi dörd gözlə gözləyirik ki, dövlətimiz tərəfindən Kəlbəcərdə aparılan nəhəng quruculuq işləri başa çatdırılsın və biz torpağımıza qayıdaq. Məlumdur ki, quruculuq yoldan başlayır və bu gün Kəlbəcərdə ən ucqar ərazilərə belə müasir yollar çəkilir. Dünyanın ən böyük tunellərindən biri - Murovdağın altı ilə uzunluğu 12 kilometrə yaxın olan tunel çəkilir. Artıq iki ildir ki, yayda Kəlbəcərli fermerlər öz heyvanlarını, eləcə də arıçılarımız öz təsərrüfatlarını yaylaqlarımıza aparırlar.

Bir sözlə, dövlət başçımız İlham Əliyevin rəhbərliyi altında Kəlbəcər sazlı-sözlü xoşbəxt günlərinə qayıdır.

28 ildən sonra, 2021-ci ildə mən də iki dəfə Kəlbəcəri ziyarətə getdim. Çox fərqli, təsvirəgəlməz duyğular yaşadım. İşğaldan sonra quql xəritə vasitəsilə Kəlbəcərdəki evimizə baxa bilirdik. Üzərinə yenidən vu-



rulan dam örtüyündən məlum olurdu ki, ermənilər evimizdə yaşayırlar. Lakin ora gedəndə gördüm ki, azadlığından sonra Kəlbəcəri tərk edəndə düşmənlər evimizi dağıdıb, yandırıblar, tamamən yararsız hala salıb çıxıblar.

Doğulduğun torpağa qayıdış başqa hissdir. Bu duyğular insana həm uşaqlığını xatırladır, həm də Tanrıya şükr edirsən ki, artıq torpaqlarımız işğaldan azad olunub. Kəlbəcərdəki evimizi atamla birgə ziyarət etdim. Təbii ki, öz əlləri ilə tikdiyi evi viranə görmək atamı dərindən sarsıtdı, amma o özünü toxdadaraq dedi ki, "əsas odur torpağımız bizdədir, dünya malı yerinə gələr".

### Dinlərin harmoniyası

- Onu da deyim ki, Azərbaycan İlahiyyat İnstitutunun Alban-udi xristian icması ilə çox yaxın əməkdaşlığı var və mən ilk dəfə onlarla birlikdə Kəlbəcərə Xudavəng məbədinə getmişdim. Xudavəng Qafqaz Albaniyasına məxsus bir məbəddir, lakin ermənilər Kəlbəcəri işğal edəndən sonra bu məbədi guya qədim erməni məbədi kimi təqdim etdilər və ora saxta yolla müdaxilələr etdilər. Sonra orada erməni keşişləri fəaliyyət göstərməyə başladılar. Amma tarixi faktları örtmək mümkün deyil, bu gün məbəddəki daşların hansının təhrif olunduğunu, nəyin nə zaman əlavə olunduğunu asanlıqla görə bilirik. Mənfur ermənilərdən fərqli olaraq, xalqı-





mız Azərbaycandakı bütün dinlərə məxsus abidələri mühafizə edərək qoruyur və elə bunun özü də ölkəmizdəki tolerantlıq mühitinin böyük göstəricisidir.

Ulu Öndər Heydər Əliyevin din sahəsinə verdiyi dəyəri xatırlayıram. Tələbə olduğum dövrdə Ulu Öndər tərəfindən Şərqşünaslıq və İlahiyyat fakültələrinin tələbələrinə verilməsi nəzərdə tutulan Akademik Ziya Bünyadov təqaüdü təsis olundu. 1996-cı ildə Bakıda Ulu Öndərin təşəbbüsü ilə "İslam sivilizasiyası Qafqazda" adlı simpozium keçirildi. Tələbə olaraq iştirak etdiyim həmin simpoziumda Heydər Əliyev çıxışında, sözün əsl mənasında, Azərbaycanın din sahəsindəki konsepsiyasını ortaya qoydu, ölkəmizin islam mədəniyyətinə böyük töhfələr verdiyini, eləcə də bu mədəniyyətin bizim üçün dəyərli olduğunu bildirərək, din təhsilinin inkişaf etdirilməsinin zəruriliyini vurğuladı.

Ulu Öndərin bu siyasəti cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Elə İlahiyyat İnstitutunun mövcud olması da dövlət başçısının Azərbaycanda islam maarifçiliyinə, din təhsilinə bəxş etdiyi böyük töhfədir. İnstitutda təhsil ödənişsizdir, tələbə, müəllim heyəti dövlət qayğısı ilə əhatə olunub. Burada tələbələr təqaüddən əlavə yeməkpulu da alırlar. İlahiyyat İnstitutunda bakalavriatdan əlavə magistratura və doktorantura



təhsili də var və eyni zamanda təhsil müəssisəsi olmaqla yanaşı, müdafiə şurası da fəaliyyət göstərir ki, bunlar hamısı dövlətin dinə, dini təhsilə verdiyi böyük önəmin göstəricisidir.

### Ötən günlər

Budur, yenə Kəlbəcərə ətirli bahar gəlib. Şirinovlar ailəsi də həmişə olduğu kimi, Nizami Gəncəvi prospektindəki 223 nömrəli evlərinin bağında, başına çiçəklərdən qar ələnmiş ağacların altına sərdikləri al-əlvan gəbənin üzərində oturublar...

Muxtar baba rayihəsi ətrafa yayılmış kəklikotulu samovar çayından içə-içə nəvələri Nicat və Muxtara nağıllar aləminə bənzəyən Kəlbəcərin yaylaq həyatından danışır, böyük maraq və heyrətlə babalarını dinləyən uşaqlara hazırlaşmalarını, tezliklə onları da Çökək yaylağına aparacağının şad xəbərini verir...

Bayaqdan bəri nəzərləri ilə kənardan onları izləyən Aqil Şirinovun özünün də istər-istəməz uşaq vaxtı yaylağa getdiyi günlər yadına düşür...

İlahi, elə bil heç üzərindən illər ötməyib, hər şey vaxtilə necə idisə, eləcə də qalıb... Təkcə, bir zamanlar nəvələrinə yaylaqların nağıl dünyasından danışan Mələk nənə daha aralarında yoxdur...

Elə bu dəm, uca dağların belindəki çəmənliklərdə durna qatarı tək düzülmüş alaçıqların çadırlarını döyəcləyən yağış damlaları kimi, qəhərqarışıq gözyaşları əllərini döyəcləməyə başlayır...

Eh, ötən günlər...



*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# REGİONLAR

## "Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü" Milli Məclisin deputatları ilə birgə müzakirə olundu



Tərtərdə rayon icra hakimiyyətinin təşkilatçılığı və Milli Məclisin deputatlarının iştirakı ilə "Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü" mövzusunda elmi-praktik konfrans keçirilmişdir. İştirakçılar öncə Ümummilli Liderin abidəsini və "Şəhidlər" abidə kompleksini ziyarət etmişlər.

Sonra onlar ermənilərin Qarabağa köçürülməsinin 150 illiyi münasibəti ilə Şıxarx qəsəbəsində ermənilərin özləri tərəfindən ucaldılmış "Marağa 150" abidəsinin qalıqlarına baxmış, şəhidlərin xatirəsinə salınmış "Vətən bağı"nda ağac əkmiş, rayonun infrastrukturu ilə tanış olmuşlar. Qonaqlar həmçinin 44 günlük Vətən müharibəsində rayonun mülki müdafiə qərargahının yerləşdiyi zirzəmiyə baxmışlar. Onlara məlumat verilmişdir ki, 44 günlük Vətən müharibəsində Tərtər şəhərinə və rayonun yaşayış məntəqələrinə 16277 top, tank, qrad mərmisi düşmüş, 21 qadağan olunmuş raket atılmışdır. Bunun nəticəsində 12 körpələr evi-uşaq bağçasına, 16 ümumtəhsil, 10 tibb, 7 mədəniyyət müəssisəsinə, məscid və inzibati binalara, 83 çoxmərtəbəli yaşayış və 5344 fərdi yaşayış evinə, 95 nəqliyyat vasitəsinə, 18 kənd təsərrüfatı texnikasına ziyan dəymişdir. Bu məlumatdan sonra konfrans iştirakçıları 44 günlük Vətən müharibəsində ermənilərin atdığı "Smerç" tipli raket nəticəsində şəhər sakini Sahib İsmayılovun dağılmış evinin yerində yaradılmış ev-muzeyində olmuşlar.

Rayon Mədəniyyət Mərkəzi tərəfindən Ulu Öndərin 100 illik yubileyi münasibəti ilə təşkil edilmiş kitab sərgisinə baxışdan sonra konfrans öz işinə başlamışdır. Əvvəl rayon icra hakimiyyətinin Mədəniyyət Mərkəzi ilə birgə Ümummilli Liderin 100 illik yubileyi münasibəti ilə hazırladığı "Ulu Öndər tərtərlilərin yaddaşında" filminin təqdimatı olmuşdur. Filmin nümayişindən sonra rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov Ümummilli Liderin 100 illik yubileyi ilə bağlı Tərtərdə keçirilən silsilə tədbirlər barədə məlumat vermişdir. Bildirmişdir ki, müstəqil Azərbaycanın qurucusu olan Ulu Öndər ölkəmizdə xalqın rifah halının yaxşılaşması, respublikamızın tərəqqisinin təmin olunması və digər istiqamətlərdə tarixi əhəmiyyətə malik işlər görüb. O, Azərbaycan xalqının və dövlətinin xilaskarıdır.

Natiq Ulu Öndərin hakimiyyəti dövrlərində rayonda görülən işlərdən də danışmışdır. Qeyd olunmuşdur ki, Ulu Öndər Azərbaycana rəhbərlik etdiyi illərdə bütün regionlar kimi, Tərtər rayonuna da böyük diqqət və qayğı göstərib: "Ümummilli Lider deyirdi: "Tərtər Azərbaycanın gözəl təbiəti, bərəkətli torpağı, zəngin keçmişi olan və əməksevər insanların yaşadığı bir diyardır". Ulu Öndərin 1969-cu ildə ilk dəfə hakimiyyətə gəlişindən sonra rayonumuzun ictimai-siyasi və iqtisadi həyatında böyük dəyişikliklər olub. Həmin illərdə Tərtər 35-40 min ton pambıq verən, böyük maldarlığa malik olan, sənayesini dirçəldən bir rayona çevrilib. Tərtər şəhərində çoxmərtəbəli evlərdən ibarət bir qəsəbə salınıb, 30-40 mənzilli evlərdən ibarət 8 beşmərtəbəli yaşayış binası tikilib, əhalinin mənzilə olan tələbatını ödəmək üçün 2300 nəfərə həyətyanı torpaq sahəsi verilib. Bundan başqa, rayonda 2000-ə yaxın işçi qüvvəsi olan elektromexanika zavodu, 500-ə yaxın işçi qüvvəsi olan pambıqtəmizləmə zavodu, 300 nəfər işçi qüvvəsi olan şirə zavodu, süd emalı zavodu, yol tikinti materialları istehsal edən zavodlar istifadəyə verilib. Ümummilli Lider dəfələrlə Tərtərdə olub, 1978-ci ildə elektromexanika zavodunun açılışında iştirak edib, kənd təsərrüfatı işçilərinin müşavirəsini keçirib. Sərsəng su anbarının tikintisi ilə maraqlanıb və onun səyi nəticəsində inşası 5 ilə nəzərdə tutulmuş layihə cəmi bir il ərzində icra olunub. Ulu Öndərin diqqət və qayğısı ilə Tərtər rayonu inkişaf edib, gözəlləşib".

Sonra Milli Məclisin deputatları - politoloq Rasim Musabəyov "Heydər Əliyev və Azərbaycanın xarici siyasəti", Musa Qasımlı "Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü", Elman Nəsirov "Heydər Əliyevin energetika siyasəti" və Sahib Alıyev "Heydər Əliyev və türk dünyası" mövzularında çıxış etmişlər. Çıxışlarda Azərbaycanın çağdaş tarixinin milli intibah dövrü müdrik dövlət xadimi Heydər Əliyevin adı ilə bağlı olduğu vurğulanmışdır. Bildirilmişdir ki, məhz Ulu Öndər Azərbaycan dövlətçiliyini xaos və böhran məngənəsindən çıxarmış, xalqımızın taleyində misilsiz xilaskar missiyasını şərəflə yerinə yetirmişdir. Dahi rəhbər dövlətçiliyə hədsiz sədaqəti ilə indiki və gələcək nəsillərə örnək ola biləcək bir fəaliyyət nümunəsi, ölkəmizin davamlı inkişafının uzunömürlüyünü təmin edən təkmil irs, siyasi məktəb miras qoymuşdur. O, ölkə həyatının bütün sahələrində quruculuğun, davamlı inkişafın və islahatların banisi olmuşdur.

Çıxışlarda o da vurğulanmışdır ki, Müzəffər Ali Baş Komandan, ata vəsiyyətini ləyaqətlə yerinə yetirən Prezident İlham Əliyev uzaqgörən siyasəti, düşünülmüş islahatları və müdrik qərarları ilə müstəqil Azərbaycanı dinamik inkişaf yoluna çıxarmış, dünya miqyasında sabit iqtisadiyyata və mühüm geostrateji mövqeyə malik olan, qlobal enerji təhlükəsizliyinin təminatında vacib rol oynayan, siyasi, iqtisadi, humanitar və digər sahələrdə qlobal məsələlərin müzakirə olunduğu məkana çevirmişdir. Bu gün Azərbaycan beynəlxalq və regional əməkdaşlığa böyük töhfələr verən, mövcud olduğu regionda hadisələrin inkişaf istiqamətini müəyyən edən nüfuzlu bir dövlət kimi dünya birliyi tərəfindən qəbul olunur. Ölkəmiz gündən-günə güclənərək və inkişaf edərək yeni çağırışlara cavab verməklə mətin addımlarla irəliləyir.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## Ağdamda və Şuşada orta məktəblərin tikintisi başa çatmaq üzrədir

**Bunu elm və təhsil naziri Emin Əmrullayev "Heydər Əliyev İli" çərçivəsində Yeni Azərbaycan Partiyası və Bakı Dövlət Universitetinin birgə təşkilatçılığı ilə keçirilən beynəlxalq elmi konfransda deyib.**

E.Əmrullayev bildirib ki, işğaldan azad edilən ərazilərimizdə 2 məktəb fəaliyyətə başlayıb. "Trend"in məlumatına görə, nazir vurğulayıb ki, işğaldan azad edilmiş hər bir kənddə, qəsəbədə məktəblər bərpa olunacaq və məcburi köçkün məktəbləri anlayışı artıq aradan qalxacaq.

## Ağalı sakinlərinə 35 mindən çox tərəvəz şitili paylanıb



Zəngilanın Ağalı kənd sakinləri həyətyanı sahələrini, ailə təsərrüfatlarını inkişaf etdirirlər. Bu günlər həmin məqsədlə kənd sakinlərinə "Green Rech" MMC tərəfindən 35 mindən çox yazlıq tərəvəz şitilləri paylanılıb.

## Azad edilmiş ərazilərdə indiyədək 120 mindən çox ağac əkilib

**"Azad edilmiş ərazilərin torpaq-iqlim şəraitinə uyğun olaraq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən ümumilikdə 160 hektara yaxın sahədə 121 min 420 ədəd ağac tingi əkilib".**

Bunu Füzuli Hava Limanının inzibati binasında keçirilən iclasda Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən Ekoloji məsələlər üzrə işçi qrupun rəhbəri, ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov deyib. O daha sonra bildirib ki, həmin ərazilərə 3000 kiloqram palıd və Şərq çinarı toxumu da səpilib. Bundan əlavə, yerüstü su ehtiyatlarının qiymətləndirilməsi məqsədilə 10 çay üzərində 11 hidroloji avtomat stansiya quraşdırılıb.

## Oğuzda tütün əkininə başlanılıb

Builki mövsüm Oğuz rayonunun təsərrüfatlarında 150 hektar sahədə tütün əkilməsi nəzərdə tutulur. Tütün əkiləcək sahələr ötən illə müqayisədə 80 hektaradək artırılacaq.

Artıq təsərrüfatlarda istixana şəraitində yetişdirilmiş tütün şitillərinin sahələrə köçürülməsinə başlanılıb. İlk günlər rayonun Tayıflı və Şirvanlı kəndlərinin ərazilərindəki təsərrüfatlarda 10 hektaradək sahəyə tütün şitilləri köçürülüb.

Oğuz Dövlət Aqrar İnkişaf Mərkəzinin direktor müavini Akif Adıgözəlov AZƏRTAC-a bildirib ki, cari mövsüm rayon ərazisində "Azərtütün" ASC tərəfindən 25 hektar, "Azəri" Korporasiyası tərəfindən 95 hektar, fiziki şəxslər tərəfindən isə 30 hektar sahədə tütün əkilməsi planlaşdırılır. Tütün şitillərinin yetişdirilməsi üçün istehsalçılar tərəfindən 6 min kvadratmetr sahədə sadə istixanalar hazırlanıb.

Xatırladaq ki, ötənilki mövsümdə oğuzlu fermerlər 67 hektar sahədən 196,3 ton quru tütün əldə etmişlər.



## Giləzi-Xızı avtomobil yolunun Giləzi qəsəbəsindən keçən hissəsi əsaslı təmir edilib

Vətəndaşların rahat gediş-gəlişinin təmin olunması məqsədilə respublika əhəmiyyətli Giləzi-Xızı avtomobil yolunun Gilәzi qəsəbəsindən keçən hissəsinin əsaslı təmiri işləri yekunlaşıb.

Uzunluğu 3,8 km təşkil edən avtomobil yolunun sözügedən hissəsinin eni müvafiq olaraq 8-16 metr olmaqla dəyişir.

Yolboyu deformasiyaya uğramış köhnə asfalt-beton örtüyünün frezlənməsi işləri həyata keçirilib. Bundan başqa, "İnşaat Norma və Qaydaları"na əsasən, yolboyu zəruri yerlərdə əsasın deformasiyaya uğramış hissələrinin qazılaraq kənarlaşdırılması, əks-dolğu işləri, yeni yol əsasının inşası icra olunub, lazımi qalınlıqda yeni asfalt-beton örtüyü döşənib.

Əsaslı təmir işləri çərçivəsində zəruri yerlərdə hər iki istiqamət üzrə eni 2,5 metr olmaqla piyada səkilərinin inşası həyata keçirilib, yararsız səki daşları yenilənib.

Sonuncu mərhələ üzrə hərəkətin normal təşkili üçün yolcizgi və yolgöstərici xətlərin, həmçinin piyada zolaqlarının çəkilişi işləri aparılmaqla müasir yol infrastrukturu yaradılıb.



## Masallı sənaye məhəlləsində 10 addan çox məhsul istehsal edilir

### Amma bu, son hədd deyil














**Masallı Sənaye Məhəlləsi 2018-ci ilin sentyabr ayında fəaliyyətə başlayıb. Buradakı "Farella" MMC döşək, "Baf" MMC divar kağızı, "Koriella" MMC yaylı yataq mebelləri istehsalı, "Kainat-2016" MMC taxta emalı ilə məşğuldurlar.**

Bunlardan əlavə, məhəllədə fiziki şəxslər də öz bizneslərini qurublar. Məsələn, Süleyman Qurbanov və Əsəd Əzizov mebel, Ramiz Əsgərov plastik qapı-pəncərə istehsal edirlər.

Sənaye məhəlləsində 100 nəfərə yaxın işçi çalışır. Necə deyərlər, hər biri də öz işinin ustasıdır. Ona görə də burada istehsal olunan məhsullar alıcılar tərəfindən rəğbətlə qarşılanır. Nəinki Masallıdan, hətta digər bölgələrdən də adamlar bu müəssisələrə müraciət edirlər. Düzdür, məhəllənin məhsulları hələlik daxili bazar üçün nəzərdə tutulub. Lakin işlər təkmilləşdikcə, keyfiyyət yaxşılaşdıqca xarici bazarlara çıxmaq imkanları da istisna edilmir.

Sənaye məhəlləsinin nəzdində Respublika Əlil Sahibkarlar İctimai Birliyinin xüsusi kursu fəaliyyət göstərir. Burada şəhid və qazi ailələrindən, habelə həssas qruplardan olan xanımlar dərzilik və xalçaçılıq peşələrinə yiyələnirlər. Hazırda dərzilikdə 14, xalçaçılıqda 12 nəfər bu peşələrin sirlərini öyrənirlər. Kurslar 3 aylıqdır. Peşə öyrənənlərin hər birinə ayda 345 manat təqaüd verilir. İndiki kurs sıradan 3-cüdür.

Peşələri xanımlara Rəfiqə Əsədullayeva və Tünzalə Abuzərova öyrədirlər. T.Abuzərova keçmiş Bakı Mədəni-Maarif Texnikumunu bitirib. 35 ildir xalçaçılıqla məşğuldur. Dediyinə görə, cənub bölgəsinə məxsus olan "Nəbati" xalça növünü arxivdən axtarıb tapıb və hazırda şagirdlərinə öyrədir. Bununla bərabər, T.Abuzərova Masallı Uşaq-Gənclər İnkişaf Mərkəzində dərnək rəhbəri işləyir.

Sənaye məhəlləsindəki kursları bitirən xanımların bir qismi qalıb burada işləyir, qalanları isə evlərində çalışır. Onlar Məşğulluq Mərkəzi tərəfindən lazımi avadanlıqlarla təmin olunurlar. Peşə kursunda oxuyan və oranı bitirən xanımlar sifarişlər əsasında Masallıdakı hotellər, habelə sənaye məhəlləsindəki sexlər üçün müxtəlif tikiş məmulatları hazırlayırlar. Məlumdur ki, Masallı eyni zamanda ölkəmizin turizm məkanlarından biri sayılır. Xalçaçı qızların toxuduqları kiçik həcmli xalçalar isə turistlər tərəfindən həvəslə alınır.

Sənaye məhəlləsindəki ən iri müəssisə "Koriella" MMC-dir. Sahə rəisi Rasim Ağaverdiyev deyir ki, sexlərində 40 nəfər çalışır: "Almaniya və Türkiyə istehsalı olan avadanlıqlarla 6-7 adda, istənilən ölçüdə yaylı yataq dəstləri hazırlayırıq. Avadanlıqlar təzə və müasir olduğu üçün hazırladığımız mebellər də keyfiyyətlidir. Yaxşı, möhkəm, keyfiyyətli məhsulun müştərisi də həmişə başının üstündədir. Ona görə də boş vaxtımız, demək olar ki, olmur. Çalışırıq ki, verilən sifarişləri vaxtında yerinə yetirək. İşçilərimizin aldıqları əməkhaqqı onları qane edir. Belə bir sənaye məhəlləsinin yaradılması adamların işlə təmin olunmasında çox xeyirlidir. Əminik ki, qarşıdan gələn illərdə sənaye məhəlləmizdə yeni məhsullar istehsal olunacaq və biz həmin məhsullarla xarici bazarlara çıxacağıq".

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Naxçıvanda işgüzarlıq artır

**Cari ilin ilk rübündə Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətində 1441 yeni vergiödəyicisi qeydiyyata alınıb.**

Dövlət Vergi Xidmətinin yaydığı məlumata görə, bunların 87,6 faizi fiziki şəxslər, 12,4 faizi hüquqi şəxslər və digər təşkilatlar olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə qeydiyyata alınmış vergiödəyicilərinin sayı 2,3, o cümlədən fiziki şəxslərin sayı 2, hüquqi şəxslərin sayı isə 36 dəfə artıb.

Cari ilin birinci rübündə kommersiya qurumlarının 40 faizi elektron qaydada, 60 faizi kağız daşıyıcılar vasitəsilə edilmiş müraciətlər əsasında uçota alınıb.

# Dilimiz milli mənəviyyatımızın tərkib hissəsidir

Milli düşüncə tərzinin inkişafında müstəsna rol oynayan milli dil hər bir xalqın ən qiymətli sərvəti və qürur mənbəyidir. Hər bir millətin dili onun təfəkkürünün, həyat tərzinin ifadə formasıdır. Tarix sübut edir ki, dili yaşadan və zənginləşdirən onun mənsub olduğu xalqdır.




Kimliyimizin, mövcudluğumuzun göstəricisi olan ana dilimiz həm də dövlətçiliyimizin əsas atributlarından biridir, azərbaycançılıq ideologiyasının mühüm tərkib hissəsidir. Onun saflığını, özünəməxsusluğunu qorumaq hər birimizin əsas vəzifələrindəndir. Bu vəzifədə hüquqi və siyasi məna olmaqla yanaşı, həm də böyük fəxarət hissi var.

Dil siyasəti Ümummilli Lider Heydər Əliyevin fenomenal fəaliyyətində xüsusi yer tutmuşdur. Respublikamızda dil siyasətinin formalaşdırılması, dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi, beynəlxalq aləmdə nüfuzunun artırılması onun adı ilə bağlıdır. Ulu Öndər ana dilinin qorunması, inkişaf etdirilməsi, zənginləşdirilməsi istiqamətində müxtəlif taleyüklü fərman və sərəncamlar qəbul etmiş, dilimizin hüquqi statusunu, tətbiqi və tədrisi üçün zəruri olan tədbirləri müəyyənləşdirmişdir. Ulu Öndər Heydər Əliyevin ana dilinə olan böyük sevgi və qayğısı bu gün hər bir azərbaycanlı üçün əsl örnək olmalıdır.

Azərbaycan dilinin saflığının qorunması, tətbiqi sahəsinin genişləndirilməsi istiqamətində dahi rəhbərin əsasını qoyduğu siyasət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət Dil Komissiyasına möhtərəm Prezidentimizin özünün rəhbərlik etməsi dilimizə dövlət səviyyəsində diqqət və qayğının əsas göstəricilərindəndir. Dövlət başçısının dilimizin saflığının qorunmasına, inkişaf etdirilməsinə və təbliğ olunmasına yönələn dil siyasəti, bu istiqamətdə apardığı genişmiqyaslı islahatlar, qəbul etdiyi fərman və sərəncamlar öz müsbət nəticəsini vermişdir. Hər bir azərbaycanlı, xüsusilə gənclər bundan sonra da bu məsələdə vətəndaşlıq borcunu yerinə yetirməli, ana dilimizə qayğı göstərməli, onun qorunması və inkişafı üçün bütün səylərimizi birləşdirməliyik.

Ana dili xalqın özü, varlığı, mənəviyyatıdır və mühüm tarixi əhəmiyyətə malikdir. Çünki o harada yaşamasından asılı olmayaraq, azərbaycanlıları birləşdirən, onların doğmalığının, həmrəyliyinin əsası olan ən etibarlı vasitədir. Təsadüfi deyil ki, Prezident İlham Əliyev mədəniyyət paytaxtımız Şuşada keçirilən Dünya Azərbaycanlılarının Zəfər Qurultayında bu məsələni xüsusi vurğulayaraq "Ana dili bütün Azərbaycan vətəndaşlarını birləşdirir", - dedi.

Dil həm də mənsub olduğu xalqın tanınmasında əhəmiyyətli rol oynayan amillərdən biridir. Bu mənada onun təbliğ edilməsi, beynəlxalq aləmdə nüfuzunun artırılması olduqca vacibdir. Qürurverici haldır ki, dövlətimizin nüfuzu artdıqca dilimizin mövqeyi də güclənir. Bu gün Azərbaycan dili dünyanın müxtəlif universitetlərində tədris olunur. Ayrı-ayrı xalqların nümayəndələri bu dilə maraq göstərir, onu öyrənməyə çalışırlar.

Qədim tarixi köklərə malik olan Azərbaycan ədəbi dili özündə xalqımızın maddi-mənəvi dəyərlərini, zəngin düşüncə səviyyəsini əks etdirir. Dilimiz öz fonetik ahənginə, leksik tərkibinə və qrammatik quruluşuna görə qeyri-adi gözəlliyə malikdir. İfadə imkanlarının zənginliyi, qrammatik quruluşunun sabitliyi onun qədim tarixindən və bugünkü inkişafından xəbər verir. Dilimizin zəngin söz ehtiyatı bizə öz hisslərimizi, düşüncələrimizi tam və aydın şəkildə ifadə etməyə imkan verir. Lakin təəssüflə qeyd etməliyik ki, son zamanlar onun geniş imkanlarından düzgün istifadə edilməməsi halları ilə tez-tez rastlaşırıq. Kütləvi informasiya vasitələrində, internet resurslarında və reklam daşıyıcılarında ədəbi dil normalarının kobud şəkildə pozulmasının, dilimizdə müvafiq qarşılığı olduğu halda əcnəbi söz və ifadələrdən yersiz istifadənin, dilimiz üçün səciyyəvi olmayan yad intonasiyanın işlədilməsinin şahidi oluruq.

Nəzərə alsaq ki, KİV-in auditoriyası və təsir imkanları çox genişdir, deməli, istər saytların, qəzetlərin dilində, istərsə də televiziya və radio efirlərində bu kimi hallar yolverilməzdir. Çünki efirdən eşitdiyimiz hər hansı bir nitq qüsuru, məişət danışığına xas olan məhəlli, kobud və tüfeyli söz nitqimizə daxil ola bilər. Hətta bəzən elə geniş yayıla bilər ki, onu norma, qanunauyğunluq saya bilərik. Odur ki, biz gənclər bu məsələdə çox ehtiyatlı və daim ayıq-sayıq olmalıyıq. Nitqimizi yersiz işlədilən əcnəbi söz və ifadələrdən, başqa dillərin yad təsirlərindən mühafizə etməliyik. Unutmamalıyıq ki, bu dil bizə ulularımızdan yadigar qalan mirasdır və biz də onu gələcək nəsillərə ötürməyə borcluyuq!

Hər bir dilin qorunub saxlanılması üçün yad təsirlərə qarşı müqavimətli olması mühüm şərtdir. Bu önəmli məsələdə biz gənclərin üzərinə böyük məsuliyyət düşür. Dildə alınma sözlərin mövcudluğu dillərin qarşılıqlı əlaqəsindən yaranan təbii bir prosesdir. Bu təbii prosesin nəticəsi kimi ümumişlək leksikamıza xeyli sayda alınma söz daxil olub. Lakin biz onlarla dildə qarşılığı olduğu halda, ehtiyac duyulmadan, yersiz işlədilən əcnəbi söz və ifadələr arasındakı sərhədi düzgün müəyyən etməliyik.

Ana dilimizə sevginin və hörmətin ən yaxşı nümayiş üsulu, ilk növbədə, onu düzgün işlətməkdir. Əlbəttə ki, qloballaşma dövründə müxtəlif dilləri bilmək, onlardan məqsədyönlü istifadə etmək üstünlükdür. Lakin milli dilə sevgi bütün bunların fövqündə dayanmalıdır. Bu baxımdan müxtəlif dillərdə mükəmməl danışmağı bacarsa da, Azərbaycan dilində əsl natiq kimi səlis, aydın çıxışlar edən, bu dilə dərindən bələd olan Prezident İlham Əliyevin nitqi bizim üçün əsl nümunə olmalıdır.

Möhtərəm Prezident dəfələrlə çıxışlarında dilin saflığının qorunmasının vacibliyini vurğulayaraq demişdir: "Azərbaycan dili o qədər zəngindir ki, heç bir xarici kəlməyə ehtiyacı yoxdur. Biz əsrlər boyu dilimizi qorumuşuq, bu gün də qorumalıyıq. Biz Azərbaycan dilinin saflığını təmin etməliyik. Digər tərəfdən, gənc nəsil imkan verməməlidir ki, ana dilimizə yad kəlmələr daxil olsun. Buna ehtiyac yoxdur. Mən bir vətəndaş kimi hesab edirəm ki, yeni kəlmələrin icad edilməsinə heç bir ehtiyac yoxdur. Lüğətimiz o qədər zəngindir ki, bunu qorusaq və gələcək nəsillərə əmanət kimi təhvil versək, bu bizim bu sahədəki ən böyük nailiyyətimiz olacaqdır". Bu fikirlər bizim üçün olduqca qiymətli tövsiyələrdir.

Azərbaycan dilinin geniş tətbiq olunduğu sahələrdən biri də təhsil sahəsidir. Dilimizin inkişafında və saflığının qorunması işində gənclərlə birbaşa bağlı olan təhsil sahəsinin müstəsna rolu var. Məhz bu səbəbdən təhsil müəssisələri, pedaqoji heyət məsələ ilə çox ciddi məşğul olmalı, ümumi nəzarət mexanizmi formalaşdırmalıdır. Dili sevdirməyin ən yaxşı yollarından biri onu dərindən mənimsətməkdir. Bu isə təkcə metodikanin işi sayılmamalıdır. Nəzərə alsaq ki, dilimiz milli mənəviyyatımızın tərkib hissəsidir, deməli, onu həm öyrənmə, həm də öyrətmədə təəssübkeşlik hissi əsas olmalıdır.

Dil təlimində tələb olunan sistemlilik, əslində, dilin öz daxili məzmununda var. Çünki o tarixən müxtəlif inkişaf mərhələlərindən keçsə də, öz bütövlüyünü qoruyub saxlaya bilmişdir. Məqsədyönlü mütaliə də ədəbi dil normalarının praktik səviyyədə öyrənilməsinə yol açır, düzgün nitq təcrübəsinin zənginləşdirilməsinə, yazı qaydalarının möhkəmləndirilməsinə səbəb olur. Bununla da nitq mədəniyyətinin inkişafına birbaşa təsir göstərir. Həmçinin nitqin tədricən dialekt xüsusiyyətlərindən təmizlənməsini də təmin edir. Ümumilikdə isə dilə sevgi aşılayır. Çünki ümumi mədəniyyətin tərkib hissəsi olan nitq mədəniyyəti özündə dilə şüurlu sevgini əks etdirir.

Ədəbi tələffüz və yazı qaydaları, durğu işarələri və onların işlədilmə mövqelərinin düzgün mənimsənilməsi, nitq etiketlərindən yerində istifadə etmək qabiliyyətinin, şifahi və yazılı nitq vərdişlərinin formalaşdırılması çox vacibdir. Dilimizin üslubi imkanlarından düzgün istifadə etməli, sözlərin semantikasını bilməli, "Ən gözəl fikir belə, pis ifadə edildikdə qiymətini itirir" tezisini yaddan çıxarmamalıyıq. Bilməliyik ki, lüğət ehtiyatının zəngin olmaması sadə bir fikrin ifadəsində belə çətinlik törədə bilər. Odur ki, söz ehtiyatımızı daim zənginləşdirməyə çalışmalı, fikirlərimizi öz dilimizdə səlis, aydın və ətraflı çatdırmaq rahatlığını təmin etməliyik.

Dili sevmədən Vətəni sevmək mümkün deyil. Çünki dil də Vətən qədər əziz, müqəddəsdir. Hər ikisinin sərhədlərini qorumaq ümdə borcumuzdur.

***Səma VƏLİYEVA,***
***Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin Reklam və KİV-in monitorinqi şöbəsinin aparıcı mütəxəssisi***

# Dil xalqın sərvətidir

**Dil hər bir xalqın milli sərvəti, mənəvi varlığının simvolu, həyat tərzinin ifadə formasıdır. Bütün fəaliyyəti boyu dilimizin inkişafının qayğısına qalan, Azərbaycan dilinin dövlət dili statusu almasında böyük xidmətləri olan Ulu Öndər Heydər Əliyev Azərbaycan dilindən danışarkən "Fəxr edə bilərik ki, bizim zəngin, böyük söz ehtiyatına malik olan Azərbaycan dilimiz var," - demişdir.**

Tarixin çətin sınaqlarından uğurla çıxan Azərbaycan xalqı müxtəlif illərdə məruz qaldığı istilalara, təzyiqlərə baxmayaraq, öz ruhunun təzahürü olan bu müqəddəs əmanəti, ana dilimizi nəinki qoruyub saxlamış, həm də inkişaf etdirmişdir.

Ana dili millətimizin təsdiqini və milli özünüdərkini müəyyənləşdirən əsas amillərdən biridir. Milli-mənəvi sərvətimizdən, mənəviyyatımızdan bəhs olunanda, ilk növbədə, ana dilimiz yada düşür. Əgər bir xalqın ana dili yoxdursa, demək, həmin xalqın özü də yoxdur.

Əlbəttə ki, heç bir dil dövlət qayğısı olmadan inkişaf edə bilməz. XX əsrin acı həqiqətləri göstərdi ki, sovetlər imperiyasının ucqarlarında xalqların ana dilini və milli-mənəvi dəyərlərini məhv etmək məqsədini qarşısına qoymuşdu. Azərbaycanda da bu xain, mənfur siyasətin nəticəsində ana dilimiz unutdurulmağa çalışılmış, adı, əlifbası tez-tez dəyişdirilmiş, dilimizi məhv etmək üçün "xüsusi" plan həyata keçirilmişdir. Amma bu plan baş tutmadı. 1969-cu ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə respublikamızda milli dilimizə olan münasibət də kökündən dəyişdi. SSRİ Konstitusiyasının qəbulundan sonra milli dillərin sıxışdırılması prosesi daha da gücləndirildi. Belə bir şəraitdə ana dili məsələsinin təbliği ilə məşğul olmaq böyük cəsarət tələb edirdi. 30-cu illərdə dil məsələsini qabardanlar Sibirə sürgün olunurdu. Hətta milli respublikaların rəhbərləri də ana dili məsələsini gündəmə gətirməkdə aciz idilər. Bütün bunlara baxmayaraq, ötən əsrin 70-ci illərinin əvvəllərində Ulu Öndər Heydər Əliyev respublikamızda milli dilimizə olan münasibəti kökündən dəyişməyi bacardı.

1978-ci il aprelin 2-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş VII sessiyasında məruzə ilə çıxış edən Ulu Öndər Heydər Əliyevin təklifi ilə 73-cü maddəni aşağıdakı redaksiyada vermək təklif olunmuşdur: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir". Ulu Öndər bununla gələcək müstəqil dövlətçiliyin milli rəmzlərindən ən mühüm olanını həyata keçirdi.

O illərdə dövlət dili uğrunda ardıcıl mübarizə aparan Ümummilli Lider respublikanın ziyalılarını - şair və yazıçıları, sənət adamlarını səfərbər edərək ana dilini dövlət dili kimi yaşatmaq uğrunda mübarizəyə cəlb etmişdir.

Müstəqilliyimizin ilk illərində də dilimiz ciddi sınaq qarşısında qalmışdı. 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası hazırlanarkən dövlət dilinin necə adlandırılması ilə bağlı müxtəlif təkliflər irəli sürülürdü. Təbii ki, böyük əksəriyyətində dilimizin Azərbaycan dili adlandırılması dəstəklənirdi. Geniş müzakirələrdən sonra 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması hüquqi əsaslarla təsdiq olunmuşdur.

Dil siyasəti Ümummilli Liderimiz Heydər Əliyevin fenomenal fəaliyyətində xüsusi yer tutmuşdur. Respublikamızda ana dili siyasətinin formalaşdırılması, dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi, beynəlxalq aləmdə nüfuzunun artırılması onun adı ilə bağlıdır. Ulu Öndər ana dilinin qorunması, inkişaf etdirilməsi, zənginləşdirilməsi istiqamətində müxtəlif taleyüklü fərman və sərəncamlar qəbul etmiş, dilimizin hüquqi statusunu, tətbiqi və tədrisi üçün zəruri olan tədbirləri müəyyənləşdirmişdir.

Ulu Öndər Heydər Əliyev yeni inkişaf dönəmində yaranmış vəziyyəti nəzərə alaraq 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman imzalamışdır. Dövlətimizin dil siyasətinin müəyyənləşməsi, formalaşması və möhkəmləndirilməsi baxımından müstəsna əhəmiyyət daşıyan bu tarixi fərman dövlət dili ilə bağlı hərtərəfli və geniş məlumatları özündə ehtiva edir. Azərbaycan dilinin, milli dəyərlərin qoruyucusu Ulu Öndərin elə həmin fərman ilə də Azərbaycan Prezidenti yanında Dövlət Dil Komissiyası yaradılmışdır.

Xatırladaq ki, ölkəmizdə Azərbaycan əlifbası və Azərbaycan dili gününün qeyd edilməsi də Ulu Öndərin adı ilə bağlıdır. "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust tarixli fərmanına əsasən, hər il avqustun 1-i Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd edilir.

Ulu Öndər 2002-ci il sentyabrın 30-da "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununu imzalamaqla Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini, müstəqil dövlətçiliyin başlıca əlamətlərindən biri olduğunu bir daha təsdiq etmiş, Azərbaycan dilinin tətbiqi, qorunması və inkişafına sədaqətini nümayiş etdirmiş, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünüifadə ehtiyaclarının ödənilməsi üçün də zəmin yaratmışdı.

Dil həm də mənsub olduğu xalqın tanınmasında əhəmiyyətli rol oynayan mühüm amillərdən biridir. Bu mənada onun təbliğ edilməsi, beynəlxalq aləmdə nüfuzunun artırılması olduqca vacibdir. Qürurverici haldır ki, dövlətimizin nüfuzu artdıqca dilimizin mövqeyi də güclənir. Bu gün Azərbaycan dili dünyanın müxtəlif universitetlərində tədris olunur. Ayrı-ayrı xalqların nümayəndələri milli dilimizə maraq göstərir, onu öyrənməyə çalışırlar.

Dilimizin dərin bilicisi olan Heydər Əliyevin ana dilinə olan böyük sevgi və qayğısı bu gün hər bir azərbaycanlı üçün əsl örnək olmalıdır.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Müsadirə olunmuş 4,6 tondan çox narkotik vasitə məhv edilib

## Məhv edilən narkotik vasitələrin və psixotrop maddələrin qara bazarda ümumi dəyəri 223 milyon manatdır

Məhkəmələrin qərarları ilə müsadirə olunmuş dörd tondan çox müxtəlif növ narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları aprelin 26-da Sabunçu rayonundakı "Bakı Neft Maşınqayırma Zavodu"nun inzibati ərazisində məhv edilib.

AZƏRTAC xəbər verir ki, narkotiklərin məhv olunması prosesində Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupunun rəhbəri Fəqan Şahverdiyev, Komissiyanın, Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, Dövlət Gömrük Komitəsinin, Dövlət Sərhəd Xidmətinin əməkdaşları və KİV nümayəndələri iştirak ediblər.

Ümumilikdə 1964 məhkəmə hökmü ilə barəsində məhvetmə qərarı qəbul olunan 4 ton 646 kiloqram 593,396 qram və 80 min 944 ədəd həb (2 ton 568 kiloqram 614,733 qram heroin, 1 ton 404 kiloqram 411,584 qram marixuana, 228 kiloqram 669,39 qram tiryək, 71 kiloqram 818,847 qram həşiş, 519,114 qram kokain və 75802 ədəd həb metadon, 372 kiloqram 265,438 qram və 5 min 142 ədəd psixotrop maddə) müxtəlif növ narkotik vasitə, psixotrop maddə və 39 min 31 ədəd çətənə bitkisi, həmçinin 77 min 822 ədəd həb, 9 min 122 ədəd kapsul, 29 flakon, 59 ampula, 180,4 qram güclü təsir edən maddələr aidiyyəti təşkilatların və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə yandırma üsulu ilə məhv edilib. Məhv edilən narkotik vasitələrin qara bazar qiyməti 223 milyon manat təşkil edir.

Bu ilin 3 ayı ərzində narkotiklərlə mübarizə sahəsində hüquq-mühafizə orqanları tərəfindən 3 min 173 fakt aşkarlanıb. Həmin faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 2 ton 11 kiloqram 394,952 qram müxtəlif növ narkotik vasitə, psixotrop maddə müsadirə edilib. Həmçinin göstərilən dövr ərzində 18 min 403 ədəd metadon və 252 ədəd çətənə bitkisi qanunsuz dövriyyədən götürülüb.

Müsadirə olunan narkotik vasitələrin 575 kiloqram 997,924 qramını heroin, 1 ton 221 kiloqram 854,206 qramını marixuana, 67 kiloqram 73,092 qramını tiryək, 42 kiloqram 555,635 qramını həşiş,102 kiloqram 936,745 qramını psixotrop maddələr, 977,35 qramını digər narkotik vasitələr təşkil edib. Cinayət məsuliyyətinə 1972 nəfər cəlb olunub. Cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərdən 31 nəfəri xarici ölkə vətəndaşıdır.

Səhiyyə Nazirliyinin məlumatına əsasən, 2022-ci il dekabrın 31-dək respublika üzrə narkomanlıq diaqnozu ilə qeydiyyatda olanların sayı 35 min 97 nəfər təşkil edib. Həmin şəxslərdən 28 min 648 nəfəri dispanser, 6 min 449 nəfəri profilaktik qeydiyyatında olanlardır. Onlardan 572 nəfəri qadındır. 24 min 628 nəfər opioid qrupuna aid narkotik istifadəçiləri, 10 min 469 nəfər kannabinoid qrupuna aid narkotik istifadəçiləridir. 2022-ci ildə müvafiq diaqnozla 3 min 689 nəfər qeydiyyata götürülüb, 3 min 194 nəfər isə qeydiyyatdan çıxarılıb.

"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqram"ının icrasını daim diqqət mərkəzində saxlayan Dövlət Komissiyasının daimi fəaliyyət göstərən işçi qrupu cari ilin 3 ayı ərzində müasir informasiya texnologiyalarının imkanlarından istifadə edilməklə, narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması istiqamətində məqsədyönlü işlər görülüb. Bu sahədə fəaliyyət göstərən qurumların koordinasiyası təşkil edilib, qarşılıqlı əməkdaşlıq nəticəsində ictimai maarifləndirmə işlərinin əhatəsi genişləndirilib.

Dövlət Komissiyasının daimi fəaliyyət göstərən işçi qrupu antinarkotik təbliğat işinin daha da gücləndirilməsi məqsədilə Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatı və "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti ilə birgə, Ədliyyə Nazirliyi Penitensiar Xidməti, Gənclər Fondu və Bakı Şəhəri üzrə Təhsil İdarəsi arasında ayrı-ayrılıqda tədbirlər planları imzalanıb və bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilməkdədir.

Bununla əlaqədar bu ilin yanvar-mart aylarında Dövlət Komissiyasının daimi fəaliyyət göstərən işçi qrupunun təşkilatçılığı və aidiyyəti dövlət qurumlarının nümayəndələrinin iştirakı, eyni zamanda aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə respublika ərazisində 40-a yaxın interaktiv təlim, ictimai mühazirə və maarifləndirmə xarakterli tədbir təşkil olunub.

Bu ilin yanvar-mart aylarında 802 - qaynar xətt telefon zəng xidmətinə 295 vətəndaş müraciəti daxil olub. Onların 45-i narkotik vasitələrin qanunsuz dövriyyəsi, 144-ü narkotik asılılıqdan müalicə, 106-sı isə digər məsələlərlə (təkrar müraciət, qanunvericiliyin müddəalarının izah edilməsi, məcburi müalicəyə dair prosedurlar və s.) bağlı olub. Qeyd olunan müraciətlər üzrə müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti orqanlara 189 məktub ünvanlanıb.

Eyni zamanda 802 - qaynar xətt telefon xidmətinin fəaliyyət istiqamətlərinə dair hazırlanmış videoçarxın, narkomanlığın zərəri barədə "Narkotik sərhədsiz fəlakətdir" və animasiya formatında olan "İçindəki günəşi qoru, narkotikə yox de" adlı sosial çarxların paytaxtın küçə və prospektlərdəki elektron lövhələrdə nümayişi və eyni zamanda televiziya kanallarında yayımlanması təmin edilib.

Bundan əlavə, sağlam həyat tərzinin təbliği və narkomanlığın zərəri ilə bağlı sosial maarifləndirmə işinin daha da genişləndirilməsi məqsədilə Dövlət Komissiyasının işçi qrupu tərəfindən üzərində xüsusi şüarlar əks olunan yeni forma və dizaynda sosial lövhələr hazırlanıb.






# Bakı möhtəşəm Qran-priyə tam hazırdır

## Azərbaycan növbəti dəfə dünya idman ictimaiyyətinin diqqət mərkəzindədir

**Planetin ən güclü pilotları birillik fasilədən sonra yenidən Bakıda toplaşırlar. Bu həftəsonu start götürəcək və ölkəmizin sayca 7-ci dəfə evsahibliyi edəcəyi "Formula-1"in də dünyada artıq Azərbaycan modeli yaranıb.**









Məlumdur ki, beynəlxalq tədbirlərin keçirilməsi mürəkkəb bir mexanizmə malikdir. Təşkilatçılıq, təhlükəsizlik, iqtisadi və kommunikasiya imkanları hər zaman həlledici rola malikdir. Bir çox ölkələr beynəlxalq tədbirlərə evsahibliyi etmək üçün rəqabət aparırlar. Məlumdur ki, yarış və tədbirlərin ev sahibləri illər öncə müəyyən olunurlar.

Bu baxımdan beynəlxalq yarış və tədbirlərin Azərbaycanda keçirilməsi ölkəmizin böyük uğurudur. Azərbaycanın dünyada etibarlı tərəfdaş, dünyəvi ölkə, güclü iqtisadiyyata, sabit və təhlükəsiz mühitə malik olması belə tədbirlərə evsahibliyi etməsi imkanlarını artırır və bir çox hallarda digər ölkələrlə rəqabətdə üstünlüyə sahib olur.

Bundan öncəki illərdə olduğu kimi, növbəti dəfə də Azərbaycan "Formula-1" yarışlarına adına layiq uğurla evsahibliyi edəcək. Dünyanın bütün qitələrinin telekanallarında yenə də "Bakı", "Azərbaycan" sözləri qürurla səslənəcək. "Formula-1" təqvimindəki ən yeni trekin yarışa hazırlığı yüksək səviyyədədir. Hər şey çox mükəmməl təşkil olunub. Bu il təşkilatçılar ötən illərə nisbətən daha çox hazırlıqlıdırlar. Mütəxəssislər bildirirlər ki, ötən il Bakıda keçirilən yarış xoş sürprizlə yadda qalmış, bu il isə Azərbaycan Qran-prisi daha möhtəşəm olacaq.

İlk dəfə 2016-cı ildə paytaxtımızda keçirilən "Formula-1" Avropa Qran-prisinin Bakı mərhələsi yenilikləri ilə xatırlanır. Bu, sıralama turları ilə bağlıdır. Əvvəlki qaydalara görə, 18 dəqiqə davam edən birinci və 15 dəqiqəlik ikinci seansların nəticələrinə əsasən, ən pis nəticə göstərən 6 pilot mübarizədən kənarlaşdırıldı. 10 pilot 12 dəqiqəlik üçüncü seansdakı göstəricilərə görə yarışa start verdi. Yeni qaydaya görə isə, seansın sonunda yox, 90 saniyədən bir ən yavaş pilotun mübarizəni dayandırması nəzərdə tutulub.

Xüsusi olaraq qeyd edək ki, quraşdırılan tribunalar elə yüksək səviyyədə hazırlanıb ki, daim istifadədə olsa belə, dağılıb sıradan çıxmır. Bakı Şəhər Halqası paytaxtımızın tam mərkəzindən və ən gözəl məkanlarından keçir. Təşkilatçılar trekin marşrutunu seçərkən məhz bu məqamı qarşıya məqsəd qoyublar. "Formula-1" Azərbaycan Qran-prisi Azadlıq meydanından start götürəcək və həmin yerdə də başa çatacaq. Trekdə yarış avtomobillərinin hərəkəti saat əqrəbinin əks istiqamətində olacaq.

Azadlıq meydanı yarışın başlayıb bitdiyi yer olduğu üçün trekin əsas hissəsini təşkil edəcək. Burada inşa olunan Paddok arenasında yarışa nəzarət binası, Beynəlxalq Avtomobil Federasiyasının, "Formula-1" rəhbərliyinin ofisləri, eləcə də 22 iştirakçının hər biri üçün 2 ədəd olmaqla 44 dayanacaq tikilib. Məhz bu ərazidə yarışın startı və finişi olacaq. Qaliblər isə pit binasının podium hissəsində mükafatlandırılacaqlar.

Azadlıq meydanının qarşısı həm də bolidlərin sürətlə hərəkət edəcəyi yoldur. Burada hərəkət zamanı çox gözəl mənzərə yaranacaq. Çünki bir yanda "Formula-1" Paddok Klubunun arxasında görünən Hökumət Evi, digər tərəfdə isə start nöqtəsinə tərəf uzanan dənizkənarı yol və Dənizkənarı Milli Park diqqəti çəkir. Dənizkənarı Milli Park Bakının əvəzsiz incisi və maddi mədəniyyətimizin əsrarəngiz nümunəsi olmaqla yanaşı, şəhərimizin tarixi və müasir simasını təşkil edən xüsusi təbii kompleksdir. Həm də bulvar kimi tanınan bu ərazi son günlər "Formula-1" yarışlarını izləmək üçün paytaxtımıza gələn qonaqların sevimli gəzinti və istirahət yerinə çevrilib.

Yarışın əsas izləyici tribunalarından olan Abşeron tribunası da Azadlıq meydanının qarşısında, bulvar ərazisində yerləşir. Bu tribunadan yarışın ən həlledici məqamlarını, start və finişi izləmək mümkündür. Bulvarı və Hökumət Evini ötdükdən və 90 dərəcəli sol döngədən sonra pilotlar 300 metrlik məsafədə rus şairi A.S.Puşkinin adını daşıyan küçədən keçəcəklər. İkinci döngədən sonra bolidləri trekin Xaqani küçəsi boyu 1 km uzanan və uzunluğuna görə ikinci böyük sürətlənmə xətti sayılan hissəsi gözləyir. Sonra pilotlar yenidən kəskin döngə ilə qarşılaşacaqlar. Bu döngə pilotlara ötmə üçün əla şərait yaradacaq. Şəhər treklərində çox nadir hallarda iki uzun sürətlənmə xətti görmək olar.

Üçüncü döngədən sonra pilotlar sol tərəfə - Bülbül prospektinə doğru yol alırlar. 240 metrlik məsafəni düz keçdikdən sonra 90 dərəcəli sağ döngə ilə qarşılaşırlar. Bu düz yolun sol tərəfində gözəl mənzərəli Sahil bağı yerləşir. Daha sonra pilotlar Zərifə Əliyeva küçəsinə dönəcək, kiçik bucaqlı döngədən sonra 350 metr uzunluğunda məsafə qət edəcəklər. Növbəti 5-ci və 6-cı döngələr pilotları Neftçilər prospektinin əks istiqamətindəki yola yönəldir. Bura trekin iki fərqli hissəsinin yanyana olduğu bölmədir. Təxminən 300 metr məsafədə "Formula-1" bolidləri eyni küçədə əks istiqamətlərdə hərəkət edəcəklər, onları yalnız baryerlər ayıracaq. Bununla trekin müasir Bakının mərkəz hissəsini göstərən görüntüləri sona çatacaq. Bakının bu əraziləri sanki Cənubi Avropanı - Barselona və Nitsanı xatırladır. Bu ərazidə çox sayda mağaza, restoran və kafelər yer alır. Həmçinin müasir memarlıq üslubunda tikilmiş bir neçə ticarət mərkəzinə və gözoxşayan mənzərəyə sahib Xəzərin sahili trekə xüsusi gözəllik verir. Bəzi tribunalar bu zonada yerləşir.

Yeddinci döngədən sonra pilotlar Əziz Əliyev küçəsi ilə İçərişəhərin qala divarlarına tərəf yönələcəklər. Bolidlər 500 metrə yaxın məsafəni ensiz küçələrdə qət edəcəklər. Bu yerlərdə trek qismən səki hesabına genişləndirilib. Trekin ən çox çətinliyə malik hissəsi də buradan və qarşıdakı 8-ci döngədən sonra başlayır. Şəhər trekinin bu hissəsi artıq onun vizit kartına çevrilib. 8-ci döngədən sonra yol maksimal şəkildə daralacaq və bu hissədə pilotları kəskin yoxuş gözləyəcək. Pilotları sol tərəfdə İçərişəhərin qala divarları və giriş qapısı, sağ tərəfdə isə yaşayış binaları əhatə edəcək.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

Bu barədə düşünək

# Qəbiristanlıqlardakı özbaşınalıqlar

**Bir insan olaraq sonumuz eynidir: altı arşın bez və iki metr torpaq!**



Hələ o da kimə qismət ola-olmaya!

Adətən, dünyasını dəyişənləri cəm halda müəyyən bir yerdə dəfn edirlər və adını da qoyurlar qəbiristanlıq!

Adətindən və millətindən asılı olmayaraq, dünyanın hər yerində qəbiristanlıqlar vardır. Və hər yerdə də bu məkana hörmətlə yanaşır, müqəddəs sayırlar.

Bircə ermənilər istisna olmaqla.

Goreşən xislətli bu millət işğal ərazilərindəki bütün qəbirləri eşdi, bəzi ölülərin qızıl dişlərini çıxardı, bütövlükdə isə qəbiristanlıqların hamısını dağıdaraq yerləyeksan etdi.

Odur ki, hamı erməni vandallarına da, onların belə əməllərinə də nifrətlə yanaşır.

Təəssüf ki, hərdən bizim də bəzi qəbiristanlıqlarımızda belə nalayiq əməllər törədilir. Kimsə qəbirlərin üstündəki gülləri oğurlayır, başdaşlarına xətər yetirir, mərmər gülqabılarını oğurlayıb aparır, qəbir çağlarını sökərək metal kimi satır və s.

Utanc gətirən hallardır!

Bu günlərdə paytaxtın Zabrat qəsəbəsindəki rus qəbiristanlığında bir çox məzarlara ziyan dəyməsi, xatirə daşlarına sayğısız münasibət faktları bəlli oldu!

Dərhal hadisəyə dövlət səviyyəsində müdaxilə edildi, xoşagəlməz vəziyyətin tezliklə aradan qaldırılması üçün təsirli tədbirlər müəyyənləşdirildi, günahkar tapılaraq məsuliyyətə cəlb olundu.

Ötəri araşdırmalar göstərdi ki, digər qəbiristanlıqlarda da belə xoşagəlməz vəziyyət, özbaşınalıq və vandallıq halları vardır!

Yasamal qəbiristanlığı paytaxtın mərkəzində yerləşir, burada böyük "sıxlıq" müşahidə olunur. Bu isə müəyyən "işbazların" əməlinə yarayır.

Əgər əvvəllər bu qəbiristanlıqda "sahələr" mollalar arsında bölünmüşdüsə və hər "ərazinin" öz mollası həmin yerdəki qəbirlərdə "Yasin" surəsi oxuya bilərdilərsə, indi bu bölgüyə "bir qrup şəxslər" də daxil olub.

Öz "fəaliyyətlərini" "reketçilik" prinsipi əsasında quran bu adamlar haradan peyda olub, hansı qurumu təmsil edirlər, bilinmir. Molla "seçimindən" tutmuş qəbirlərin ətrafının təmizlənməsinədək bütün "məsələlərdə" onlarla "razılaşmalısan". Yoxsa qəbirlər ziyan görəcək, üstünə zir-zibil yığılacaq və digər vandallıqlar və tərbiyəsizliklər törədiləcəkdir.

Kimisə tapıb məsələni araşdırmaq istəyəndə isə "narkomanlar bura yığışır, onlar edirlər" cavabını eşidirsən.

Doğrudanmı bütün bunları edənlər "narkomanlardır?"

Elə isə sahəyə məsul olan hüquq-mühafizə orqanlarının nümayəndələri niyə bütün bu biabırçılıqlardan xəbərsizdirlər?

Qəbirlərin dağıdılması ilə bağlı vandallıq hərəkətlərinə Xırdalan qəbiristanlığında da rast gəldik. Yenə bütün təqsirlər "narkomanların" üzərinə atıldı!

Hərə öz əzizinin məzarını qorumaq üçün gecə-gündüz qəbiristanlıqda keşik çəkməlidirmi?!

Bütün bu son biabırçılıqlar qəbiristanlıqlara xidmətin bələdiyyələrə həvalə olunmasından sonra baş verir. Bəlkə kimlərsə bu dəyişiklikdən narazı qalıb, ona görə bütün bu əməllər baş verir?

Artıq cəmiyyətdə bələdiyyələrin "uğursuz qurum" olduğu barədə fikir formalaşmaqdadır. El arasında onlara "torpaqla dolanan qurum" da deyirlər.

Qəbiristanlıq da bəlli torpaq sahəsidir. Lakin burada iş qurulmalı, xidmət göstərilməli və müqabilində müəyyən məbləğ qazanmaq olar. İnsanlar da xidmətə görə pul ödəməyə razıdırlar. Lakin "qəbiristanlıq rekertlərinə" yox!

Biz hüquqi dövlətdə yaşayırıq! Öz vəzifələrinin öhtəsindən bacarıqla gələn hüquq-mühafizə sistemimiz var. Qəbiristanlıqlara xidmət isə bələdiyyələrə özlərini doğrultmaq üçün verilən daha bir imkandır. Burada da etibardan düşsələr, sonrası necə olacaq?

Bələdiyyələrin fəaliyyəti üçün məsuliyyət daşıyan qurum da bu barədə düşünməli, vaxt itirmədən təsirli tədbirlər görməlidirlər!

Xalqımızın əsrlərdən keçib gələn dəyərləri, ənənələri vardır. Onları qorumaq, yaşatmaq vacibdir. Belə dəyərlərdən biri də haqq dünyasına qovuşanların xatirəsini əziz tutmaq, vaxtaşırı məzarlarını ziyarət edərək səliqə-sahman yaratmaqdır.

Qəbir dağıtmaq erməni vandallarına xas olan barbarlıqdır! Belə vəziyyətin baş verməsi və davam etməsi qəbuledilməz və yaramaz haldır!

İnanırıq ki, təkcə adları çəkilən qəbiristanlıqlarda deyil, digər yerlərdə də xalqımızn adına və adət-ənənəsinə yaraşmayan belə biabırçı halların dərhal qarşısının alınması üçün müvafiq qurumlar təcili və təxirəsalınmaz tədbirlər görəcək, həmin əməlləri törədən vandallar, "narkomanlar" və onlara dəstək verənlər qanunun məsuliyyətinə cəlb olunacaqlar!

Oğurluq qəbirdaşlarını alanlar, dəmir çağları "metal qırıntısı" adı ilə qəbul edib bu əməl sahiblərinə "maliyyə dəstəyi" verənlər də ciddi şəkildə cəzalandırılmalıdırlar!

Hamımızın gedəcəyimiz yerdə indidən zəruri qayda və səliqə-sahman yaratmaq hər birimizin borcudur!

*"Azərbaycan"*

# Moskva 10 norveçli diplomatı persona non qrata elan edib

Rusiya Norveç səfirliyinin 10 əməkdaşını persona non qrata elan edib. Bu barədə aprelin 26-da Rusiya Xarici İşlər Nazirliyi məlumat yayıb.




Dünən səhər saatlarında Norveç səfiri Robert Kvile XİN-ə çağrılıb və ona Oslodakı Rusiya səfirliyindən 15 diplomatın və hərbi attaşe aparatının əməkdaşlarının qovulması ilə bağlı krallığın müvafiq qərarına Moskvanın kəskin etirazı bildirilib.

Xarici İşlər Nazirliyinin bəyanatında deyilir ki, cavab tədbiri olaraq Norveçin Moskvadakı səfirliyinin və müdafiə məsələləri üzrə attaşenin aparatının 10 nümayəndəsinin persona non qrata elan edilməsi ilə bağlı səfir Kvileyə nota təqdim edilib.

Oslonun qeyri-dost hərəkətləri ilə bağlı Rusiya tərəfinin digər tədbirlər görəcəyi barədə də səfirə məlumat verilib. Məsələn, Norveçin diplomatik nümayəndəlikləri tərəfindən Rusiya Federasiyası vətəndaşları arasından kadrların işə götürülməsinə məhdudiyyət tətbiq ediləcək.

Rusiyanın Norveçdəki səfirliyinin 15 əməkdaşının persona non qrata kimi tanınmasını aprelin 13-də xarici işlər naziri Anniken Hyuitfelt elan edib. Onun sözlərinə görə, rusiyalı diplomatlar öz statusları ilə bir araya sığmayan fəaliyyət göstəriblər.

Norveç hökuməti Rusiyanın ölkədə kəşfiyyat təhlükəsi yaratdığını da bildirib.

Rusiya Federasiyası Xarici İşlər Nazirliyi də öz növbəsində Moskvanın Oslonun hərəkətlərinə müvafiq cavab verəcəyini bəyan edib. Rusiyanın Norveçdəki səfirliyi də əməkdaşlarının ölkədən çıxarılmasını son dərəcə qeyri-dost hərəkət adlandırıb.

Aprelin 14-də Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova qeyd edib ki, Norveçin Rusiya səfirliyinin 15 əməkdaşını persona non qrata elan etməsi düşmənçiliyin qəsdən qızışdırılmasıdır. O bildirib ki, diplomatlara qarşı heç bir iddia irəli sürülməyib, lakin Norveç mediası guya rus "casus"larını ifşa etmək üçün növbəti saxta kampaniyaya başlayıb.

Zaxarova bununla da iki ölkə arasında münasibətlərə ciddi zərbə vurulduğunu dilə gətirib.

Qeyd edək ki, Rusiya Donbasın "müdafiəsi üçün" Ukraynada xüsusi hərbi əməliyyatı başlayandan sonra Qərb ölkələri rus diplomatlarını fəal şəkildə ölkədən çıxarmağa başlayıb.

Son aylar Rusiya Polşa, Almaniya, İtaliya, İspaniya, Belçika, Niderland, Danimarka, Bolqarıstan, Portuqaliya, İrlandiya, İsveç, Çexiya, Rumıniya, Estoniya, Litva, Latviya, Yunanıstan və digər ölkələrdən diplomatlarının kütləvi şəkildə qovulması ilə üzləşib.

Bunun qarşılığında Moskva da cavab tədbirləri görür.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Daşkəsən rayonunda akademik Zərifə Əliyevanın 100 illiyinə həsr olunmuş səyyar göz müayinəsi aksiyası keçirilib

**"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) və Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin birgə təşkilatçılığı ilə Daşkəsən rayonunda ilk dəfə səyyar göz müayinəsi aksiyası təşkil edilib.**

Tibbi müayinə aksiyası əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə oftalmologiya sahəsinin inkişafına əhəmiyyətli töhfələr vermiş görkəmli alim Zərifə Əliyevanın anadan olmasının 100 illiyi çərçivəsində keçirilib. Aksiyanın ilk günü Vətən müharibəsi şəhidlərinin ailə üzvləri, həmçinin qazilər müayinəyə cəlb ediliblər. Aksiyada ümumilikdə 300 nəfərə yaxın Daşkəsən sakini iştirak edib.

Vətəndaşlar geniş imkanlara malik müasir diaqnostik avadanlıqlarla təchiz edilmiş səyyar klinikada Milli Oftalmologiya Mərkəzinin həkimlərinin ümumi göz müayinəsi, görmə diaqnostikası, gözdaxili təzyiqin ölçülməsi, gözün optik gücünün təyin edilməsi və digər müxtəlif tibbi xidmətlərdən yararlanıblar. Müayinələr əsnasında presbiopiya, miopik astiqmatizm, allergik konyunktivit, quru göz sindromu və s. diaqnozlar aşkar olunaraq müvafiq müalicə kursları təyin edilib.







Səyyar tibbi müayinə aksiyaları yerli icmaların, xüsusilə ucqar kənd sakinlərinin səhiyyə sahəsində xidmətlərə əlçatanlığının artırılması, profilaktik müayinə mədəniyyətinin təbliği məqsədilə "AzerGold" QSC tərəfindən tərəfdaş qurumlarla birgə mütəmadi olaraq təşkil edilir.

Xatırladaq ki, "AzerGold" QSC, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi və Bakı Sağlamlıq Mərkəzi ilə birgə 2021-ci ildən etibarən həyata keçirilən müayinə aksiyaları zamanı ümumilikdə 1000 nəfərdən artıq Daşkəsən sakini cərrahiyə, pediatriya, terapiya, endokrinologiya, hepatologiya, LOR, kardiologiya, urologiya, həmçinin onkologiya sahələri üzrə ödənişsiz olaraq müxtəlif tibbi xidmətlərdən yararlanıblar.



*"Azərbaycan"*

# OXUCULARIN NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## "Yelo Bank" ASC-nin səhmdarlarının nəzərinə!

14 iyun 2023-cü il saat 11:00-da Bakı şəhəri, AZ1122, Həsən bəy Zərdabi küçəsi, 81k ünvanında yerləşən "Yelo Bank" ASC-nin baş ofisində səhmdarların növbəti ümumi yığıncağı keçiriləcəkdir.

***Yığıncaqda aşağıdakı məsələlərin müzakirəsi nəzərdə tutulmuşdur:***

1. Bankın kənar auditor tərəfindən təsdiqlənmiş və Audit Komitəsi tərəfindən tövsiyə edilmiş illik maliyyə hesabatlarının təsdiqi;
2. Cari və təşkilati məsələlərə baxılması.

Yığıncaqda iştirak etmək üçün şəxsiyyət vəsiqəsi və müvafiq səlahiyyət təsdiqedici sənədləri təqdim etməyiniz xahiş olunur.

Gündəlikdə duran məsələlər üzrə materiallar elektron poçt vasitəsilə göndəriləcəkdir.

***"Yelo Bank" ASC-nin Müşahidə Şurası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankının adına ölkə xaricindən daxil olan və onun adından ölkə xaricinə göndərilən yüklərin gömrük rəsmiləşdirilməsi və təyin edilmiş ünvana çatdırılması xidmətinin satın alınması ilə bağlı keçirilmiş kotirovka sorğusu üzrə Satınalmalar komissiyasının 14 aprel 2023-cü il tarixli qərarına əsasən, "MBM GROUP" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

# Hava Hücumundan Müdafiə bölmələrində döyüş atışları icra edilib

Müdafiə nazirinin təsdiq etdiyi 2023-cü ilin hazırlıq planına əsasən, ümumqoşun poliqonunda Hava Hücumundan Müdafiə bölmələrində döyüş atışları icra edilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, atışların keçirilməsində əsas məqsəd şəxsi heyətin zenit-raket komplekslərini (ZRK) idarəetmə bacarıqlarının təkmilləşdirilməsi və döyüş qabiliyyətinin daha da yüksəldilməsidir.



Atış çalışmalarında "OSA" və S-125 ZRK-nin start mövqeyinə çıxarılması və döyüş tətbiqinə hazırlanması üzrə normativlər yerinə yetirilib.

Komplekslərin döyüş heyətləri şərti düşmən hədəflərinin aşkar olunaraq praktiki atışlarla məhv edilməsi tapşırıqlarını peşəkarlıqla icra ediblər.

# Bəzi bölgələrdə 28 dərəcə isti olacaq

**Azərbaycanda aprelin 27-nə gözlənilən hava proqnozu açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub küləyi əsəcək. Havanın temperaturu gecə 11-15°, gündüz 18-23° isti olacaq. Atmosfer təzyiqi 761 millimetr civə sütunundan 758 millimetr civə sütununa enəcək. Nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi şimal və qərb rayonlarında havanın arabir yağıntılı olacağı gözlənilir. Şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 11-16°, gündüz 23-28° isti, dağlarda gecə 4-9°, gündüz 13-18° isti olacağı ehtimal edilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 8-13°, gündüz 21-26° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə havanın arabir yağıntılı olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 4-9°, gündüz 11-15°, bəzi yerlərdə 16-19° isti olacağı proqnozlaşdırılır.



Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 4-9°, gündüz 11-15°, bəzi yerlərdə 17-20° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarının bəzi yerlərində əsasən gecə və axşam havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 9-14°, gündüz 21-26° isti olacağı ehtimal edilir.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 8-13°, gündüz 19-24° isti, dağlarda gecə 3-8°, gündüz 12-17° isti olacağı ehtimalı var.

Şirvan şəhərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 11-16°, gündüz 23-28° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 11-16°, gündüz 20-25° isti, dağlarda gecə 10-13°, gündüz 16-20° isti olacaq.

# Azərbaycan Hərbi Hava Qüvvələrinin nümayəndələri "Anadolu Qartalı - 2023" təlimində iştirak edəcəklər

Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) uçuş və texniki heyəti, həmçinin aviasiya vasitələri "Anadolu Qartalı - 2023" beynəlxalq təlimində iştirak etmək üçün Türkiyənin Konya şəhərinə yola düşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, mayın 2-də başlayacaq təlimə Azərbaycan HHQ-nin bir qrup şəxsi heyəti və Su-25 hücum təyyarələri cəlb olunacaq.

Azərbaycan, Türkiyə, Pakistan, Birləşmiş Ərəb Əmirlikləri və İngiltərə nümayəndələrinin iştirakı ilə keçiriləcək beynəlxalq təlim mayın 23-dək davam edəcək.







## ALLAH RƏHMƏT ELƏSİN!

Zakir Fərəcov və Sumqayıt Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Sumqayıt Regional Mədəniyyət İdarəsinin rəisi Rəşad Əliyevə həyat yoldaşı

**GÜNAY ƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor Ədalət Muradov və universitetin kollektivi Bakı Mühəndislik Universitetinin Maliyyə-təsərrüfat işləri üzrə prorektoru Mikayıl Zeynalova qardaşı

**ELMAN ZEYNALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5627
Sifariş 1013

Qiyməti 40 qəpik